Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 42 (8065) CÜMƏ AXŞAMI, 21 fevral 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan naminə

## Mehriban xanım Əliyeva öz peşəkar fəaliyyəti və məsuliyyətli işi ilə Azərbaycan xalqının və beynəlxalq ictimaiyyətin dərin sevgisini qazanıb

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva böyük qayğı göstərdiyi müxtəlif sahələrdə mühüm xidmətlərinə görə Azərbaycan xalqının dərin rəğbətini və sevgisini qazanıb.**



Hörmətli Mehriban xanım yüksək əxlaqi, elmi və mədəni dəyərlərə malik bir ailədə doğulub və tərbiyə alıb. Valideynləri Mehriban xanımın milli və mədəni şəxsiyyət olaraq formalaşmasında əvəzsiz rol oynayıblar. Təvazökar, sadə və ziyalı bir ailədə tərbiyə almış, həmin mühitdən bəhrələnmiş, sonra isə dünyəvi siyasi bir ailədə - ulu öndər Heydər Əliyev ailəsində siyasətçi kimi püxtələşmişdir. Bütün bunlar Mehriban xanımda vətəninə, millətinə olan sevgi ilə yanaşı, sosial, humanitar sahəyə - musiqiyə, incəsənətə və milli adət-ənənələrə böyük maraq yaradıb. Birinci xanım ehtiyacı olan insanların problemlərinin həllində, onlar üçün normal yaşayışın təmin olunmasında öz köməyini əsirgəməyib.

Prezident İlham Əliyevin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə Mehriban xanım Əliyevanı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin etməsi ölkə əhalisi və beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir.

O, bu vəzifəyə pillə-pillə, mərhələ-mərhələ, uğurlu təcrübə yolu keçərək gəlmişdir. Artıq Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təyinatından 2 il ötür. Həm xalqımıza, həm də beynəlxalq ictimaiyyətə məlum olduğu kimi, Mehriban xanım Əliyeva Heydər Əliyev Fonduna rəhbərlik etdiyi illərdə, deputatlıq fəaliyyəti dövründə humanitar və sosial sahələrdəki problemli məsələlərə daim diqqət ayırıb, həmçinin bir sıra xarici ölkələrdə xeyirxah layihələrin icrasını təmin edib.

*Ardı 4-cü səh.*

# İlham Əliyev beynəlxalq əməkdaşlığın yeni formatını yaradıb

## Uğurlu enerji inkişafı Azərbaycanı dünyaya etibarlı ölkə, etibarlı tərəfdaş, xarici investisiyaları 100 faiz qoruyan ölkə kimi təqdim edib



Fevralın 20-də Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib. Tədbirdə "Cənub qaz dəhlizi"nin iştirakçısı olan ölkələrin energetika nazirləri və müxtəlif qurumların təmsilçiləri, o cümlədən Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı, Məşvərət Şurasının fəaliyyətdə olan həmsədri Günter Ottinger iştirak ediblər.

Əvvəlcə birgə foto çəkdirildi.

Azərbaycan Prezidenti İlham Əliyev toplantıda nitq söylədi.

## Prezident İlham Əliyevin nitqi



- Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar, hörmətli dostlar.

Azərbaycana xoş gəlmisiniz, sizi görməyə çox şadam, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının beşinci toplantısında iştirakınıza görə sizə təşəkkür edirəm.

Biz 2015-ci ildə bu mühüm prosesə start verdik və Azərbaycan belə bir əməkdaşlıq formatının təşəbbüskarı oldu. Bu təşəbbüs Avropa Komissiyası tərəfindən də dəstəkləndi və beləliklə, bu proses başlandı. Biz belə toplantıların və bu nəhəng layihənin irəli aparılması ilə bağlı görülməli işlərə dair geniş müzakirələrin faydasını görürük. Mən Avropa Komissiyasına bu prosesdə fəal iştiraka görə təşəkkürümü bildirmək istəyirəm. Azərbaycan və Avropa Komissiyası bu şuranın həmtəşkilatçılarıdır və bizim sıx əməkdaşlığımız yaxşı nəticələr verir. Böyük məmnuniyyətlə komissar Ottingeri salamlayıram. O, vaxtilə Avropa İttifaqının enerji məsələləri üzrə komissarı olub və Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələləri üzrə əməkdaşlığın möhkəmlənməsi və "Cənub qaz dəhlizi" layihəsinin irəliləməsində mühüm rol oynayıb. Bu, həqiqətən də vahid komanda işidir və ildən-ilə biz bunun nəticəsini görürük.

Mən Azərbaycanın təşəbbüskarı olduğu bütün enerji layihələrinin, xüsusilə də "Cənub qaz dəhlizi"nin reallaşdırılmasında göstərilən davamlı dəstəyə görə Amerika Birləşmiş Ştatları hökumətinə minnətdarlığımı bildirirəm. Mən ABŞ və Böyük Britaniyanın yüksək səviyyəli nümayəndələrini salamlayıram. Əminəm ki, sizin töhfəniz sayəsində bu toplantının gözəl nəticələri olacaq. Mən, eyni zamanda, "Cənub qaz dəhlizi" layihəsinin həyata keçirilməsində iştirak edən qonşularımız Türkiyə və Gürcüstan, habelə Avropa ölkələrindən Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliyadan olan nümayəndələri salamlayıram. Biz artıq bu layihənin reallaşdırılmasına məsul olan bir komandayıq.

Bildiyiniz kimi, Azərbaycan Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro ilə Avropada enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə dair anlaşma memorandumu imzalayıb. Bunun nəticəsində biz Azərbaycanın enerji resurslarının nəqlinin şaxələndirilməsi üçün müasir və yeni infrastruktur şəbəkəsi yaradacağıq və mən həmin dövlətlərin nümayəndələrini də burada salamlayıram. İllik toplantılarımızda iştirak edən qonaqlarımızın sayı artır. Mənə verilən məlumata görə, burada Macarıstan, Rumıniya, Serbiya, San-Marino və Türkmənistandan olan nümayəndələr iştirak edirlər və şadam ki, bu layihəyə maraq göstərən dövlətlərin sayı artmaqdadır.

*Ardı 2-ci səh.*

# MİSSİYA

**...Vətəndaşlar Mehriban xanıma daha geniş səlahiyyətlərin verilməsini arzulayırdılar.**
**Bu mənada, Prezident belə bir təyinatla, əslində, xalqın sosial sifarişini yerinə yetirdi. Hər zaman olduğu kimi, bu dəfə də xalqın arzularına sayğı göstərdi.**

Mehriban xanım Əliyeva bu ağır dövlətçilik məsuliyyəti yükünü üzərinə götürməklə vətəndaşların ondan yeni gözləntilərini doğrultmaq əzmini, niyyətini, xalq üçün gördüyü işlərin əhatəsini daha da genişləndirmək istəyini ifadə etdi.

Bu seçim uzun illərdən bəri ölkəmizin, eləcə də dünyanın ictimai-siyasi, mədəni həyatında mühüm rol oynayan Mehriban Əliyevaya ümumxalq rəğbətindən, cəmiyyətin sosial sifarişindən irəli gələn təyinat olmaqla yanaşı, eyni zamanda, belə həlledici mərhələdə islahatlar prosesinə böyük dəstək ola biləcək bacarıqlı təşkilatçı, yüksək səriştəli menecer kimi onun peşəkar imkanlarından dövlət idarəçiliyində də istifadə zərurətindən irəli gəlirdi...

*Bax: səh. 6*

# Humanizm zirvəsi



Birinci vitse-prezident təyin edildiyi 2 il müddətində ölkənin ictimai-siyasi, mədəni, humanitar, sosial həyatında mühüm və fəal rol oynayan Mehriban Əliyevanın fəaliyyətinin əsasını Azərbaycan xalqının rifahı, sosial problemlərin, əhalinin aztəminatlı təbəqələrinin problemlərinin həlli təşkil edir.

O, qaçqın və məcburi köçkün soydaşlarımızın sosial, təhsil, məşğulluq, yaşayış və tibbi təminatı istiqamətində bir çox işlər görüb, bu iki il müddətində məcburi köçkünlər üçün yaşayış kompleksləri tikilib istifadəyə verilib. Məcburi köçkünlərin sosial həyat şəraitinin yaxşılaşdırılması Mehriban xanımın apardığı siyasətin özəyini təşkil edir.

Aprel döyüşlərində hərbi rəşadət göstərmiş döyüşçülərin, respublikamızda həssas təbəqədən olan insanların, əlilliyi olan şəxslərin sosial müdafiəsinə, reabilitasiya və cəmiyyətə inteqrasiya məsələlərinə xüsusi diqqəti Mehriban xanımın necə insanpərvər və humanist olduğunun əyani sübutudur. O, ölkəmizin müstəqilliyini və ərazi bütövlüyünü qoruyarkən sağlamlığını itirmiş insanların sosial müdafiəsinin dövlət rəhbərliyi üçün Vətənimizin hərbi müdafiəsi qədər önəmli və vacib məsələ olduğunu göstərdiyi diqqət və qayğı ilə bir daha nümayiş etdirir.

*Bax: səh. 5*

# İlham Əliyev beynəlxalq əməkdaşlığın yeni formatını yaradıb

## Uğurlu enerji inkişafı Azərbaycanı dünyaya etibarlı ölkə, etibarlı tərəfdaş, xarici investisiyaları 100 faiz qoruyan ölkə kimi təqdim edib

## Prezident İlham Əliyevin nitqi

*Əvvəli 1-ci səh.*

Əlbəttə, burada şirkətləri də qeyd etmək lazımdır, çünki onların fəal iştirakı olmadan bu nəhəng layihəni reallaşdırmaq mümkünsüz olardı. Mən SOCAR və BP arasında olan sıx strateji tərəfdaşlığı xüsusi qeyd etmək istəyirəm. BP şirkəti bizim strateji tərəfdaşımız və investorumuzdur, o, Azərbaycanda 25 ildir ki, fəaliyyət göstərir. BP Azərbaycanda enerji layihələrinin icrası ilə bağlı böyük səylər göstərir və onun yatırdığı sərmayələr tərəfimizdən yüksək qiymətləndirilir. Biz Azərbaycanda enerji sahəsinin inkişafı ilə bağlı bir sıra vacib layihələr üzərində çalışırıq.

Beynəlxalq maliyyə qurumlarının güclü dəstəyi olmadan bizim birgə səylərimiz faydalı olmazdı. Bu gün toplantımızda dünyanın aparıcı maliyyə qurumlarının - Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı və Avropa İnvestisiya Bankının nümayəndələri iştirak edirlər.

Fürsətdən istifadə edərək bu layihə ilə bağlı maliyyə töhfəsinə və bizə olan etimada görə sizlərə təşəkkür edirəm. Bizim nə qədər böyük təşəbbüs və nəhəng layihəni həyata keçirdiyimizi təsvir etmək üçün, zənnimcə, bu toplantıda iştirak edənlərin siyahısını səsləndirmək kifayət edər.

"Cənub qaz dəhlizi" ümumi marağımızı əks etdirən və qarşılıqlı surətdə əhəmiyyətli layihədir. Bu, Azərbaycanın 1994-cü ildə təməli qoyulmuş enerji strategiyasının tərkib hissəsidir. O zaman Azərbaycan nəhəng "Azəri-Çıraq-Günəşli" neft yatağı ilə bağlı beynəlxalq neft şirkətlərindən ibarət konsorsiumla müqavilə imzaladı. Bu, bizim beynəlxalq enerji şirkətləri ilə əməkdaşlığımızın başlanğıcı idi. O vaxt Azərbaycan öz təbii resurslarını beynəlxalq əməkdaşlıq üçün əlçatan etdi. İlk dəfə beynəlxalq sərmayələr Xəzər dənizinə yatırıldı və 1994-cü il, əslində, Azərbaycanın inkişafı baxımından da dönüş nöqtəsi oldu. Azərbaycan o zaman yalnız üç il idi ki, gənc müstəqil dövlət idi və iqtisadi vəziyyət çox çətin idi. Ölkəni xarici sərmayə üçün açaraq biz milyardlarla dollarlıq sərmayə cəlb edə bildik. On minlərlə yeni iş yerləri açdıq, Azərbaycanın münbit sərmayə mühitinə malik dövlət olduğunu nümayiş etdirdik. Bunun nəticəsində neftdən gələn gəlirləri iqtisadiyyatın şaxələndirilməsi və müasir infrastrukturun yaradılmasına yönəltdik. Bu gün isə biz artıq qeyri-neft sektorunun inkişafına diqqət yetiririk. Bu, bizim üçün prioritetdir. Ancaq enerji sektoru bundan sonra da Azərbaycanın iqtisadiyyatının aparıcı sahəsi və regional əməkdaşlığın mühüm komponentlərindən biri olacaq.

1996-cı ildə "Şahdəniz" qaz yatağı ilə bağlı müqavilə imzalanmışdır ki, həmin yataq "Cənub qaz dəhlizi"nin əsas resurs mənbəyidir. Ümidvaram ki, bu, yeganə mənbə olmayacaq, ancaq hazırda bu, belədir. Bu, nəhəng bir qaz yatağıdır və onun təbii ehtiyatları artıq hasil və ixrac olunur.

Bizim enerji sahəsinin xronologiyasına nəzər salsaq görərik ki, tədricən məqsədimizə çatmışıq. Məqsəd enerji resurslarının nəqlinin şaxələndirilməsi və bunun üçün müasir infrastrukturun yaradılması idi. Bu baxımdan 1990-cı illərin sonlarında Xəzər və Qara dənizləri birləşdirən Bakı-Supsa neft kəmərinin istifadəyə verilməsi enerji resurslarının nəqli və şaxələndirilməsi üçün vacib məsələ idi. Daha sonra 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan kəməri istifadəyə verildi. Bu, tarixi hadisə idi. Bu nəhəng layihə sayəsində şirkətlər daha çox sərmayə qoymaq və daha çox neft çıxarmaq imkanı əldə etdi. Biz isə ixracımızı mümkün qədər artırdıq və bu gün Bakı-Tbilisi-Ceyhan vasitəsilə digər ölkələrə də neft nəql edilir.

Azərbaycan neft ehtiyatlarının nəqli baxımından vacib tranzit ölkədir və əlbəttə ki, Azərbaycanın regiondakı rolu artmaqdadır. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin açılışı oldu və ilk dəfə olaraq Azərbaycan beynəlxalq bazarlara təbii qaz nəql edən dövlətə çevrildi. Çünki o vaxta qədər biz təbii qazı idxal edirdik. Yəni, biz əsas enerji layihəsi olan "Cənub qaz dəhlizi" istiqamətində davamlı olaraq irəliləmişik və bu gün bu layihənin icrası artıq reallıqdır. Xatırlayıram ki, 2012-ci ildə Azərbaycan və Türkiyə TANAP layihəsi ilə bağlı müqavilə imzaladı və bu, "Cənub qaz dəhlizi"nin başlanğıc nöqtəsi idi. Bir il sonra, 2013-cü ildə "Şahdəniz-2" layihəsi üzrə sərmayə qərarı qəbul edildi və elə həmin ildə Transadriatik boru kəməri TANAP-ın davamı olaraq seçildi. Bütün bunlar onu nümayiş etdirir ki, biz tərəfdaşlarımızla sıx əməkdaşlıq edirik. Biz vahid komanda şəklində çalışmağımız nəticəsində uğurdan bəhs edə bilərik.

Ötən ilin fevral ayındakı sonuncu görüşümüzdən sonra iki



mühüm tədbir keçirildi - biri Azərbaycanda, digəri isə Türkiyədə. May ayında "Cənub qaz dəhlizi"-nin, iyunda isə TANAP-ın rəsmi açılışları baş tutdu. Bunlar "Şahdəniz" yatağının istismarı və "Cənub qaz dəhlizi"nin həyata keçirilməsi baxımından mühüm hadisələr idi. Bu gün biz bu nəhəng enerji layihəsinin yekunlaşdırılmasına yaxınıq. Onun dörd elementindən üçü artıq hazırdır və istifadə olunur. TANAP layihəsinin istifadəyə verilməsindən sonra 1 milyard kubmetr qazın Türkiyə bazarına ixracı bizi məmnun edir.

Transadriatik boru kəmərinin inşasında da böyük irəliləyiş var. Ötən ilin fevral ayında şura qarşısında çıxışımda TAP-ın hazırlığının 67 faiz səviyyəsində olduğunu qeyd etmişdim. İndi isə son göstəricilərə görə bu rəqəm 87 faizdir. Yəni, bir ildə biz böyük irəliləyişə nail olmuşuq, işlər uğurla gedir və ümidvaram ki, gələn il biz yeni nəticələr haqqında danışacağıq.

"Cənub qaz dəhlizi" enerji şaxələndirilməsi layihəsidir. Enerji resurslarının şaxələndirilməsi istehsalçı, istehlakçı və tranzit ölkələr üçün çox vacibdir. Hesab edirəm ki, biz burada yaxşı balans tapa bilmişik - yəni, istehsalçı olan Azərbaycan və istehlakçı və tranzit dövlətlər arasında. Maraqların balansı bu layihənin uğurunu şərtləndirir. Çünki biz bir-birimizin ehtiyac və narahatlıqlarını anlamağa çalışırıq. Çalışmışıq ki, bir-birimizi dəstəkləyək, zənnimcə, bu işdə uğurlu olmuşuq və belə toplantıların əhəmiyyəti olduqca böyükdür. Çünki biz il ərzində görülən işləri nəzərdən keçirir, eyni zamanda, gələcək addımlarımızı planlaşdırır və işimizin irəlilədilməsi məqsədilə il ərzində isə ikitərəfli və çoxtərəfli görüşlər, məsləhətləşmələr və konfranslar keçiririk. Bir daha qeyd edirəm ki, "Cənub qaz dəhlizi" enerji şaxələndirilməsi layihəsidir. Çünki o, həmçinin nəqliyyat marşrutlarını və mənbələri şaxələndirir. Azərbaycan Avropaya enerji resurslarının nəqli baxımından yeni mənbədir və təbii ki, yeni kəmərlər inşa etməklə biz enerji marşrutlarını şaxələndiririk. Yəni, bu, tam şaxələndirmədir, əslində, bu, Avropanın enerji xəritəsini dəyişdirir və beləliklə, "Cənub qaz dəhlizi"-nin əhəmiyyəti artır.

Əlbəttə ki, "Cənub qaz dəhlizi" enerji təhlükəsizliyi layihəsidir. Biz yaxşı anlayırıq ki, enerji təhlükəsizliyi olmadan milli təhlükəsizliyin təmin edilməsi çətinləşir. Enerji təhlükəsizliyi hər bir dövlətin milli təhlükəsizliyinin ayrılmaz bir hissəsidir. O dövlətlər ki, xarici enerji mənbələrindən asılıdır, onlar əmin olmalıdırlar ki, bu marşrut dayanıqlı və uzunmüddətli olacaq. Onlar özlərinin gələcəyini və sənaye inkişafını planlaşdırmalıdır. Eyni zamanda, təbii sərvətlərlə zəngin olan istehsalçı dövlətlər etibarlı bazarlar olmadan öz məqsədlərinə çata bilməzlər. Beləliklə, bu, enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi və geniş beynəlxalq əməkdaşlıq layihəsidir.

Bu gün toplantının formatı onu nümayiş etdirir ki, biz çox geniş beynəlxalq əməkdaşlıq formatını yarada bilmişik. Maliyyə qurumları, şirkətlər və ölkələrin bir amalı var. Biz bu layihənin reallaşdırılmasına inanırıq və hesab edirik ki, hər birimiz üçün bu, uzunmüddətli uğur hekayəsi olacaqdır.

Azərbaycanın qaz ehtiyatlarına gəldikdə, təsdiq edilmiş ehtiyatlarımız 2,6 trilyon kubmetrdir. Əlbəttə ki, "Şahdəniz" Azərbaycanın əsas qaz yatağıdır. Lakin, eyni zamanda, hazırda istismar prosesində olan digər yataqlar da var və düşünürəm ki, tezliklə biz "Abşeron" yatağından yaxşı nəticələr əldə edəcəyik. Əminəm ki, ən yaxın gələcəkdə biz oradan qaz hasil etməyə başlayacağıq. Böyük qaz ehtiyatına malik "Ümid", "Babək" yataqları və digər yataqlar da çox ümidvericidir. Ona görə də mən əminəm ki, "Şahdəniz" "Cənub qaz dəhlizi" üçün yeganə resurs mənbəyi olmayacaq və yataqlarımızdan nə qədər çox qaz hasil edilsə, tərəfdaşlarımızı təchiz etmək və haqqında danışdığımız təchizat şəbəkəsini şaxələndirmək üçün daha çox potensial olacaq.

Əlbəttə ki, enerji əməkdaşlığı layihələri digər sahələrdəki əməkdaşlıqda da çox mühüm rol oynayır. Mən xüsusilə nəqliyyatı qeyd edərdim. Bu gün Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzinə çevrilir. "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizləri bizim ölkəmizin ərazisindən keçir. Biz müasir nəqliyyat infrastrukturuna böyük həcmdə investisiya yatırmışıq. Bakı dəniz limanı, Avropa ilə Asiyanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, magistral yollar, Xəzər dəniz gəmiçiliyi, hava limanları - bütün bunlar bizim neft və qaz satışından əldə etdiyimiz gəlirlər sayəsində mümkün olub. Beləliklə, biz gəlirləri əlavə gəlir gətirəcək və ümumi işə xidmət edəcək sektorlara yönəltmişik. Çünki nəqliyyat layihələri, eləcə də enerji layihələri ölkələri birləşdirir. Ölkələr əlaqəli, qarşılıqlı şəkildə bir-birindən asılı olur və hər kəs mənfəət əldə edir. Ona görə də biz enerji təhlükəsizliyi layihələrinin faydasını digər sahələrdə görürük.

Əlbəttə ki, Azərbaycanın uğurlu enerji inkişafı bizə özümüzü dünyaya etibarlı ölkə, etibarlı tərəfdaş, xarici investisiyaları 100 faiz qoruyan ölkə kimi təqdim etməyə imkan verib. Bizim enerji şirkətləri ilə bütün müqavilələrimiz parlament tərəfindən ratifikasiya olunur və qüvvəyə minir. Bu səbəbdən də investorlar 100 faiz əmin olurlar ki, bu müqavilələrdə bir söz belə dəyişdirilməyəcək. Bu, etimad yaradır. Bu, həmçinin bizə digər sektorlara milyardlarla investisiya cəlb etməyə imkan verib.

Azərbaycana yatırılmış investisiyaların ümumi həcmi 250 milyard dollara yaxındır. Bunun yarısı xarici investisiyalardır. Bu, bizə iqtisadiyyatımızı şaxələndirməyə, islahatları uğurla həyata keçirməyə, yaxşı biznes mühiti yaratmağa imkan verib. Dünya Bankının sonuncu "Doing Business" hesabatına əsasən, Azərbaycan 25-ci yerdədir. Beləliklə, biz möhtəşəm uğur qazanmışıq və biznes mühiti nöqteyi-nəzərindən 10 ən islahatçı ölkədən biriyik.

Enerji resursları və gəlirlərindən düzgün istifadə sayəsində biz infrastruktura, sosial infrastruktura böyük həcmdə investisiya yatırmağa, əhalinin yaşayış səviyyəsini qaldırmağa nail olmuşuq. Ona görə də bu layihə bizim üçün, əminəm ki, hamımız üçün olduqca mühüm əhəmiyyət kəsb edir.

Şadam ki, bu gün biz uğurlar, nəticələr barədə danışa bilirik və sözsüz ki, bu gün biz gələcək planlar barədə də danışacağıq.

Sizə uğurlar arzulayıram. Bizimlə birgə olduğunuza görə sizə təşəkkür edirəm.

❖ ❖ ❖

Azərbaycanın energetika naziri **Pərviz ŞAHBAZOV** dedi:

- Cənab Prezident, icazə verin, Məşvərət Şurasının üzvləri adından Sizə bizim prioritetlərimiz və vəzifələrimizə bir daha diqqət çəkən əhatəli çıxışınıza görə dərin minnətdarlığımızı ifadə edim. Məşvərət Şurasının iclaslarında Sizin daimi iştirakınız və davamlı dəstəyiniz bu qurum yaranandan onun işinə istiqamət verib. İnanıram ki, Sizin rəhbərliyinizlə Məşvərət Şurasının hazırkı iclası həm də "Cənub qaz dəhlizi" layihəsi ilə bağlı mühüm məsələlərin müzakirə olunacağı forum kimi xidmət edəcək.

Cənab Prezident, icazə verin, iştirakınıza və çıxışınıza görə bir daha Sizə minnətdarlığımı bildirim və çıxış etmək üçün sözü Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı cənab Günter Ottingerə verim.

❖ ❖ ❖

Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı Günter Ottinger çıxış etdi.

## Komissar Günter Ottingerin çıxışı

- Zati-aliləri, hörmətli Prezident Əliyev.

Hörmətli nazir Şahbazov, nazirlər, həmkarlar, xanımlar və cənablar.

2019-cu il bizim "Cənub qaz dəhlizi" layihəsinin qalan hissələrinin maliyyələşməsi baxımından əhəmiyyətli il olacaq. Mən ötən ilin mayında baş tutmuş ilk qaz mərasimindən sonra Bakıda keçirilən neft-qaz konfransında Avropa İttifaqı adından iştirak etmək şərəfinə nail olmuşam. Azərbaycan qazı TANAP vasitəsilə artıq buradan Türkiyəyə nəql edilir. Biz Azərbaycan qazının yaxın gələcəkdə, - ümidvarıq ki, gələn il, - Avropa İttifaqına çatmasını səbirsizliklə gözləyirik. Avropa İttifaqı "Cənub qaz dəhlizi" layihəsinin mümkün qədər tez tamamlanması üçün əlindən gələni edəcək.

Bu dəhliz strateji əhəmiyyətə malikdir, çünki o, təkcə təchizat marşrutlarının deyil, həm də təchizat mənbələrinin şaxələndirilməsinə imkan verəcək. Təchizat mənbələri deyəndə "Şimal Axını 2" və ya "Türk Axını", yeni mənbələr deyəndə isə "Cənub qaz dəhlizi" - Azərbaycan və Avropa İttifaqı nəzərdə tutulur. Gələcəkdə təchizat səviyyəsinin təhlükəsizliyini əhəmiyyətli dərəcədə inkişaf etdirmək üçün hər iki element bərabər şəkildə vacibdir.

Bu gün biz təkcə geriyə baxmaq istəmirik, biz gələcəyə baxmalıyıq. "Cənub qaz dəhlizi" təkcə Avropanın enerji şaxələndirilməsi üçün xüsusi əhəmiyyət kəsb etmir. O, həm də dəhliz boyunca yerləşən ölkələrdə və onların hüdudlarından kənarda dinamik proseslərə start verib. Söhbət təkcə qazdan deyil, daha çox məsələlərdən - qonşuluq və tərəfdaşlıqdan gedir. Bu, Məşvərət Şurasının beşinci toplantısıdır. Fürsətdən istifadə edərək mən 2014-cü ildə həmkarım, vitse-prezident Şefçoviçlə birgə şuranı təsis etdiyinə görə Prezident Əliyevə və bu illər ərzində hər il keçirilən tədbirə evsahibliyi etməklə Azərbaycanın nümayiş etdirdiyi möhtəşəm qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istərdim. Mən səmimi-qəlbdən inanıram ki, Məşvərət Şurası bu layihənin inkişaf etdirilməsində mühüm rol oynayıb. O, çağırışlarla birlikdə məşğul olunmasını təmin etmək üçün bütün tərəfləri bir araya gətirib. Bugünkü uğur həm də layihədə iştirak edən, onun tikintisinə maliyyə vəsaiti ayıran şirkətlərin, eləcə də maliyyə institutları - Avropa İnvestisiya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və başqalarının peşəkarlığı sayəsində mümkün olub. Biz tezliklə deyə biləcəyik ki, 3500 kilometr uzunluğunda kəmər rekord zaman kəsiyində, müxtəlif ölkələrdən keçməklə və smetada nəzərdə tutulandan az vəsait sərf olunmaqla tikilib. Bu cür iddialı infrastruktur layihələri çox deyil. Bu, tarixi layihədir.

"Cənub qaz dəhlizi" sayəsində, - lakin təkcə bunun sayəsində deyil, - Azərbaycan Avropa İttifaqı üçün əsas strateji tərəfdaşdır. Bu il biz Şərq Tərəfdaşlığının 10 illiyini qeyd edirik. Azərbaycan hələ də bir sıra iqtisadi çətinliklərin öhdəsindən gəlməyə çalışan Şərq Tərəfdaşlığı regionunda öz inkişafı ilə mayak rolunu oynayan, inkişaf etməkdə olan, orta gəlir səviyyəli ölkədir. Azərbaycan güclü artım tempinə malik ölkədir və çağırışların öhdəsindən inamla gəlir. Azərbaycan, həmçinin öz iqtisadiyyatının şaxələndirilməsi ilə fəal şəkildə məşğul olur. Bu, açıq-aşkar sizin əməkdaşlığı genişləndirə biləcəyiniz sahədir.

Həqiqətən, ötən ilin iyulunda Azərbaycan birgə tərəfdaşlıq prioritetlərini irəli sürüb, onlar artıq ratifikasiya olunub və 2018-ci ilin oktyabrında qüvvəyə minib. Hazırda Avropa İttifaqı Avropa qonşuluq aləti çərçivəsində prioritetlərin birgə həyata keçirilməsini dəstəkləmək üçün maliyyə mexanizmi hazırlayır. Tərəfdaşlıq prioritetləri həm də mühüm enerji fəslini əhatə edən, hazırda haqqında danışıqlar apardığımız genişləndirilmiş razılaşmanın gələcək icrası üçün zəmin yaratmağa kömək edəcək. Biz artıq bu danışıqlarda əhəmiyyətli irəliləyişə nail olmuşuq. Bu həftə Məşvərət Şurasına paralel olaraq səmərəli ticarət danışıqları aparılır.

Azərbaycan enerjini istehsal və ixrac edən mühüm ölkədir. Avropa İttifaqı bunu yaxşı bilir. SOCAR "Cənub qaz dəhlizi" kontekstində təkcə öz müasir texnologiyasını və "nou-hau"sunu təklif etmir, eyni zamanda, "Cə-




nub qaz dəhlizi"ndə və onun hüdudlarından kənarda, həm Avropa İttifaqında, Qərbi Balkan ölkələrində və həm də bizim tərəfdaşımız olan Türkiyədə çox vacib bir sərmayədardır. Onun biznes modeli neft və qazın hüdudlarını aşaraq hazırda emal fəaliyyəti və neft-kimya sənayesinədək genişlənir. Ona görə də Azərbaycan ortaya böyük enerji təcrübəsi qoyur ki, Avropa İttifaqı bundan yalnız faydalana bilər.

Biz başa düşürük ki, enerji məsələsi bu gözəl ölkə üçün xüsusilə həssas məsələdir və öz narahatlıqlarımızı və sizin narahatlıqlarınızı nəzərə almağa hazırıq. Lakin biz həm də yeni tərəfdaşlıq razılaşması kontekstində Avropa İttifaqının normativ-hüquqi bazasına hörmət etməliyik. Mən eşitməyə məmnunam ki, dünənki enerji danışıqları mahiyyət etibarilə irəliləyişə imkan verdi. Enerji sahəsində irəliləyiş hər iki tərəfə, həmçinin qalan digər sahələrdə danışıqları yekunlaşdırmağa imkan verməlidir. Bu, bizə əhəmiyyətli hissəsi ticarət üzrə aparılan danışıqları tamamlamağa və 2019-cu ilin sonlarına yaxın komissiyamızın səlahiyyət müddətinə kömək etmək imkanını verəcək.

Avropa İttifaqı və Azərbaycan arasında yeni saziş üzrə danışıqlara dair yanaşmanın "Cənub qaz dəhlizi" layihəsinə dair yanaşmaya bənzər olması, əməkdaşlıq və qarşılıqlı etimad ruhunda aparılması mühüm əhəmiyyət kəsb edir. Mən əminəm ki, biz hər iki tərəfi qalibə çevirən zəruri kompromisləri tapa biləcəyik və güclü tərəfdaşlar arasında bu, belə də olmalıdır.

Azərbaycanın enerjidən savayı, çox mühüm geosiyasi rolu da var və ölkənin yerləşdiyi məkan ona nəinki beynəlxalq enerji qovşağı kimi, eyni zamanda, mühüm nəqliyyat qovşağı kimi də fəaliyyət göstərmək imkanı verir. Azərbaycan öz limanlarına və dəmir yolu şəbəkələrinə sərmayə yatırır. Azərbaycan Avropa İttifaqına Mərkəzi Asiyaya və Çinə çıxış əldə etmək üçün mühüm bir yol açır.

Məşvərət Şurası müxtəlif ölkələri və təşkilatları öz işinə cəlb edən nadir çoxtərəfli bir platformadır. Təşkilatçılar arasında maraqların vaxtaşırı dəyişə bilməsinə baxmayaraq, onların hamısı Cənub Qaz Dəhlizi Məşvərət Şurasına ehtiyac duyur və ümumi həllər naminə çalışır. Hesab edirəm ki, "Cənub qaz dəhlizi" layihəsinin tamamilə işlək vəziyyətdə olmasına baxmayaraq, bu cür uğurlu regional əməkdaşlıq formatını tərk etməzdən öncə düşünmək lazımdır. Məşvərət Şurası, yəni, biz hamımız çevik dəyişən enerji aləmində vacib müzakirə forumunu təşkil etməyə davam edə bilərik. Biz hamımız enerji keçidinin çoxsaylı çağırışları ilə üz-üzə qalmışıq. Avropa İttifaqı Azərbaycan kimi, Paris İqlim Sazişinə qoşulub və burada səbəb bütün Avropa üçün təmiz enerji mənbələrinin qəbul edilməsidir. Beləliklə, Avropa İttifaqı nəinki özünün 2030-cu ilə qədər enerji və iqlim hədəflərinə çatmaq üçün töhfə verir və təmiz enerjiyə keçid dönəmində rəhbərlik nümayiş etdirir, eyni zamanda, yeni enerji sistemlərimizin gələcəkdə necə fəaliyyət göstərəcəyinə dair dəyişiklikliyə hazır olmaq üzərində çalışır. Fakt etibarilə Avropa İttifaqı artıq 2030-cu ildən sonrakı dönəmə nəzər yetirir.

Ötən ilin noyabr ayında komissiya müasir, rəqabətədavamlı və iqlimə münasibətdə neytral olan iqtisadiyyat üzrə özünün uzunmüddətli strategiyasını dərc edib. Uzunmüddətli baxış 2050-ci ilə qədər iqtisadiyyatımızın necə dekarbonizasiya edilməsi üçün müxtəlif ssenariləri nəzərdən keçirir, bu da iqlim dəyişikliyinə qarşı səmərəli mübarizə aparmaq istədiyiniz təqdirdə zəruridir. Təmiz enerjiyə keçid kontekstində qaz gələcək illər və onilliklər ərzində mühüm əhəmiyyət kəsb edən keçid enerjisi olaraq qalacaq. Avropa İttifaqında biz orta və uzunmüddətli perspektivdə qaza tələbatımızın vaxt getdikcə, demək olar ki, sabit qalacağını gözləyirik. Çünki bizim yerli resurslarımız gözləndiyindən daha tez tükənir. Məsələn, Niderlandı götürək. Tədricən baş verən dekarbonizasiya üçün yeni və innovativ konsepsiyalar tələb olunacaq. Nəqliyyat və istilik təchizatı sektorları üçün elektrofikasiyanın artacağı gözlənilir. Lakin biz, eyni zamanda, daha ənənəvi enerji mənbələrinin hidrogen, yaşıl qaz, yeni enerji mənbələrinə konvertasiyanı müşahidə etməkdəyik və bu da bizə mövcud enerji infrastrukturlarına arxalanmağa davam etmək imkanını yarada bilər. Biz nəinki Paris İqlim Sazişi üzrə üzərimizə götürdüyümüz öhdəlikləri yerinə yetirmək üçün qanunlarımızı dəyişirik, Avropa İnvestisiya Bankı kimi, Avropa maliyyə institutları bu transformativ dəyişikliyin önündə gedirlər.

Biz Azərbaycanın enerji resurslarından başqa sahələrdə də bu təşkilatlarla əməkdaşlıq etmək marağında olduğunu anlayırıq. Kənd təsərrüfatı məhsullarının emalına, ağıllı şəhərlərə, su idarəetməsinə, yol, dəniz və dəmir yolu dəhlizlərinə, habelə ölkənin rəqəmsal infrastrukturuna sərmayə yatırmaqla Azərbaycan iqtisadiyyatının gələcək şaxələndirilməsi ilə bağlı böyük imkanlar mövcuddur. Avropa İttifaqı enerji məsələlərində, məsələn, neft və qaz üzrə əməkdaşlığa sadiq olduğu qədər Azərbaycanın şaxələndirmə planlarını da dəstəkləyir.

Biz öz tərəfdaşımız və qonşu ölkələrimiz üçün enerji daşıyıcıları üzrə etibarlı enerji tərəfdaşı olmağa hazırıq. Bu tərəfdaşlığa görə sizə təşəkkür edirik. Burada çox etibarlı komandamız var. Gəlin, birlikdə işləməyə davam edək. Mən bu gün məhsuldar müzakirələr və fikir mübadilələrinin aparılmasını səbirsizliklə gözləyirəm. Avropa İttifaqı burada olmaqdan şaddır. Sağ olun.

❖ ❖ ❖

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı işini plenar sessiya ilə davam etdirib.

# “Cənub qaz dəhlizi” layihəsinin icrasında Azərbaycanın peşəkar komandası fəal çalışır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı Günter Ottinger ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə “Cənub qaz dəhlizi”nin uğurlu icrasından məmnunluq ifadə edildi, bu baxımdan Məşvərət Şurasının toplantılarının önəmi vurğulandı.

Prezident İlham Əliyev bu layihənin icrasında Avropa İttifaqının fəal iştirakını və rolunu qeyd etdi, “Cənub qaz dəhlizi” layihəsinin uğurla həyata keçirildiyini bildirdi.

Günter Ottinger Avropa Komissiyasının prezidenti Jan Klod Yunkerin salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, “Cənub Qaz Dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında iştirak etməkdən məmnunluğunu bildirdi, layihənin icrasında Azərbaycan tərəfindən peşəkar komandanın fəal çalışdığını vurğuladı. Qonaq bu layihənin uğurlu icrasında Azərbaycanın etibarlı tərəfdaş olduğunu bildirdi. Dövlətimizin başçısı Avropa Komissiyasının prezidenti Jan Klod Yunkerin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avropa Komissiyasının prezidentinə çatdırmağı xahiş etdi.

Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında digər sahələrdə də uğurla həyata keçirilən əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# İndiyədək 1 milyard kubmetrdən çox Azərbaycan qazı yeni xətt vasitəsilə Türkiyəyə çatdırılıb



Fevralın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Fatih Dönməz ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Fatih Dönməz görüşə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

“Cənub qaz dəhlizi”nin əhəmiyyətini xüsusi qeyd edən Fatih Dönməz Türkiyənin bu layihənin ilk mərhələsindən Azərbaycanın yanında olduğunu vurğuladı. O, “Cənub qaz dəhlizi” layihəsinin icrasının uğurla davam etdirildiyini bildirdi. İndiyədək TANAP layihəsinin və STAR neft emalı zavodunun açıldığını xatırladan Fatih Dönməz belə layihələrin gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirdi.

Prezident İlham Əliyev Türkiyənin “Cənub qaz dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında yüksək səviyyədə iştirakına görə minnətdarlığını bildirdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə imzalanan bu layihənin təməlinin TANAP ilə qoyulduğunu vurğulayan dövlətimizin başçısı onun tarixi əhəmiyyətini qeyd etdi, TANAP-ın rəsmi açılışını xatırlatdı. Dövlətimizin başçısı Türkiyə ilə birlikdə bu layihənin qısa müddətdə başa çatdırılmasının böyük nailiyyət olduğunu vurğuladı.

Türkiyə-Azərbaycan əməkdaşlığının bütün sahələrdə, o cümlədən enerji sahəsində də böyük nəticələrə gətirib çıxardığını qeyd edən Prezident İlham Əliyev məmnunluqla bildirdi ki, indiyədək 1 milyard kubmetr qaz yeni xətt vasitəsilə Türkiyəyə çatdırılıb. STAR neft emalı zavodunun fəaliyyətə başlamasının önəmini vurğulayan Prezident İlham Əliyev bildirdi ki, bir neçə milyard dollarlıq sərmayə bu gün artıq nəticə verir.

Prezident İlham Əliyev “Cənub qaz dəhlizi” layihəsinin başa çatdırılması üzrə işlərin uğurla davam etdirildiyini söylədi.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

# Donald Tramp “Cənub qaz dəhlizi” layihəsinə yüksək dəstək göstərir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Sandra Oudkirk ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Prezident İlham Əliyev “Cənub qaz dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında layihənin uğurlu icrası ilə bağlı səmərəli müzakirələrin aparıldığını vurğuladı. Dövlətimizin başçısı ötən il bir neçə mühüm layihənin icrasının başa çatdırıldığını qeyd edərək toplantıda yeni tərəflərin də təmsil olunduqlarını vurğuladı. Bildirdi ki, bu, layihəyə artan marağın göstəricisidir.

Dövlətimizin başçısı ABŞ Prezidenti Donald Trampın “Cənub qaz dəhlizi” layihəsinə göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini qeyd etdi.

ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Sandra Oudkirk 2018-ci ildə layihənin uğurlu icrası istiqamətində mühüm nailiyyətlərin əldə olunduğunu dedi. O, ötən il bu layihə çərçivəsində yeni xətlə Türkiyəyə ilk dəfə olaraq 1 milyard kubmetr qazın çatdırıldığını vurğuladı.

Görüşdə bərpaolunan və alternativ enerji, eləcə də digər sahələrdə Azərbaycan ilə ABŞ arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

# İtaliya Azərbaycanın ən böyük müəssisələrini inşa edir



Fevralın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasının iqtisadi inkişaf nazirinin müavini Andrea Cioffi ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev İtaliyanın iqtisadi inkişaf nazirinin müavini Andrea Cioffi ilə görüşdən məmnunluğunu bildirdi, səfərin məhsuldar olacağına əminliyini ifadə etdi. Azərbaycan-İtaliya əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimizin yaxşı tərəfdaş olduqlarını dedi. İtaliya şirkəti tərəfindən inşa olunan “SOCAR-Polymer” zavodunun bir neçə gün əvvəl açılışında iştirakını xatırladan dövlətimizin başçısı ötən il bu zavodun birinci mərhələsinin açılışının İtaliya Prezidenti Sercio Mattarella ilə birlikdə həyata keçirildiyini dedi. Prezident İlham Əliyev İtaliya şirkətlərinin Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən neft-qaz, tikinti və iqtisadiyyatın digər sektorlarında da uğurla fəaliyyət göstərdiklərini və ölkəmizin onların fəaliyyətindən məmnun olduğunu bildirdi. Dövlətimizin başçısı “Cənub qaz dəhlizi” layihəsinin icrası ilə bağlı ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu dedi. Qeyd etdi ki, bu layihə dövlətləri və şirkətləri daha da sıx birləşdirir.

İtaliyanın iqtisadi inkişaf nazirinin müavini Andrea Cioffi görüşə görə minnətdarlığını bildirdi. O, dövlətimizin başçısı ilə görüşün bir çox məsələlərlə bağlı fikir mübadiləsi aparmaq üçün yaxşı imkan olduğunu dedi. Andrea Cioffi Azərbaycan ilə münasibətlərin bütün sahələrdə, o cümlədən ticarət sahəsində də inkişaf etdiyini vurğuladı.

# Avropa İnvestisiya Bankı regionda Azərbaycanın iştirakı ilə həyata keçirilən irimiqyaslı nəqliyyat layihələrinin maliyyələşdirilməsində maraqlıdır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Avropa İnvestisiya Bankının vitse-prezidenti Vazil Hudak ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev “Cənub qaz dəhlizi” Məşvərət Şurası toplantılarının təşkilinin yaxşı ənənəyə çevrildiyini vurğulayaraq, bu mühüm tədbirlərdə planlaşdırılan hədəflərə nail olunduğunu qeyd etdi.

Avropa İnvestisiya Bankının vitse-prezidenti Vazil Hudak “Cənub qaz dəhlizi” layihəsinin uğurlu icrasında Məşvərət Şurasının toplantılarının önəmini vurğuladı. O, Avropa İttifaqının əsas maliyyə strukturu olan bu bankın “Cənub qaz dəhlizi” layihəsinə maliyyə dəstəyi göstərməsinin əhəmiyyətini qeyd etdi. Regionda Azərbaycanın iştirakı ilə həyata keçirilən irimiqyaslı nəqliyyat layihələrinə toxunan Vazil Hudak Avropa İnvestisiya Bankının bu kimi nəqliyyat və digər layihələrin də maliyyələşdirilməsində maraqlı olduğunu ifadə etdi.

Layihəyə verdiyi dəstəyə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev qeyd etdi ki, bu, bankın bölgədə maliyyələşdirdiyi ən böyük layihələrdən biridir. “Cənub qaz dəhlizi”nin dayanıqlı layihə olduğunu xatırladan Prezident İlham Əliyev bu kreditlərin Avropa İnvestisiya Bankının və Avropa İttifaqının layihəyə dəstəyini nümayiş etdirdiyini bildirdi.

Görüşdə müxtəlif sahələrdə əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparıldı.

# Azərbaycanın Dünya Bankı ilə işbirliyi uzunmüddətli və məhsuldardır



Fevralın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembon ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə dövlətimizin başçısı “Cənub qaz dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı kimi vacib tədbirdə iştirakına görə Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembona təşəkkürünü bildirdi. Prezident İlham Əliyev Dünya Bankının “Cənub qaz dəhlizi” layihəsinə və Azərbaycanın reallaşdırdığı digər layihələrə verdiyi davamlı dəstəyə görə minnətdarlığını ifadə etdi. Bu əməkdaşlığı yüksək qiymətləndirən Azərbaycan Prezidenti Dünya Bankı ilə işbirliyinin uzunmüddətli və məhsuldar olduğunu bildirdi.

“Cənub qaz dəhlizi” layihəsinin icrasının uğurla davam etdirilməsindən məmnunluğunu ifadə edən dövlətimizin başçısı ötən il layihənin icrasında mühüm irəliləyişlərin olduğunu və bunun bu il də davam etdirildiyini dedi.

Davosda Dünya Bankının baş icraçı direktoru xanım Kristalina Georgiyeva ilə görüşünü xatırladan dövlətimizin başçısı həmin görüşdə gələcək əməkdaşlıq haqqında geniş müzakirələrin aparıldığını bildirdi.

Xanım Mersi Tembon Dünya Bankının baş icraçı direktoru xanım Kristalina Georgiyevanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, Prezident İlham Əliyevin “Cənub qaz dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında dərin məzmunlu nitqində mühüm məsələlərə toxunduğunu vurğuladı. Xanım Mersi Tembon Dünya Bankının baş icraçı direktorunun Davosda Prezident İlham Əliyev ilə görüşdən dərin təəssüratla ayrıldığını bildirdi. Mersi Tembon Azərbaycan ilə Dünya Bankı arasında aparılan müzakirələrdə əksini tapan məsələlərin həyata keçirilməsi istiqamətində ardıcıl tədbirlərin reallaşdırıldığını dedi.

Prezident İlham Əliyev xanım Kristalina Georgiyevanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarının Dünya Bankının baş icraçı direktoruna çatdırılmasını xahiş etdi.

AZƏRBAYCAN www.azerbaijan-news.az

## Mehriban xanım Əliyeva öz peşəkar fəaliyyəti və məsuliyyətli işi ilə Azərbaycan xalqının və beynəlxalq ictimaiyyətin dərin sevgisini qazanıb



"Mən öz fəaliyyətimdə sosial problemlərin, xüsusilə də qaçqın və məcburi köçkün ailələrinin problemlərinin, çətinliklərinin həllinə xüsusi diqqətlə yanaşıram" - deyən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 9 mart 2017-ci il tarixdə sədrliyi ilə keçirdiyi ilk müşavirəni də məhz Bakı və Sumqayıt şəhərlərinin qəzalı vəziyyətdə olan binalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr etmişdi. Bu onun qarşıya qoyduğu prioritet vəzifələrdən birincisi olub: qaçqın, məcburi köçkün və aztəminatlı əhalinin sosial müdafiəsinin gücləndirilməsi, həyat səviyyəsinin yaxşılaşdırılması.

Mehriban xanım Əliyeva həmçinin uşaqlar və onların problemlərinin həllinə böyük diqqət və qayğı ilə yanaşır, yeni məktəblərin, xəstəxanaların, musiqi məktəblərinin, talassemiya mərkəzinin və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün yay düşərgələrinin yaradılmasına nail olub. O, uşaqlara göstərdiyi qayğı ilə bərabər, ehtiyacı olan ahıllara da xüsusi diqqətlə yanaşır. Fond tərəfindən icra olunan bütün layihələr müasir müstəqil Azərbaycanın inkişafına mühüm töhfələr verməklə yanaşı, xalqa və dövlətə xidmət prinsipinə söykənir.



# Azərbaycan naminə

Əvvəli 1-ci səh.

Bütün imkan və bacarığını insanların rifahı naminə humanitar proqramların reallaşmasına, Azərbaycanın dünyada sivil ölkə kimi tanınmasına yönəldən Birinci vitse-prezident ehtiyacı olan insanlara hər an yardım etməyə hazır olub.

"Mən öz fəaliyyətimdə sosial problemlərin, xüsusilə də qaçqın və məcburi köçkün ailələrinin problemlərinin, çətinliklərinin həllinə xüsusi diqqətlə yanaşıram" - deyən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 9 mart 2017-ci il tarixdə sədrliyi ilə keçirdiyi ilk müşavirəni də məhz Bakı və Sumqayıt şəhərlərinin qəzalı vəziyyətdə olan binalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr etmişdi. Bu onun qarşıya qoyduğu prioritet vəzifələrdən birincisi olub: qaçqın, məcburi köçkün və aztəminatlı əhalinin sosial müdafiəsinin gücləndirilməsi, həyat səviyyəsinin yaxşılaşdırılması.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti ilk müşavirəsində söz verdi ki, 2 ilə qəzalı binalarda müvəqqəti məskunlaşan 4 min məcburi köçkün ailəsi yeni mənzillərlə təmin olunacaqlar və 2017-ci ilin 5 ayı ərzində qəzalı binalarda məskunlaşan min məcburi köçkün ailəsinin qısa dövr ərzində bütün infrastruktura malik inşa edilmiş yeni qəsəbələrə köçürülməsinə nail oldu. Belə ki, Xəzər rayonu ərazisindəki "Energetika" sanatoriyasında, Binəqədi rayonu ərazisindəki Sarıqayada yerləşən "Şəfəq" pioner düşərgəsində və həmin rayon ərazisindəki tikintisi yarımçıq qalmış təcili tibbi yardım binasında, Xətai və Nəsimi rayonları ərazisindəki qəzalı vəziyyətdə olan hündürmərtəbəli binalarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər yeni və müasir standartlara cavab verən mənzillərlə təmin olundu.

2017-ci il fevralın 21-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva öz xalqına və dövlətinə qırılmaz mənəvi tellərlə bağlığını belə ifadə etdi: "Fəxr edirik ki, son illər ölkəmizdə baş verən müsbət meyillərdə, dəyişikliklərdə, inkişafda, Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında biz kiçik də olsa, öz töhfəmizi verməyi bacarmışıq. Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır". Deyilən bu sözlər və fikirlər onun həyat amalını özündə tam əks etdirir. Mehriban xanımın müxtəlif vəzifə və statuslarda fəaliyyəti - Azərbaycanın çiçəklənməsi, inkişafı naminə gördüyü bütün genişmiqyaslı işlər ictimaiyyətdə ona böyük inam yaradıb.

Hörmətli Mehriban xanım 2004-cü ildə təsis edilmiş və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan fondun xətti ilə cəmiyyətin müxtəlif sahələrinin inkişafına mühüm töhfələr verir. Fond Mehriban xanımın rəhbərliyi ilə ümummilli liderimizin ideyalarını böyük əzmlə və sədaqətlə həyata keçirir. Yaradıldığı gündən bəri Heydər Əliyev Fondu dünya mədəniyyətinin inkişafında, sivilizasiyalararası dialoqun möhkəmlənməsində böyük rol oynayır, humanist dəyərlərin, sülh və tolerantlığın yayılmasına, mədəniyyətlərarası dialoqun inkişafına əvəzsiz töhfələr verir.

Mehriban xanım Əliyeva həmçinin uşaqlar və onların problemlərinin həllinə böyük diqqət və qayğı ilə yanaşır, yeni məktəblərin, xəstəxanaların, musiqi məktəblərinin, talassemiya mərkəzinin və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün yay düşərgələrinin yaradılmasına nail olub. O, uşaqlara göstərdiyi qayğı ilə bərabər, ehtiyacı olan ahıllara da xüsusi diqqətlə yanaşır. Fond tərəfindən icra olunan bütün layihələr müasir müstəqil Azərbaycanın inkişafına mühüm töhfələr verməklə yanaşı, xalqa və dövlətə xidmət prinsipinə söykənir. Azərbaycan mədəniyyətinin və xalqımızın milli-mənəvi dəyərlərinin dünyaya daha yaxından tanıdılması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Xocalı faciəsi kimi ümummilli məsələlər barədə həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, xeyriyyəçilik və digər istiqamətləri əhatə edən layihələrin müsbət nəticələri göz önündədir.

Heydər Əliyev Fondunun dəstəyi ilə Parisdəki Luvr muzeyində İslam incəsənəti bölməsi yaradılıb, Versal sarayında tarixi incəsənət abidələrinin, həmçinin İkinci Dünya müharibəsi nəticəsində dağıdılmış Berlin qəsrinin, Vatikan arxivində saxlanılan nadir əlyazmaların və orada yerləşən qədim heykəllərin bərpa işləri həyata keçirilib. Roma şəhərində yerləşən Kapitoli muzeyində filosoflar zalının bərpası fondun icra etdiyi çoxsaylı layihələrdən bəziləridir.

Dünyanın müxtəlif ölkələrində baş verən təbii fəlakətlərin qurbanları da Mehriban xanımın diqqətindən kənarda qalmır. Təbii fəlakətlərdən əziyyət çəkmiş Rumıniya, Haiti, Pakistan əhalisinə müxtəlif yardımlar göstərilib və inkişaf proqramları həyata keçirilib, həmçinin Heydər Əliyev Fondu Parisdə terror qurbanlarının 7-ci beynəlxalq konfransının təşkili məqsədilə Fransa Terror Qurbanları Assosiasiyasına maliyyə yardımı göstərib.

Ulu öndər Heydər Əliyevin müdrik zəkası, təşəbbüsü, uzaqgörənliyi ilə yaradılmış və cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində bu gün Cənubi Qafqazın ən böyük təşkilatına çevrilmiş Yeni Azərbaycan Partiyasının 7 iyun 2013-cü ildə keçirilmiş V qurultayında hörmətli Mehriban xanım YAP-ın sədr müavini seçildi. Mehriban xanım Əliyeva digər məsuliyyətli vəzifələrlə yanaşı, 730 mindən çox üzvü olan YAP-dakı vəzifəsini də layiqincə yerinə yetirir və mühüm uğurlara imza atır. Sözün əsl mənasında, müasir Azərbaycan qadınının nümunəvi təmsilçisi olan Mehriban xanım digər sahələrlə yanaşı, siyasi arenada da öz sözünü demiş və bu sahədə də yeni-yeni nailiyyətlər qazanmışdır.

Dövlət başçısı cənab İlham Əliyevin son 15 ildə nail olduğu, dünyada analoqu olmayan siyasi və iqtisadi uğurlarının nəticəsi olaraq bu gün Azərbaycan bütün mötəbər beynəlxalq tədbirlərə yüksək səviyyədə evsahibliyi edir. Azərbaycan beynəlxalq tədbirlərə evsahibliyi etmək təcrübəsindən faydalanaraq 2015-ci ildə keçirilən I Avropa Oyunlarını yüksək səviyyədə təşkil etdi. Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva tədbirlə bağlı fikirlərini belə bildirdi: "Bir daha dünyaya göstərəcəyik ki, gənc, müstəqil, dinamik inkişaf edən Azərbaycan böyük uğurlara nail olubdur". Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin dediyi kimi, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanın Avropa Oyunlarının Təşkilat Komitəsinə sədrlik etməsi bu Oyunların lazımi səviyyədə təşkilinə zəmin yaratmışdı. Mehriban xanım habelə 2017-ci ilin may ayında Azərbaycanın evsahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, bu tədbirin də uğurla keçirilməsində mühüm xidmətlər göstərmişdir. "Eurovision" mahnı müsabiqəsinin Bakıda yüksək səviyyədə keçirilməsində də birinci xanımın səyləri danılmazdır.

Şərqlə Qərbi özündə birləşdirən Azərbaycan milli-mənəvi dəyərlərinə əsaslanaraq, daim sivil proseslərə açıqdır və dünyaya inteqrasiya prosesi sürətli axar alıb. Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlər əsas xətt olaraq davam etdirilir. Hörmətli Mehriban xanım Azərbaycan xalqının milli, mədəni, mənəvi dəyəri olan muğam və aşıq musiqisinə yeni nəfəs verməklə yanaşı, onları bütün dünyaya yenidən tanıtdı. Onun Azərbaycan mədəniyyətinə, təhsilinə, səhiyyəsinə və digər sahələrə göstərdiyi diqqəti bütün dünya görür, yüksək qiymətləndirir. Bu gün Mehriban xanım Əliyevanın gördüyü işlərin sədası dünyanın ən nüfuzlu mətbu orqanlarının səhifələrində yer alıb. Ölkəmizdən kənarda apardığı xeyriyyəçilik işləri Azərbaycan qadınının humanizm, mərhəmət kimi dəyərlərə malik olduğunu, dövlət strukturlarında, siyasi arenada və digər sahələrdə Azərbaycan qadınının qeyri-adi istedadını nümayiş etdirir.

Bu gün fəxrlə deyə bilərik ki, dünyanın bir çox ölkələrinin təsis etdiyi ali mükafat və adların təqdimində Azərbaycan xanımının - Mehriban Əliyevanın ismi xüsusi vurğulanır. Göstərilən səylərə görə dünyada ən işgüzar, ictimai xanımlardan biri kimi tanınan Mehriban xanım Əliyeva xarici ölkələrin və beynəlxalq təşkilatların çoxsaylı yüksək orden və medalları ilə təltif olunub.

Birinci xanım Azərbaycan xanımlarını dünya ictimaiyyətinə tanıdaraq onların nəyə qadir olduğunu və bütün müsbət cəhətlərini dünyaya nümayiş etdirdi.Hətta dünya ölkələrinin Birinci xanımları ilə müqayisədə öz xalqına, dövlətinə, Prezidentinə, ailə üzvlərinə bağlılığı ilə fərqlənərək Azərbaycan xanımı olaraq məsuliyyətini, mərhəmətini, yüksək intellektini, ictimai-siyasi dövlət xadimliyini nümayiş etdirdi. Necə ki, Prezident İlham Əliyev son 16 ildə problemli məsələlərin həlli ilə bağlı verdiyi vədlərin hamısını vaxtından əvvəl icra etməyə nail olub, Mehriban xanım da bu yola sadiqliyini son 2 ildə dəfələrlə nümayiş etdirdi. O həm nümunəvi həyat yoldaşı, həm xeyirxah ana, həm yüksək təcrübəyə malik ictimai-siyasi xadim, həm də ləyaqətli Azərbaycan xanımıdır.

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Prezident İlham Əliyevin uğurla apardığı iqtisadi, humanitar, sosial, daxili və xarici siyasətin ən layiqli, fəal, məsuliyyətli icraçı qüvvəsidir.*

**Əli HƏSƏNOV,**
***Yeni Azərbaycan Partiyasının sədr müavini***

# Prezidentin islahatlar kursuna ən böyük töhfəni Mehriban Əliyeva verir





**Azərbaycanda islahatlar yeni mərhələyə qədəm qoyub. Bu sırada xüsusən son günlər sosial məsələlərlə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncamlar göstərir ki, həyata keçirilən siyasətin mərkəzində vətəndaşların yüksək rifah halının təmin olunması dayanır. İlham Əliyevin sosial siyasət kursunun uğurla reallaşmasında ən böyük silahdaşı isə bu gün Birinci vitse-prezident kimi fəaliyyətinin ikinci ili tamam olan xanım Mehriban Əliyevadır.**
**Milli Məclisin deputatları bu barədə fikirlərini qəzetimizlə bölüşdülər.**

## İki ilin uğur salnaməsi

**Səttar MÖHBALIYEV,**
*Milli Məclisin deputatı,*
*Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri*

- Keçdiyi mənalı ömür yolu, yüksək humanizmi, xeyirxahlığı və nəcibliyi, bənzərsiz ictimai fəaliyyəti ilə yüksək ehtiram sahibi olan Azərbaycanın birinci xanımı, Birinci vitse-prezident Mehriban Əliyeva tariximizin şanlı salnaməsinə öz dəst-xətti ilə daxil olan şəxsiyyətlərdəndir. Xeyirxah əməlləri ilə xalqının sevimlisinə çevrilən Heydər Əliyev Fondunun rəhbəri Azərbaycan qadınına xas olan ən gözəl xüsusiyyətləri özündə cəmləşdirən nəciblik missiyasını şərəflə yerinə yetirir.

Bu, bir həqiqətdir ki, insanlara bağlılığı onun daxilindən, mənəvi dünyasından, xoş münasibətindən irəli gəlir. Onun xidmətlərinin sevinci yüzlərlə insanın ömür səhifəsinə yazılıb, neçə-neçə ailəyə səadət bəxş edib, kimsəsizlərə, sosial qayğıya ehtiyacı olanlara həyat eşqi verib, onların qəlbində işıqlı sabaha inam yaradıb.

Xeyirxahlığına, yüksək bacarığına, diqqət və qayğısına görə hamının hörmətini, məhəbbətini qazanmış Merhiban xanım Əliyevanın ölkəmizin ictimai-siyasi və mədəni həyatındakı rolu mühüm, xidmətləri danılmazdır.

UNESCO və ISESCO-nun xoşməramlı səfirinin çoxşaxəli fəaliyyəti, ölkəmizin xaricdə təbliği istiqamətində atdığı addımlar Azərbaycana böyük dvidendlər qazandırıb. Onun nəcib, xeyirxah missiyasının bəhrələri artıq özünü dünyanın ayrı-ayrı məkanlarında da göstərməkdədir. Heydər Əliyev Fondunun dəstəyi ilə müxtəlif ölkələrdə məktəblər, uşaq bağçalarının tikintisi, eləcə də muzeylərin, tarixi abidələrin bərpası da xoşməramlı aksiyaların tərkib hissəsidir. Qayğını və mərhəməti, dünya mədəni irsinin qorunmasını hədəf seçmiş, böyük humanitar layihələrin müəllifi kimi çıxış edən Heydər Əliyev Fondunun istər Azərbaycanda, istərsə də ölkə xaricində artan nüfuzunun arxasında məhz onun yüksək mənəvi və işgüzar keyfiyyətləri dayanır.

Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda təbliği istiqamətindəki böyük xidmətlərinə görə Mehriban Əliyevanın "Heydər Əliyev" ordeni ilə təltif edilməsi bütün deyilənləri bir daha təsdiqləyir.

Vitse-prezidentlik institutunun yaradılması Azərbaycanda siyasi yenilik kimi tarixə düşdü və Birinci vitse-prezident kimi fəaliyyət göstərdiyi 2 il müddətində Mehriban xanımın gördüyü işlər ölkə vətəndaşlarının dövlətə etimadını daha da artırmış oldu. Respublikamızı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyevin yaxın silahdaşı kimi, Mehriban xanım Əliyevanın xalqın maraqlarının müdafiəsinə yönəldilmiş hərtərəfli fəaliyyəti Azərbaycan qadınının cəmiyyətin həyatında rolu barədə aydın təsəvvür yaradır. Mehriban xanım Əliyevanın timsalında Azərbaycan qadınının cəmiyyətdəki yeri, nüfuzu, işgüzarlığı, dövlətə layiqli xidmət missiyası bir daha aydın görünür. Ona görə Azərbaycan ictimaiyyəti bu təyinat zamanı əmin idi ki, Mehriban Əliyeva tarixin, zamanın, dövlətimizin onun üzərinə qoyduğu bu məsul vəzifəni də ləyaqətlə, mühüm nailiyyətlərlə həyata keçirəcək. Çünki insanlar ondan indiyədək təmsil olunduğu statuslarda yalnız xalqa, vətənə layiqli xidmət məramı görüblər.

İnsanlara təmənnasız yaxşılığı, qayğısı, mərhəməti, ehtiyacı olanlara əl tutması, xeyriyyəçiliyi onun siyasətinin prioritetidir. Hər zaman öz səylərini əhalinin zəif müdafiə olunan təbəqələrinə, doğma torpaqlarından məcburi köçkün düşmüş vətəndaşlarımıza qayğı ilə yanaşılması, onların sosial problemlərinin həllinə diqqət göstərilməsi və ümumiyyətlə cəmiyyətin nəzərini bu məsələyə cəlb etməsini özünün vətəndaşlıq borcu hesab edən Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi ilk müşavirələrini məcburi köçkünlərin və müharibə əlillərinin sosial problemlərinə həsr etməsi onun doğma torpağını müvəqqəti itirmiş vətəndaşlarımıza olan diqqətinin bariz təcəssümüdür.

Mehriban xanım Əliyevanın rəhbərliyi altında həyata keçirilən layihələrin istiqamətləri təhsil, səhiyyə, mədəniyyət, eləcə də sosial, ekologiya, idman və s. sahələri əhatə edir. Demək olar ki, heç bir sahə onun diqqətindən kənarda qalmır. Bu gün həm Birinci vitse-prezident, həm də birinci xanım statusu onun sosial məsuliyyətini daha da artırır və öz müsahibələrinin birində etiraf etdiyi kimi, insanların rifahı naminə humanitar proqramların səmərəliliyinin gücləndirilməsinə yönəldilmiş bütün mümkün imkanlardan istifadə etməyə məcbur edir.

O, humanizm və qayğı kimi keyfiyyətləri təcəssüm etdirən rəmzə çevrilməklə hamı üçün gözəllik, xeyirxahlıq və mərhəmət nümunəsi olub. Hazırda Azərbaycan qadını Mehriban Əliyeva ilə, onun nüfuzu ilə haqlı olaraq fəxr edir, ondan nümunə götürür.

Həm xalqımıza, həm də beynəlxalq ictimaiyyətə məlum olduğu kimi Mehriban xanım Əliyeva deputatlıq fəaliyyəti dövründə də ölkə həyatının elə bir sahəsi olmayıb ki, oradakı problemli məsələlər onun diqqətindən kənarda qalsın.

Xalq onu sevir və ona inanır. Ona görə ki, Mehriban Əliyevanın sayəsində cəmiyyətin sosial həyatında xeyriyyəçilik ənənələri canlanıb. Birinci vitse-prezident insanlara xeyirxahlığa meyil, başqasının dərdinə şərik olmaq, köməyə ehtiyacı olana yardım əlini uzatmaq kimi hiss və bacarıqları aşılayıb. Onun "Xeyriyyəçilik, insanseverlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlər boyu formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətlərdən biridir və biz bu gün Heydər Əliyev Fondu olaraq ənənələri davam etdirməyə çalışırıq" sözləri xeyriyyəçiliyin həyatının kredosuna çevrildiyini bir daha təsdiqləyir.

Əminliklə deyə bilərik ki, Mehriban xanım Əliyevanın ötən iki ildə göstərdiyi fəaliyyət, gördüyü işlər çoxşaxəli və misilsizdir. Birinci vitse-prezident kimi hər bir sahədə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun dəstəklənməsinə və uğur qazanmasına layiqli töhfələr verən Mehriban Əliyevanın bu çərçivədə gördüyü işləri təhlil etsək, əmin olarıq ki, onun çoxşaxəli və geniş əhatəli fəaliyyəti Azərbaycanın bugünkü inkişafı içərisində çox böyük çəkiyə malikdir.

Bir sözlə, ötən iki ilin yekunları göstərir ki, Mehriban Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti kimi bundan sonra da fəaliyyəti ilə Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi inkişaf strategiyasına layiqli töhfələr verəcək.

## İnsan amilinə xidmət edən uğurlu sosial siyasət

**Nəsib MƏHƏMƏLİYEV,**
*Milli Məclisin deputatı:*

- Ötən il aprelin 11-də keçirilən seçkilərdə növbəti dəfə xalqın etimadını qazanan Prezident İlham Əliyev islahatların davam etdiriləcəyini bəyan etdi. Seçkilərdən ötən dövrün reallıqları göstərir ki, cənab İlham Əliyev islahatların yalnız iqtisadi sfera ilə məhdudlaşmayaraq digər sahələrdə həyata keçirilməsini məqsədəuyğun sayır. Məsələn, ötən aydan struktur islahatlarına başlanılması, bir sıra dövlət orqanlarının ləğvi, bəzilərinin birləşdirilməsi və ya bazalarında yenilərinin yaradılması göstərir ki, islahatlar həm də dövlət idarəçiliyini əhatə edir.

Bir neçə gün əvvəl "Real" televiziyasına müsahibəsində islahatlar barədə danışan İlham Əliyev qeyd edib ki, 2019-cu ildən başlayan yeni islahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirmək, mövcud olan nöqsanları aradan qaldırmaq, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaq, insanların rifah halını yaxşılaşdırmaq, daha güclü, qüdrətli dövlət qurmaqdır. Göründüyü kimi, dövlət başçısının qarşıya qoyduğu hədəflər həm də sosial sahəni əhatə edir. Ümumiyyətlə, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, əhalinin aztəminatlı təbəqələrinə kömək göstərilməsi, yoxsulluğun aradan qaldırılması Azərbaycanda dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Prezident İlham Əliyevin sosial siyasətinin də fəlsəfəsi əsasən ondan ibarətdir ki, ölkədə aztəminatlı, yoxsul insan olmamalıdır. Ötən 15 ilin real mənzərəsi bütün müsbət məziyyətləri ilə yanaşı, həm də sosial problemlərin aradan qaldırılmasına xidmət edən kompleks tədbirlərin işlənib hazırlanması və uğurla reallaşması ilə əlamətdar olub, aparılan islahatların sosial yönümü təmin edilib.

Dövlət başçısının bu il imzaladığı bir sıra sərəncamlar təsdiq edir ki, sosial sahə daim diqqət mərkəzindədir. Bu sərəncamlar həm də onu göstərir ki, dövlətin sosial siyasəti sistemli və ardıcıldır. Görünən odur ki, sosial siyasətdə yeni keyfiyyət mərhələsi başlanıb və bu da Prezident İlham Əliyevin vətəndaşların sosial rifahının yüksəldilməsi ilə bağlı elan etdiyi prioritetlərə və ümumən islahatların mahiyyətinə uyğundur. Məsələn, təkcə fevral ayında Prezident İlham Əliyev bu sahədə bir neçə sərəncam imzalayıb. Dövlət başçısının fevralın 8-də imzaladığı sərəncamla minimum əməkhaqqının məbləği 50 manat artırılaraq 180 manata çatdırılıb. "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" və "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Prezident İlham Əliyevin sərəncamları da yalnız təhsilin inkişafına xidmət edən addımlar deyil. Bunlar həm də bütün cəmiyyətimizin təqdir etdiyi mühüm sosial hadisələrdir. Ölkədə həyata keçirilən dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığını göstərən başqa bir addım isə Milli Məclisin fevralın 19-da qəbul etdiyi "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanundur. Qanuna edilən dəyişikliyə görə bu il martın 1-dən əmək pensiyasının minimum məbləği 160 manat müəyyən olunur. Dəyişiklik 233 min nəfərin pensiyasında hiss olunacaq artıma gətirib çıxaracaq. 9 min insanın pensiyası 2 dəfə, 26 min nəfərin pensiyası isə 30 faiz artacaq. Bütövlükdə əhalinin böyük bir qisminin pensiyası 38,5 faiz civarında artacaq.

Təbii ki, sosial sahədə atılan bütün addımlar cəmiyyətdə böyük razılıqla qarşılanır, təqdir olunur. Sosial sahəyə diqqətin ölkə rəhbərliyinin fəaliyyətində prioritet olduğunu həm də Birinci vitse-prezident Mehriban Əliyevanın iki il əvvəl bu vəzifənin icrasına məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasından, 2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsindən başlaması da təsdiqləyir. Bu gün Mehriban Əliyevanın Birinci-vitse prezident kimi fəaliyyətinin iki ili tamam olur. İki ilin yekunları göstərir ki, Mehriban Əliyeva dövlət başçısının silahdaşı kimi ona həvalə olunan bu missiyanı əzmlə yerinə yetirir.

Ümumiyyətlə, Mehriban xanım Əliyevanın fəaliyyəti çoxşaxəlidir. Bu fəaliyyət hər addımda ulu öndər Heydər Əliyevin xalqımızın işıqlı gələcəyinə yönəlmiş ideallarının reallaşmasına, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi, sosial-iqtisadi, mədəni-humanitar kursun dəstəklənməsinə və uğur qazanmasına xidmət edir. Çünki hər birimizin qarşısında duran mühüm vəzifələrdən birincisi vətəndaşlıq mövqeyindən çıxış etmək, ölkənin daha da qüdrətlənməsi üçün çalışmaq və Prezident İlham Əliyevin siyasi kursuna dəstək verməkdir. Bu şərəfli vəzifələr naminə çalışmaq və əlindən gələni əsirgəməmək hər bir azərbaycanlının müqəddəs borcudur. Bu baxımdan Mehriban Əliyevanın fəaliyyəti əsl nümunə sayılmalıdır.

Sosial sahədəki fəaliyyəti göstərir ki, Mehriban Əliyevanın bu istiqamətdəki təşəbbüsləri Prezident İlham Əliyevin uğurla reallaşdırdığı sosial siyasətə layiqli xidmət edir. Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı müşavirənin keçirilməsi və qarşıya qoyulan vəzifələr onu göstərdi ki, əhalinin xüsusi qayğıya ehtiyacı olan qruplarının, o cümlədən məcburi köçkünlərin sosial məsələlərinin yoluna qoyulması Birinci vitse-prezidentin xüsusi diqqətindədir. Ötən iki ildə minlərlə məcburi köçkün ailəsi məhz Mehriban Əliyevanın təşəbbüsü ilə yeni mənzillərə köçürülüblər.

Aprel döyüşlərində hərbi rəşadət göstərmiş döyüşçülərin nümayəndələri ilə görüşü isə Birinci vitse-prezident olaraq Mehriban Əliyevanın respublikamızda həssas təbəqədən olan insanların, əlilliyi olan şəxslərin sosial müdafiəsinə, reabilitasiya və cəmiyyətə inteqrasiya məsələlərinə xüsusi diqqətinin əyani göstəricisidir. Bununla bağlı, həyata keçirilən layihə çərçivəsində döyüşlərdə xəsarət almış əsgər və zabitlərimiz dünyanın müasir protez istehsalçıları olan Almaniyanın, İslandiyanın, İngiltərənin və ABŞ-ın yüksək texnologiyalı məhsulları ilə təmin olunublar.

Mehriban Əliyevanın bu günlərdə Gəncə şəhərinə səfəri zamanı orta məktəbə və uşaq bağçasına baş çəkməsi və onların təmiri ilə bağlı tapşırıqlar verməsi də Birinci vitse-prezidentin sosial məsələlərə önəm verməsinin göstəricisidir. Ümumiyyətlə, Mehriban Əliyevanın il ərzində mütəmadi olaraq məktəblərə, bağçalara, uşaq evlərinə baş çəkməsinin şahidiyik.

Sosial sahəyə həssas qayğı göstərməsi Birinci vitse-prezident Mehriban Əliyevanın öz vətəndaşlıq missiyasını şərəflə yerinə yetirməsindən xəbər verir. Bu sahədə ötən iki il Mehriban Əliyevanın təşəbbüsləri ilə əldə edilmiş mühüm nailiyyətlərlə zəngindir. Birinci vitse-prezident kimi fəaliyyətinin iki illik yekunu göstərir ki, Mehriban Əliyeva ölkədə həyata keçirilən sosial siyasətə layiqli töhfələr verir.

***"Azərbaycan"***




# Humanizm zirvəsi

**Tarixən dinlərin və mədəniyyətlərin qovşağı olmuş Azərbaycan milli və dini baxımdan həmişə tolerant ölkə olub və bu gün də ölkəmiz öz missiyasını uğurla yerinə yetirir. Azərbaycan ərazisində məskunlaşmış dini və etnik qruplar burada özlərini nəinki yad hesab etməyib, hətta yerli əhali ilə qaynayıb-qarışıblar. Fərqli dini konfessiya nümayəndələri hər zaman Azərbaycan xalqı ilə həmrəy olub, bütün tarixi dövrlərdə etnik və dini icmalar arasında möhkəm dözümlülük əlaqələri formalaşıb, milli, dini və irqi zəmində heç bir ayrı-seçkilik faktı qeydə alınmayıb.**

Tolerantlığın Azərbaycanda çox möhkəm təməl sütunları, zəngin ənənələri, dərin tarixi-mədəni kökləri mövcuddur. Azərbaycan xalqı daim bu bölgədə yaşayan insanlar arasında, dilindən və dinindən asılı olmayaraq sülh və əmin-amanlıq şəraitinin yaradılmasına əvəzsiz tarixi töhfələr verib. Dözümlülük, başqa dinlərin nümayəndələri ilə dinc yanaşı yaşamaq azərbaycanlıların milli mentalitetinin əsas xüsusiyyətlərindəndir. Ölkəmizdə tarixən islam dini ilə yanaşı, xristianlıq, yəhudilik dininə mənsub insanlar qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq mühitində yaşayıblar.

Tam qətiyyətlə deyə bilərik ki, ölkəmizdə tolerantlıq ənənələrinin əsası məhz Heydər Əliyevin xidmətləri sayəsində qurulub. Bu gün müasir Azərbaycanda dövlət-din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Azərbaycan müstəqilliyini bərpa etdikdən və ümummilli lider Heydər Əliyev xalqın tələbi və istəyilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra milli-dini dəyərlərimizin qorunmasında, islam dininə ehtiram göstərilməsində, xalqımızın dini əqidəsinin daha da möhkəmləndirilməsində öz əməli fəaliyyəti ilə böyük rol oynayıb.

Azərbaycanın dövlət-din münasibətlərindən danışarkən ilk növbədə, onun tarixinə, ulu öndər Heydər Əliyev tərəfindən atılan təməl prinsiplərinə diqqət etməliyik. Azərbaycanın dövlət-din münasibətlərində uğurlarının səbəbi, ilk növbədə, dinlə bağlı siyasətin sağlam, düzgün istiqamətdə qurulmasıdır. Bilavasitə ulu öndərin diqqət və qayğısı nəticəsində ölkəmizdə din sahəsində sabitlik əldə edilib, dövlət-din münasibətlərinin beynəlxalq hüquq normaları müstəvisində tənzimlənməsi, dini konfessiyalar arasında dözümlülük mühitinin qorunub-saxlanılması və daha yüksək səviyyədə inkişafı istiqamətində böyük işlər görülüb, dini icmaların və ibadət ocaqlarının fəaliyyəti üçün hüquqi-mənəvi şərait yaradılıb. Onun həyata keçirdiyi uğurlu siyasət nəticəsində dövlət-din münasibətlərində həssas nəzarətlə bərabər, ölkədə etiqad azadlığı üçün şərait yaradılıb, dini dəyərlərə, ibadət yerlərinə və din adamlarına xüsusi qayğı göstərilməyə başlanılıb, dövlətlə din arasında qarşılıqlı anlaşma və əməkdaşlıq güclənib. Məhz görülmüş bu işlər və atılmış addımlar sayəsində Azərbaycanda dövlət-din münasibətlərinin özünəməxsus modeli formalaşıb.

Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına və inkişafına çox böyük diqqət və qayğı göstərir. "Tarixən dünya dinlərinin yayıldığı və dinc yanaşı fəaliyyət göstərdiyi qədim Azərbaycan torpağında yüzillərlə qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər sistemi formalaşmışdır. Diqqətəlayiq faktdır ki, ölkəmizdə həmişə yüksək tolerantlıq mühiti hökm sürmüş, heç vaxt milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma halları baş verməmişdir.Ayrı-ayrı etiqad və inanclara malik etnosların əsrlərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında Azərbaycan xalqının və islam dininin misilsiz tarixi rolu danılmazdır" - deyən Prezident İlham Əliyev Azərbaycanda dini və milli tolerantlığın tarixən mövcud olduğunu və bu tolerantlığın indiyə kimi qorunub saxlanılmasında Azərbaycan xalqının və islam dininin misilsiz rol oynadığını vurğulayıb.

Prezident İlham Əliyev tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin dirçəldilməsinə, həmçinin dini ziyarətgahların əsaslı təmirinə və yenidən qurulmasına xüsusi diqqət ayırıb. Maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsini daim diqqət mərkəzində saxlayan dövlət başçısının sərəncamları ilə son bir neçə ildə qədim tarixi abidələrin, ziyarətgahların bərpası ilə bağlı görülən silsilə tədbirlər dini-mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisidir. Prezident İlham Əliyevin xalqımızın dini dəyərlərinə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli-mənəvi dəyərlərə həssas münasibətin dövlət siyasətinin mühüm prioritetlərindən birinə çevrilməsi, ölkədə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsi Azərbaycanı dünyada multikulturalizmin əsas mərkəzinə çevirib. Dini, mədəni və tarixi abidələrin bərpasına, onların yenidən xalqın qan yaddaşına qaytarılmasına həssaslıqla yanaşan, bu sahədə həyata keçirilən layihələrə ciddi dəstək verən Prezident İlham Əliyevin son illərdə bir çox dini abidələrin bərpası ilə bağlı imzaladığı sərəncamlar, verdiyi tapşırıqlar ölkəmizdə mövcud olan milli-mənəvi dəyərlər sisteminin ayrılmaz hissəsinə çevrilib.

Azərbaycanda dini tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsində, milli-mənəvi dəyərlərimizin təbliğində Azərbaycanın birinci xanımı və Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın misilsiz xidmətləri var. Birinci vitse-prezident hər zaman Azərbaycan həqiqətlərini beynəlxalq tədbirlərdə ən yüksək tribunalardan xarici ölkə nümayəndələrinin diqqətinə çatdırıb. O, xalqlar arasında dostluq münasibətlərinin, qarşılıqlı yardımlaşma və təcrübə mübadiləsinin vacibliyini daima vurğulayıb. Azərbaycanın zəngin tolerantlıq ənənələrinə diqqət çəkən Mehriban xanım Əliyeva ölkəmizdə yaşayan xalqların öz mədəni müxtəlifliyini qoruyub saxlamaq, dini etiqadlarını sərbəst yerinə yetirmək, tarixən mövcud olmuş tolerantlıq mühiti barədə fikirlərini bölüşərkən deyib: "Xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, tolerantlığın hökm sürdüyü Azərbaycan cəmiyyəti bizim tarixi nailiyyətimizdir və bu amil ictimai-siyasi həyatımızın aparıcı normasına çevrilmişdir. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şərait təmin edilmişdir. Azərbaycanın bütün vətəndaşları dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq əsas insan hüquq və azadlıqlarına malikdirlər. Qürurverici faktdır ki, Azərbaycan dünya ölkələri üçün tolerantlıq örnəyi hesab olunur və bir çox dövlətlər bizim təcrübəmizdən yararlanmağa çalışırlar".

Heydər Əliyev Fondu hər bir layihəsi ilə müxtəlif xalqlar arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasına öz töhfəsini verməyə çalışır. Ümummilli liderin adını layiqincə daşıyan fond onun xeyirxah və müqəddəs əməllərini yaşatmaq üçün ictimai həyatın ən müxtəlif sahələrində əsaslı işlər görür, ona müraciət edən vətəndaşların problemlərinin operativ həllinə maddi-mənəvi dəstək verir. Heydər Əliyev Fondunun fəaliyyəti, həm də insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə təminatına, bəşəriyyətin xilasına yönələn mütərəqqi idealların cəmiyyətdə möhkəm əsaslarla intişar tapmasına, fərqli dünyagörüşlərinin dialoquna, keçmişlə gələcək arasında möhkəm körpü salınmasına, insanlara xeyirxahlıq, insanpərvərlik və nəciblik kimi müqəddəs dəyərlərin təbliğ edilməsinə yönəlib. Fondun hər kəsdə fərəh və qürur hissləri doğuran fəaliyyətinin əsasında, şübhəsiz, onun prezidenti, ölkəmizin Birinci vitse-prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın əzmkarlığı, təşəbbüskarlığı dayanır. Mehriban xanım Əliyevanın bəyan etdiyi kimi, fondun çoxşaxəli fəaliyyətinin bir əsas məqsədi var - insanlara təmənnasız yaxşılıq etmək: "Mən arzu edirəm ki, dünyada saf və xeyirxah əməllər daha çox olsun, dərd-qüssə isə, azacıq da olsa, əksilsin".

Ölkəmizdə tolerantlıq düşüncəsinin inkişafında xüsusi xidmətləri olan fondun vətənpərvər fəaliyyəti sayəsində Azərbaycanın bir sıra mənəvi inciləri dünya qeyri-maddi mədəni irs siyahısına salınıb, respublikamızın müxtəlif sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun aparıldığı məkana çevrilməsi prosesi bir qədər də sürətlənib.

İctimai-siyasi fəaliyyəti boyu humanitar, sosial sahələri daim diqqət mərkəzində saxlayan Mehriban xanım həm Azərbaycanda, həm də dünyanın müxtəlif ölkələrində çoxsaylı layihələrə, mühüm işlərə imza ataraq öz aktiv fəaliyyəti ilə dünyada kifayət qədər rəğbət qazanıb. Birinci vitse-prezident təyin edildiyi 2 il müddətində ölkənin ictimai-siyasi, mədəni, humanitar, sosial həyatında mühüm və fəal rol oynayan Mehriban Əliyevanın fəaliyyətinin əsasını Azərbaycan xalqının rifahı, sosial problemlərin, əhalinin aztəminatlı təbəqələrinin problemlərinin həlli təşkil edir. O, qaçqın və məcburi köçkün soydaşlarımızın sosial, təhsil, məşğulluq, yaşayış və tibbi təminatı istiqamətində bir çox işlər görüb, bu iki il müddətində məcburi köçkünlər üçün yaşayış kompleksləri tikilib istifadəyə verilib. Məcburi köçkünlərin sosial həyat şəraitinin yaxşılaşdırılması Mehriban xanımın apardığı siyasətin özəyini təşkil edir.

Aprel döyüşlərində hərbi rəşadət göstərmiş döyüşçülərin, respublikamızda həssas təbəqədən olan insanların, əlilliyi olan şəxslərin sosial müdafiəsinə, reabilitasiya və cəmiyyətə inteqrasiya məsələlərinə xüsusi diqqəti Mehriban xanımın necə insanpərvər və humanist olduğunun əyani sübutudur. O, ölkəmizin müstəqilliyini və ərazi bütövlüyünü qoruyarkən sağlamlığını itirmiş insanların sosial müdafiəsinin dövlət rəhbərliyi üçün Vətənimizin hərbi müdafiəsi qədər önəmli və vacib məsələ olduğunu göstərdiyi diqqət və qayğı ilə bir daha nümayiş etdirir.

> Azərbaycanda dini tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsində, milli-mənəvi dəyərlərimizin təbliğində Azərbaycanın birinci xanımı və Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın misilsiz xidmətləri var. Birinci vitse-prezident hər zaman Azərbaycan həqiqətlərini beynəlxalq tədbirlərdə ən yüksək tribunalardan xarici ölkə nümayəndələrinin diqqətinə çatdırıb. O, xalqlar arasında dostluq münasibətlərinin, qarşılıqlı yardımlaşma və təcrübə mübadiləsinin vacibliyini daima vurğulayıb.



Siyasətinin əsasını insanpərvərlik amili təşkil edən Mehriban Əliyevanın təşəbbüsü ilə indiyə qədər 4 amnistiya aktı qəbul olunub ki, bu da 40 mindən artıq şəxsə şamil olunub.

Ötən 2 il ərzində Mehriban Əliyeva həm ölkə daxilində, həm də beynəlxalq aləmdə uğurlu siyasi fəaliyyətini bir daha sübut edib. Birinci vitse-prezident kimi Mehriban xanım Əliyeva bir sıra beynəlxalq tədbirlərdə ölkəmizi təmsil etməklə yanaşı, "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi və Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq münasibətləri" adlı konfransın təşkil edilməsində xüsusi rol oynayıb. Konfransda Azərbaycan Xalq Cümhuriyyətinin keçdiyi tarixi yol, onun yaradıcıları və qazandığı uğurlar, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti, diplomatik uğurları, o dövrdə hərbi, mədəni, sənaye sahələrində həyata keçirilən islahatlar barədə İtaliya ictimaiyyətini məlumatlandırıb.

Dini-mənəvi dəyərlərin qorunmasına hər zaman yüksək diqqət göstərən Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə son bir neçə ildə ölkəmizdə onlarla məscid, ibadətgah və dini ziyarətgah təmir olunaraq xalqın istifadəsinə verilib. Təbii ki, bu prosesdə Heydər Əliyev Fondu da xüsusi fəaliyyəti ilə seçilib. Fondun dəstəyi ilə bərpa olunan İmam Hüseyn məscidinin istifadəyə verilməsi də milli-mənəvi dəyərlərin qorunması istiqamətində həyata keçirilən tədbirlərdəndir. Bu günlərdə Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Gəncədə "İmamzadə" dini kompleksini ziyarət etmələri dinimizə göstərilən dövlət dəstəyinin bariz nümunəsidir.

Dinlərarası, mədəniyyətlərarası münasibətlərin qurulmasında, o cümlədən multikultural dəyərlərin inkişafında göstərdiyi xidmətlərə görə də Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva II dərəcəli "Müqəddəs Məlaksima Knyaginya Olqa" ordeni ilə təltif edilib. Bu orden Mehriban xanımın fəaliyyətinə verilən böyük dəyərin göstəricisi hesab olunur.

Mehriban xanım Əliyeva ilk növbədə milli maraqların keşiyində durur. Onun şəxsi təşəbbüsü ilə milli musiqimizin, ədəbiyyat və poeziyamızın inkişafı ilə bağlı olduqca mühüm proqramlar həyata keçirilir, muğamımızın dünyada tanınması istiqamətində də böyük işlər görülür. Eyni zamanda, Mehriban xanım sülh və tolenatlığın yayılması, dünyada humanizm dəyərlərinin bərqarar olması üçün müntəzəm olaraq tədbirlər həyata keçirir. O, eyni zamanda, səhiyyə və sosial məsələlərə böyük həssaslıqla yanaşır, talassemiyalı xəstələrin müalicəsinə, o cümlədən bu xəstəliyin profilaktikası üzrə maarifləndirmə ilə bağlı dövlət səviyyəsində aparılan işlərə öz dəstəyini verir. Bununla yanaşı, Mehriban xanım ölkədə idmanın inkişafına da mühüm töhfələr verib. Məhz Mehriban xanımın sayəsində Azərbaycanda idmanın gimnastika növü xeyli inkişaf edib, ölkəmiz bu sahədə dünyada layiqincə təmsil edilir, Azərbaycan mötəbər beynəlxalq yarışlara evsahibliyi edir.

Mehriban xanım təhsil, elm, incəsənət sahələrində mühüm strateji addımlar atır. Təhsilə, elmə böyük dəstək verən Birinci vitse-prezident "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində yeni məktəblərin tikilməsinə, təlim-tədris prosesinin inkişafı və təkmilləşdirilməsinə lazımi şərait yaradır. Mehriban xanım Əliyevanın istər xeyriyyəçilik, istərsə də ictimai fəaliyyətinin əsas istiqamətləri sırasında təhsilin mühüm yer tutması təsadüfi deyil, çünki o, dövlətimizin gələcəyini təhsilin inkişafında görən ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik konsepsiyasına əsaslanır.

Bütün bunlar Mehriban xanım Əliyevanın bir insan, şəxsiyyət və dövlət xadimi kimi necə yüksək keyfiyyətlərə malik olduğunu bir daha sübut edir. Tam əminliklə deyə bilərik ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi Mehriban xanım Əliyeva müstəqil dövlətimizin inkişafı və tərəqqisinə, milli dəyərlərin qorunub saxlanmasına, xalqın sosial-mədəni inkişafına böyük töhfələr verir və bundan sonrakı fəaliyyətində də bunun şahidi olacağıq.

**Mübariz QURBANLI,**
***Yeni Azərbaycan Partiyasının İcra Katibinin müavini***

## Dövlət başçısına minnətdarlıq

### Bu sərəncam tələbələr arasında sağlam rəqabət yaradacaq

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ölkədə həyata keçirilən gənclər siyasəti gənclərin hərtərəfli inkişafını, ölkənin ictimai-siyasi həyatında yaxından iştirakını təmin etmək məqsədi daşıyır. Dövlət başçısı tərəfindən gerçəkləşdirilən siyasət yeni mərhələdə ən müxtəlif sahələri əhatə edir və geniş spektrlidir. Bu siyasət gənclərin tərbiyəsi, sağlamlığı, təhsili, intellektual və mənəvi inkişafı, asudə vaxtlarının səmərəli təşkili, həmçinin, cəmiyyət həyatının bütün sahələrində fəal iştirakları ilə bağlıdır.



Bunun nəticəsində Azərbaycan gənci idman, elm, mədəniyyət, incəsənət və digər sahələrdə böyük nailiyyətlər qazanır. Dövlətçilik ənənələrini daim uca tutan Azərbaycan gəncliyi çoxşaxəli islahatların həyata keçirilməsində fəal iştirak edir.

Bu fəaliyyət tələbə-gənclərə də aiddir. Onlar da dövlət başçısının göstərdiyi diqqət və qayğıdan bəhrələnirlər. Prezident İlham Əliyevin tələbə təqaüdlərinin 30 faiz artırılması haqqında imzaladığı sərəncamın isə özəllikləri var. Məsələn, bu sənəd imkan verir ki, təqaüdlə yararlana bilən tələbələrin sayı artsın. Mart ayının 1-dən etibarən 30 faiz əlavə tələbə təqaüddən yararlana bilmək fürsəti əldə edəcək. Bu, təbii ki, bir çox tələbənin müxtəlif istiqamətlərdə fəallığına da stimul yaradacaq. Çünki təqaüd tələbə üçün, sadəcə, maddi vəsait deyil, həm də fərqlənməsi üçün bir motivasiyadır. Nəzərə alaq ki, bu sərəncamla 2020-2021-ci illərdə təqaüd alanların sayı da xeyli artacaq. Bu həm də o deməkdir ki, hər iki tələbədən biri təqaüd alacaq. Yəni indiyə kimi təqaüd almayan tələbə də yaxşı oxumağa çalışacaq. Unutmayaq ki, sağlam rəqabət cəmiyyətin inkişafında mühüm amillərdən bəlkə də birincisidir.

***Aytac HƏSƏNOVA,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin II kurs tələbəsi***

### Azərbaycanda gənclərə həmişə qayğı olub

Azərbaycanda gənclərə, onların təhsilinə dövlət qayğısı hər zaman olub. Təhsilin bütün pillələrində biz bu yanaşmanı aydın görürük. İstər ali təhsil imkanlarının genişləndirilməsi, gənclərin təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da təhsil almaları üçün əlverişli şəraitin yaradılması, istərsə də universitetlərin maddi-texniki bazasının gücləndirilməsi, məktəb tikintisinin və təmir işlərinin geniş vüsət alması fikirlərimin əyani təsdiqidir.



Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı ölkə Prezidentinin verdiyi sərəncam bu istiqamətdə görülən uğurlu işlərin davamıdır. Xüsusilə təqaüdlərin artırılmasının yalnız bakalavr deyil, magistrlərə və doktorantlara da şamil olunması bizi çox sevindirdi. Magistratura və doktorantura pilləsində təhsil alanların tədqiqat işlərinin yerinə yetirilməsi və onların nəticələrinin nəşr etdirməsi üçün müəyyən maddi vəsaitə ehtiyacı olur. Artıq bu artımdan sonra xərclərimizi özümüz ödəyəcəyik ki, bu da valideynlərin qayğılarını bir qədər azaldacaq.

Daha bir mühüm məsələ odur ki, bu sərəncam məcburi köçkün, şəhid ailəsi və digər bu kimi imtiyazlı ailələrin övladlarına da təqaüdün verilməsini reallaşdıracaq. Yəni indiyədək bu kateqoriyadan olan tələbələrin dövlət tərəfindən ancaq təhsil haqqı ödənilirdi. Bu sərəncam ona imkan verəcək ki, həmin qrup tələbələr həm də təqaüd alsınlar. Mən özüm Füzuli rayonundan məcburi köçkünəm, ödənişli əsaslarla magistraturaya daxil olmuşam. Sağ olsun dövlətimiz, Prezidentimiz həm təhsil haqqımı ödəyir, həm də təqaüd verir. Tələbələrin sevincinə səbəb olan belə bir sərəncam imzaladığına görə dövlət başçısına təşəkkürümüzü bildiririk.

***Məryəm YAQUBLU,***
***Azərbaycan Memarlıq-İnşaat Universitetinin Mexanika və informasiya texnologiyaları fakültəsinin II kurs magistri***

### Biz ölkə rəhbərinin daim yanındayıq

Ali məktəblərdə təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Prezidentinin imzaladığı sərəncamı universitetimizin çoxminlik tələbə ordusu alqışlayır. Aztəminatlı ailənin nümayəndəsi kimi düşünürəm ki, bu artım ailəmizin də qayğılarını xeyli azaldacaq. Bu gün elə bir çətin dövrdə yaşayırıq ki, bəzən ehtiyaclarımızı ödəmək üçün ailəmiz, valideynlərimiz tərəfindən göstərilən maddi dəstək bizə yetmir.



Onların verdikləri məbləğ geyim, yemək, kirayə, təhsil, dərs kitabları və dəftərxana xərclərimiz üçün ancaq çatır.

Bu günün tələbi isə başqadır, özümüzü inkişaf etdirmək üçün müəyyən əlavə məşğuliyyətlərə də ehtiyacımız var. İndi tələbə mükəmməl xarici dil bilgilərinə, informasiya texnologiyalarına bələd olmalı, kompüterlə işləmək bacarığını inkişaf etdirməlidir. Ağıllı tələbə ehtiyaclarını təqaüdü hesabına həll etməyə çalışır. Ona görə təqaüdümüzün artırılması bizi çox sevindirir.

Bir də ki, ən yüksək təqaüdü qazanmaq üçün tələbələr arasında ciddi rəqabət olacaq. Artıq təqaüd uğrunda yaxşı mənada mübarizəyə start verilib. Qoy, ən yaxşılar, ən savadlılar daha çox oxuyub, çalışıb onu qazansınlar. Sağ olsun ölkə rəhbəri, bizə hər cür şərait yaradır, müddi imkanlarımızı yaxşılaşdırır. Gənclər həmişə onlara qayğı göstərən dövlət başçısının yanındadırlar.

***Babək HƏSƏNOV,***
***Azərbaycan Memarlıq-İnşaat Universitetinin İnşaat fakültəsinin I kurs tələbəsi***

**İllər bir-birini yola saldıqca evlərimizdəki, iş yerlərimizdəki təqvimlər də dəyişir. İndi mobil telefonlarda belə bir funksiya olduğundan, bəlkə də kimlərsə daha kağız təqvimə ehtiyac görmür.**
**Amma bu sətirlərin müəllifi üçün hər il kağız təqvim almaq, yaxud dostların, yaxınların bağışladıqları hədiyyəlik təqvimləri məmnuniyyətlə qəbul edib göz önündə saxlamaq xoş bir ömür ənənəsidir.**
**Əlalxüsus, divardan asılıb hər gün bir yarpağı üzülən, kitabça şəklində olanlarını çox sevirəm... Bu cür təqvimlər, nədənsə, bir az da uşaqlığımı xatırladır. Onları vərəqlədikcə xəyal düşüncələrimi alıb uzaqlara aparır...**



# MİSSİYA

Təqvimi vərəqləyirəm...
Aylar, həftələr, günlər, onları işarələyən rəqəmlər bir-bir gözlərim önündən keçir. Ömürlər, talelər, uğurlar, çətin sınaqlar bu rəqəmlərdə birləşir. Elə bilirəm ki, dünyadakı bütün insanların ömür kitabını oxuyuram. Həqiqətən, bu vərəqlərdə bir-birini əvəz edən rəqəmlərin arxasındakı insan talelərinə, həyat mənzərələrinə nəzər salsaq, təqvimlərin dünyanın ən maraqlı kitabları olduğunu görərik.
Təqvimdə bizim üçün adi olan elə günlər var ki, başqasından ötrü ömrünün ən əlamətdar tarixidir. Bəzənsə, təqvimin hansısa vərəqi tək bir fərdin deyil, bütöv xalqın həyatında yeni bir səhifə açır. Konkret bir gün adi zaman faktından kənara çıxmaqla milyonlarla insan üçün tarixi dəyərə çevrilir.
Bəzən bu günlər heç təqvimdə xüsusi fərqləndirilməsə də, onun mahiyyəti yaddaşlarda yaşayır, ictimai düşüncədə öz yerini tutur.
O xalq xoşbəxtdir ki, onun milli dövlətçilik tarixində yeni-yeni dönəmlərə körpü salan belə günlərin sayı çoxdur. Deməli, o xalq ayaqdadır, inkişafa doğru yoluna davam edir, yeni-yeni nailiyyətlər ilə tarix yaradır. Təqvimin ayrı-ayrı günləri bu nailiyyətlərini simvollaşdıran yeni tarixlərə çevrilir.

❖ ❖ ❖

21 fevral günündən yazmaq istərdim...
2 il əvvələ qədər bu gün dünyadakı əksər insanlar kimi, bizim üçün də Beynəlxalq Ana Dili Günü olaraq əlamətdar idi. 2017-ci ilin 21 fevralından bəri isə bu gün milli dövlətçilik tariximizin parlaq hadisələrindən biri ilə də yeni məzmun qazanıb.
21 fevral 2017-ci il...
Nəcib əməlləri ilə adını insanların qəlbində sevgi, mərhəmət, xeyirxahlıq, ədalət simvoluna çevirmiş Mehriban xanım Əliyeva həmin gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin olundu...
Bu təyinat misalında Azərbaycan insanının daha bir ümummilli arzusu reallaşdı...
Milli dövlətçilik tariximiz yeni bir başlanğıca qədəm qoydu...
Mən hər dəfə Mehriban xanım Əliyeva haqqında düşünəndə XV əsrdə yaşamış Sara Xatun yadıma düşür. Yazdığım "İki şah, iki sultan" romanı - trilogiyasında ən baş obrazlardan biri Sara Xatun obrazıdır. Sara Xatun ərazisi 3 milyon kvadratkilometr olan Ağqoyunlular Azərbaycan dövlətinin yaradıcısı və hökmdarı Uzun Həsənin anasıdır. Müdrik, ağıllı ana və Şərqin ilk böyük diplomat qadınıdır. O, dövlət işlərinin idarə olunmasında oğlu Uzun Həsənə həmişə yardımçı olub.
Qəribə bir oxşarlıq!..
Hər iki xanım dövlət işlərinin idarə olunmasında əvəzsiz xidmətlər göstərir. Əlbəttə, biri XV əsrdə, o biri isə XXI əsrdə...
Tarix necə də təkrarlanır?
Biri "İki şah, iki sultan" əsərinin qəhrəmanı, o biri isə "Missiya" kitabının qəhrəmanı...
Azərbaycanın möhtəşəm iki xanımı, xatunu...

❖ ❖ ❖

2017-ci il ərzində Azərbaycanın həyatında çox hadisələr baş verib. Çox uğurlar əldə olunub. Amma tarixi mahiyyəti etibarilə bunların heç biri Prezident İlham Əliyevin məlum təyinat qərarı ilə müqayisə edilə bilməz.
Bilirəm ki, aradan illər, qərinələr, bəlkə də əsrlər keçəcək, gələcək tarixçi nəsilləri müasiri olduğumuz bu dövrün ictimai ovqatını, siyasi mənzərəsini digər sənədli mənbələrlə yanaşı, həm də qəzet səhifələrindəki bu yazılar vasitəsilə canlandırmağa çalışacaqlar.
Cəmi iki il əvvəlin hadisələrini öz gündəlik həyatında yaşamış müasir oxucularımızdan çox, gələcək nəsillərə bələdçilik üçün 2017-ci ilin fevralına qısaca ekskurs etmək istərdim.

❖ ❖ ❖

...Onda ölkə köklü islahatlar, böyük dəyişikliklər dövrünə daxil olmuşdu. 2016-cı ilin sentyabrında ümumxalq referendumu keçirilmiş, Azərbaycan Respublikasının Konstitusiyasına mühüm dəyişikliklər edilmişdi. Bu dəyişikliklərdən biri də respublikamızda idarəçilik sisteminin daha da təkmilləşdirilməsi, çevik idarəetmə mexanizminin formalaşdırılması üçün Birinci vitse-prezident və vitse-prezident vəzifələrinin təsis olunmasından ibarət idi.
Belə bir yeniliyi, heç də təsadüfi saymaq olmazdı. Bu, dünyanın əksər sivil ölkələrində tətbiq olunan və zamanla özünü doğrultmuş təcrübə idi. Dövlət idarəçiliyində daha səmərəli fəaliyyət üsullarının tətbiqi, vətəndaşlar qarşısında dövlətin öhdəliklərinin keyfiyyətli icrası, effektiv icraçılıq mexanizminin qurulması baxımından vitse-prezidentlik institutu başqa ölkələrdə uğurla sınaqdan çıxıb.
Azərbaycanda da vitse-prezidentlik institutunun təsisindən sonra insanların xüsusilə Birinci vitse-prezident vəzifəsinə təyin ediləcək şəxsin kimliyinə böyük ümidləri vardı. Bu vəzifənin kimə həvalə ediləcəyi, demək olar ki, hər kəsi maraqlandırırdı.
Birinci vitse-prezident öz şəxsiyyəti, fərdi keyfiyyətləri, bacarıq və qabiliyyəti, ona göstərilən ictimai rəğbətlə elə bir insan olmalı idi ki, xalqın etimad mənbəyinə çevrilə bilsin. Həyata keçirilən islahatların öz məqsədlərinə çatması, xalqın dəstəyi ilə müşayiət olunması bu vəzifəyə təyin olunacaq şəxsin uğurlarından çox asılı görünürdü.
Və Azərbaycan cəmiyyəti bu keyfiyyətləri yalnız bir şəxsiyyətdə tapa bilirdi. Birinci vitse-prezident üçün vacib sayılan xüsusiyyətlər Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın həyat və fəaliyyətində bütünlüklə əks olunmuşdu. Onun ictimai obrazına tam uyğun gəlirdi. Buna görə də insanlar bu vəzifədə məhz Mehriban xanımı görmək istəyirdi. Ən layiqli namizəd gözündə məhz onu görürdü...

❖ ❖ ❖

Bu, insan xarakterindən irəli gələn məqamdır... Hər birimiz ümumilikdə ölkənin, xalqın mənafelərini əsas götürdüyümüz qədər xarakter etibarilə müəyyən qədər də fərdiyyətçiyik. Nə qədər çalışsaq belə, bu insani duyğudan qaça bilmərik.
Ona görə də istənilən vətəndaş hansısa vəzifəyə konkret şəxsin təyin olunmasını arzulayanda ilk növbədə, öz faydalarını düşünür. Əlbəttə, bu cür təyinatların ictimai faydaları öz yerində, bunlar sonrakı mərhələlərdə ümumun rəyi əsasında formalaşır, sıravi vətəndaşı isə birinci maraqlandıran isə fərd olaraq özünün məlum yenilikdən əldə edəcəyi üstünlükdür.
Məsələn, onu birinci maraqlandırır ki, görəsən, bu təyinatın onun yaşadığı şəhərin, kəndin yollarının abadlaşmasına nə təsiri olacaq? Özünə asanlıqla iş tapa biləcəkmi? Övladının oxumaq arzusu yerinə yetəcəkmi? Hansısa dövlət idarəsinin qapılarında bundan sonra onun dərdini daha həssaslıqla dinləyəcəklərmi? Dara düşəndə dövlət adına dərhal köməyinə yetişənlər olacaqmı? Xəstəsinə, köməksizinə həyan olan tapılacaqmı?
Azərbaycan Prezidentinin vətəndaşların həyatının yaxşılaşdırılması üçün imzaladığı sənədlərin, irəli sürdüyü vəzifələrin vaxtında və keyfiyyətlə yerinə yetirilməsindən ötrü icraçı məmurlar hər addımda daha məsuliyyətli çalışacaqlarmı? Başların üzərində daha ciddi nəzarət, hesabatlılıq, vətəndaşlar üçün faydalı bir nəticə ortaya qoymaq tələbi hiss edəcəklərmi?
Bu mənada Azərbaycan cəmiyyətinin Mehriban xanım Əliyeva şəxsiyyətinə münasibəti birmənalı idi. O, bu mərhələyə qədər əsasən ictimai məzmun kəsb edən fəaliyyətinin, necə deyərlər, birinci başdan-başa Azərbaycan insanına xidmət etməkdən ibarət olduğunu, onun həyatının yaxşılaşdırılmasına, rifahına xidmət etdiyini təsdiqləmişdi.
Rəhbərlik etdiyi Heydər Əliyev Fondu insanlar üçün ümid ünvanına, pənah qapısına çevrilmişdi. İnsanlar burada onlara necə həssas, qayğıkeş münasibət göstərildiyini görürdülər, tamam yeni bir münasibətə şahid olurdular. Görürdülər ki, Mehriban xanımın irəli sürdüyü və icrasına şəxsən nəzarət etdiyi layihələr necə uğurlu alınır, yüksək effekt verir, dəyərlər yaradır.
Görürdülər ki, Mehriban xanım necə böyük təşkilatçılıq qabiliyyətinə malikdir. Çoxlarına mümkünsüz görünən işləri peşəkar komanda işinin gücü, zəki menecer təfəkkürü ilə qısa müddətdə mümkünə çevirməyi bacarır.
Ona görə də vətəndaşlar Mehriban xanıma daha geniş səlahiyyətlərin verilməsini arzulayırdılar.
Bu mənada, Prezident belə bir təyinatla, əslində, xalqın sosial sifarişini yerinə yetirdi. Hər zaman olduğu kimi bu dəfə də xalqın arzularına sayğı göstərdi.

❖ ❖ ❖

Mehriban xanım Əliyeva bu ağır dövlətçilik məsuliyyəti yükünü üzərinə götürməklə vətəndaşların ondan yeni gözləntilərini doğrultmaq əzmini, niyyətini, xalq üçün gördüyü işlərin əhatəsini daha da genişləndirmək istəyini ifadə etdi.
Əslində, görkəmli ictimai xadim olaraq Mehriban xanımın özünün belə bir yüksək təyinata sırf fərdi mənada ehtiyacı yox idi. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı kimi o, bu yeni vəzifəsinə qədər də kifayət qədər yüksək statuslar daşıyırdı. Həyata keçirdiyi genişmiqyaslı layihələrlə cəmiyyət həyatında yaxından iştirak edirdi. Nəcib əməlləri ilə bütün dünyada tanınırdı. Sıravi insanlardan tutmuş, dünya liderlərinə qədər hər kəs onun şəxsiyyətinə böyük hörmətlə yanaşırdı.
Ona görə də Birinci Vitse-prezident vəzifəsi Mehriban xanım Əliyeva üçün əlavə iş həcmi və böyük məsuliyyət deməkdir...
Amma bu, təyinat zamanın tələbi idi...
Bu seçim uzun illərdən bəri ölkəmizin, eləcə də dünyanın ictimai-siyasi, mədəni həyatında mühüm rol oynayan Mehriban Əliyevaya ümumxalq rəğbətindən, cəmiyyətin sosial sifarişindən irəli gələn təyinat olmaqla yanaşı, eyni zamanda, belə həlledici mərhələdə islahatlar prosesinə böyük dəstək ola biləcək bacarıqlı təşkilatçı, yüksək səriştəli menecer kimi onun peşəkar imkanlarından dövlət idarəçiliyində də istifadə zərurətindən irəli gəlirdi.
Beləliklə, Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyinat hər cəhətdən xalqın ürəyindən xəbər verən siyasi bir yenilik kimi tarixə yazıldı.

❖ ❖ ❖

Təhlükəsizlik Şurasının 21 fevral 2017-ci ildə keçirilən iclası zamanı Mehriban xanımı Birinci vitse-prezident kimi şura üzvlərinə və ümumilikdə cəmiyyətə təqdim edərkən Prezident İlham Əliyev onun ən müxtəlif sahələr üzrə uğurlu fəaliyyətindən söz açaraq demişdi: "Bu çoxşaxəli fəaliyyət, eyni zamanda ümumi fəaliyyət mənim bu qərarı qəbul etməyimdə əsas rol oynayıb. Həmçinin qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial bir insandır, eyni zamanda, çox xeyirxah bir insandır və təsadüfi deyil ki, Azərbaycan xalqı ona çox böyük rəğbətlə, sevgi ilə yanaşır. Bütün bu sadaladığım amilləri nəzərə alaraq, mən bu qərara gəldim. Bu gün Mehriban Əliyevanın həyatında yeni bir dövr başlayır və əminəm ki, ölkəmizin inkişafında bundan sonra da öz dəyərli töhfəsini verəcək".

❖ ❖ ❖

Cənab Prezident zənnində heç zaman yanılmır...
Bu təyinat respublikamızda aparılan islahatların məntiqi davamı olmaqla ölkədə yeni bir tarixi reallığa qapı açdı. Bu reallığın xarakterini və Azərbaycanın gələcəyi üçün yaratdığı möhtəşəm perspektivləri isə təbii ki, ölkənin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmuş şəxsiyyətin mənəvi keyfiyyətləri, Azərbaycan xalqına və dövlətinə olan sevgisi, indiyə qədər daşıdığı bütün vəzifələrdə cəmiyyətimizə, ümumən bəşəriyyətə verdiyi töhfələr əks etdirir.
İstənilən yüksək vəzifəli şəxsin təyinatdan sonrakı ilk addımı onun prioritetlərinin, amallarının aynasıdır. Əlbəttə, ilk sözü burada bir qədər şərti səciyyə daşıyır. Çünki ilklər sırasında cəmi bir addımın da adını çəkmək mümkündür, fəaliyyətin birinci mərhələsində görülən yüzlərlə işi də sıralamaq olar.
Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti kimi atdığı ilk addımlara gəlincə isə o, yeni vəzifəsinin icrasına məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasından, eləcə də 2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərimizin yüksək texnologiyalı protezlərlə təmin edilməsindən başlandı.
Bununla da göstərdi ki, o, cəmiyyət üçün ən ağır görünən problemlərin üstünə gedəcək. Sosial məsələlər hər zamankı kimi bundan sonra da onun üçün əsas olacaq. Onun rəhbərliyi ilə yerinə yetirilən layihələrin təsirini vətəndaşlar öz gündəlik həyat və məişətlərində birbaşa şəkildə duyub hiss edəcəklər.

❖ ❖ ❖

Artıq təqvimdə 2019-cu ilin 21 fevralıdır...
Aradan 2 il müddət ötüb. Tarix kimi yanaşanda o qədər də böyük müddət sayılmaz. Amma bu 2 il Azərbaycan həyatında böyük bir tarix kimi yaşanıb, əslində... Qısa müddətdə ölkə və cəmiyyət həyatında o qədər böyük dəyişikliklər baş verib ki, əgər bunlar reallıq kimi ortada olmasaydı, onların hər biri üçün, bəlkə də onilliklərin lazım gəldiyini düşünərdik.
Bu iki ildə çox şeylər dəyişib... Azərbaycan həyatında müsbətə doğru çox hadisələr baş verib və bu dəyişikliklər günü bu gün də davam etməkdədir.
Dəyişməyənlərsə, Prezidentin qarşıya qoyduğu milli hədəflərdir. Bu hədəflərə münasibətdə göstərdiyi prinsipiallıqdır. Azərbaycanın uğur yoludur. Xalqla hakimiyyətin vəhdətidir. İnsanlarımızın cənab İlham Əliyev, Mehriban xanım Əliyeva şəxsiyyətinə dərin rəğbətidir...
Ölkənin və xalqın maraqlarının daim üstün tutulması, xeyirxahlıq, mərhəmət, insanlara sevgi onlar üçün bir həyat normasıdır...
Birinci vitse-prezident kimi Mehriban xanım Əliyevanın fəaliyyətini də bu norma müəyyənləşdirir. O, Azərbaycana xidmət edərək üzərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirir. Əsl vətəndaşlıq nümunəsi ortaya qoyur.
Mehriban xanım Əliyeva bütün cəhətləri ilə xalq adamıdır, vətəndaşlarımızın birmənalı dəstəyini qazanmış dövlət xadimidir, gördüyü işlərlə xalqın istəklərini yerinə yetirən, insanların arzularından gəlmiş uğurlu, parlaq simadır.
Güman ki, dünya ədəbiyyatı XXI əsr tarixinin belə parlaq qadın şəxsiyyətlərinin obrazını yaratmaqdan ötrü nə vaxtsa onların ömürlüyünə müraciət edəcək. Onların ümumilikdə bəşəriyyətə həsr edilmiş həyat və fəaliyyətinin xarakterik cizgilərini üzə çıxarmağa çalışacaq.
Mehriban xanım çağdaş dünyamızda, Qərb və Şərq düşüncəsinin dialoqunda təkcə özünü deyil, həm də Azərbaycan dövlətini, Azərbaycan qadınlarını, türk və islam dünyasını, müasir, modern dövlət quruculuğunda yaxından iştirak edən qabaqcıl dünya qadınlarını, diplomatları, siyasətçiləri, ictimai, mədəniyyət, elm xadimlərini, anaları, birinci xanımları təmsil edən ümumiləşmiş obraz kimi hər zaman maraq doğuracaq.

❖ ❖ ❖

O, ölkənin birinci xanımı, milli dövlətçilik tariximizdə birinci xanım institutunun yaradıcısıdır. Dövlət rəhbərinə ən yaxın vətəndaşdır, Prezidentin ən çox güvəndiyi insandır, xalqla ölkə başçısı arasında mənəvi körpüdür.
Dövlət rəhbərlərinin həyat yoldaşlarının birinci xanım adlandırılması ənənəsi sivil cəmiyyətlərdə çoxdan var. Amma əksər ölkələrdə onların çoxu kölgədə qalmağı üstün tutur. Ölkənin problemlərindən, idarəçilik sisteminin ağır məsuliyyətindən kənar duraraq sakit, rahat həyatı üstün tutur. Bəziləri isə əsasən, xarici səfərlər zamanı gözə dəyir, cəmiyyət arasında nadir hallarda görünürlər.
İctimai-siyasi həyatda fəal iştirak, sosial problemlərin yükünə çiyin vermək, ömür-gün yoldaşına bu sahədə də dəstək olmağa çalışmaq Mehriban xanımın öz seçimidir. Başqa cür yəqin ki, ola bilməzdi. Çünki onun ömrünü, taleyini, özünün də bir zamanlar müsahibələrində söylədiyi kimi, dərk edilmiş məsuliyyət hissi idarə edir.
Ona görə də Mehriban xanım həyat və insanlar, ölkənin taleyüklü problemləri ilə bağlı kiminsə məsuliyyət daşımasının gərək olduğu hər yerdədir.
Bu qeydləri qələmə alarkən, onun müxtəlif illərə aid fotolarını nəzərdən keçirirəm. Bu fotolar fərqli zamanlarda, ayrı-ayrı məkanlarda çəkilib. Amma hamısında insanlar var, hadisələr var, ya təməli qoyulan, ya icrası davam etdirilən, ya da artıq başa çatmış işin nəticələri var.
Mehriban xanım həmişə insanlar arasındadır, hadisələrin mərkəzindədir...
Və bu, adama qətiyyən təəccüblü gəlmir. Mehriban Əliyevanın birinci xanım missiyasına yanaşması zərurət, yaxud görüntü kimi nəzərə çarpmır. Sanki elə belə də olmalıymış. Çünki bütün bunlar onun təbiətindən, xarakterindən doğur. Onun üçün həyatının mənası Vətənə, xalqa və insanlara xidmətdədir. Sərhəd tanımayan humanizmdədir, xeyirxahlıqdadır, insanpərvərlikdədir...
Mehriban xanım kifayət qədər çətin və məsuliyyətli olan ictimai-siyasi statuslarını sadə insanların problemlərinin həllindən ötrü bir fürsət kimi dəyərləndirir. Birinci vitse-prezident vəzifəsinə təyin olunduqdan sonra onun "Rossiya 1" telekanalının "Vesti nedeli" proqramına müsahibəsini xatırlayırsınızmı? Həmin müsahibəsində Mehriban xanım deyirdi: "Mən Prezidentin etimadını, ən başlıcası isə mənə inanan, ümid bəsləyən insanların etimadını doğrultmalıyam".
O, qarşıya qoyduğu bütün vəzifələrin öhdəsindən gələ biləcəyinə inanır. Çünki Azərbaycan insanı da ona inanır...
Və Mehriban xanımda belə bir əminliyi yaradan o inamın ruhudur...
Sadə insanların ona olan sevgisidir...

❖ ❖ ❖

Tanrı bir dövlət adamı üçün mühüm olan ən mühüm keyfiyyətləri bu zərif, nəcib xanımdan əsirgəməyib.
Dövlət adamı humanist olmalıdır. Mehriban xanımın necə böyük qəlbə, yüksək humanizm hissinə sahibliyini illərdən bəridir ki, görə-görə gəlirik. Hələ Milli Məclisin deputatı olarkən irəli sürdüyü amnistiya təşəbbüsləri əsasında minlərlə insan ömrün ən dəyərli nemətinə - azadlığa qovuşub.
O, minlərlə şəxsə öz yanlışlarından nəticə çıxarıb həyatlarını yenidən qurmaq şansı verib. Mehriban xanım o şəxsiyyətlərdəndir ki, istənilən kəsin əgər belə şans verilərsə, yaxşı biri olmaq gücünə inanır. Nəcib əməlləri ilə, yaratdığı nümunələrlə insanların qəlbindəki işığı üzə çıxarmağa çalışır. Onun dünyaya, həyata baxışının mərkəzində insan dayanır. Gördüyü bütün işlər insan üçündür. Atdığı hər bir addım insanın rifahına yönəlib.
Onun üçün insanlıq da elə başqa insanlara münasibətdir, onların hisslərinə şərik çıxmaqdır, sevgi, mərhəmət göstərməkdir. İnsan üçün ən dəhşətlisi isə biganəlik və laqeydlikdir: "Fərqi yoxdur, ictimai xadimsən, yaxud dövlət xidmətində işləyirsən - insanlığı qorumaq lazımdır. Mənə elə gəlir ki, bu, heç vaxt səhv ola bilməz, əksinə, bu, həmişə doğru yoldur".
Bir dövlət adamı üçün ən mühüm cəhətlərdən biri də enerjili olmaqdır. Rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli layihələr, bu layihələrin hər birinə nəzarət, gün ərzində təşkil olunan görüşlər, müzakirələr, tədbirlər, ayrı-ayrı yerlərə baş çəkib işlərin icrası vəziyyətini şəxsən diqqətdə saxlamaq, hər gün çoxsaylı problemlərin həllinə kömək ümidi ilə üz tutan yüzlərlə vətəndaşın müraciətlərinə baxılması, üstəlik, xarici səfərlər və bir Azərbaycan xanımı kimi ailədəki isti mühitin qorunması, övladlara, sevimli nəvələrə vaxt ayırmaq Mehriban xanımın tükənməz enerjisindən xəbər verir.
Bu enerjinin mənbəyi isə sevgidir...
O, gördüyü bütün işlərə qəlbinin sevgisini qatır. Başqaları üçün nəsə xeyirli bir iş görməyin yaratdığı məmnuniyyət duyğusundan güc alır. Ona görə Mehriban xanım bu qədər uğurludur, güclüdür, enerjilidir.

❖ ❖ ❖

Yüksək intellekt, geniş dünyagörüşü dövlət adamının zinətidir. Bunu insana bəxş edənsə kitablardır, insanın körpəlikdən əhatə olunduğu mühitdir.
O, ən dəyərli əşyaların kitablardan ibarət olduğu evdə göz açıb. Atası - akademik Arif Paşayevin, anası - görkəmli şərqşünas alim - professor Aida xanım İmanquliyevanın, babaları - böyük ədibimiz Mir Cəlal Paşayevin, jurnalistikada çoxlarının ustadı olmuş unudulmaz - Nəsir İmanquliyevin zəngin kitabxanalarının əhatəsində böyüyüb...
Bu ocaqların işığına tez-tez toplaşan dövrün tanınmış ziyalılarının söhbətləri mühitində boy atıb. Akademik Zərifə xanım Əliyeva kimi bir Azərbaycan qadınına gəlin olub. Ümummilli lider Heydər Əliyevin ocağında belə bir siyasət nəhəngindən dövlətçilik dərsi alıb, ondan görüb-götürüb, cəmiyyət həyatına, ictimai-siyasi proseslərə baxışları ondan əxz edilmiş təcrübə əsasında formalaşıb.
İnsan hətta orta məktəb təhsili almasaydı belə, bu cür mühitdə yetişmək bir neçə universitetin məzunu olmağa bərabər idi... Mehriban xanımın dərin intellekti, elitar zövqü, xalqımızın soykökünə bağlılığı, ölkədə və dünyada baş verənləri düzgün təhliletmə qabiliyyəti, təmkini, kitaba, elmə, mədəniyyətə sevgisi bu mühitdən gəlir.

❖ ❖ ❖

Dünyada insanlığın da, dövlətçiliyin də, ictimai inkişafın da təməlində dayanan bir ali keyfiyyət var: ədalət...
Əgər cəmiyyətdə ədalət meyarları qorunarsa, o cəmiyyəti inkişaf yolundan heç bir maneə saxlaya bilməz. Adillik insana xas ən gözəl duyğudur. Mehriban xanımın şəxsiyyətində nəzərə çarpan əsas xüsusiyyətlərdən biri də məhz onun adilliyidir. Məsələlərə ədalət prizmasından yanaşmasıdır. Haqqı-nahaqqın ayağına verməməsidir. Hər kəs üçün bərabər imkanlar mühitinin yaradılmasına çalışmasıdır.
Belə bir yanaşma, şəxsən bir vətəndaş olaraq bu sətirlərin müəllifi üçün həyati əhəmiyyət kəsb edir. O qədər də az olmayan həyat təcrübəmin anlatdığı bir həqiqət var ki, heç bir cəmiyyət yalnız varlılardan, yaxud kasıblardan ibarət ola bilməz. Çünki insanların işləmək əzmi, nailiyyətlərə can atmaq istəyi, biliyi, qabiliyyəti, potensialı fərqlidir. Bu fərq onların həyatında fərqli də nəticələr yaradacaq. Əsas olan o əzmin formalaşması, o biliyin, qabiliyyətin əldə olunması və hər insanın malik olduğu potensialın reallaşdırılmasından ötrü imkanların hər kəsə bərabər şəkildə verilməsidir. Onda cəmiyyət də irəli gedəcək, dünya da indikindən daha gözəl olacaq, insanlar da əsrlərdən bəri can atdıqları xoşbəxtliyə qovuşacaqlar.
Mehriban xanım belə bir cəmiyyətin olmasını istəyir...
Belə bir dünyanın qurulmasını arzulayır...
Və bundan ötrü bir dövlət adamının görə biləcəyi bütün işlərin zəhmətini çəkir...
Onun təhsil məsələlərinə göstərdiyi xüsusi diqqətin, fəaliyyətinin mühüm bir qismini gənc nəslin təlim-tərbiyəsi işinə ayırmasının səbəbi budur. Çünki hər kəsin bərabər imkanlara sahib olduğu ədalətli cəmiyyətin formalaşdırılması işi uşaq bağçalarından, məktəblərdən, balacalara aşılanan müasir bilik və bacarıqlardan başlanır.

❖ ❖ ❖

Başqalarının halından anlamaq, özünü digərlərinin yerinə qoya bilmək, onların problemlərini duyub hiss etmək nəciblikdir. İstənilən insanda bu keyfiyyət Tanrının gözəl bir lütfü sayıla bilər. Qayğı, mərhəmət, həssaslıq ondan başlanır. Dövlət xadimində isə bu keyfiyyətlər insanların ona olan sevgisinin əsas qaynağıdır. Əgər belə bir keyfiyyət yoxdursa, o sevgi də olmayacaq.
Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın sadə insanlarla mütəmadi görüşlərini əks etdirən reportajları izləyirəm, vətəndaşlarla söhbətlərin məzmununa diqqət yetirirəm, bu görüşləri fotoların yaddaşında əbədiləşdirməkdən ötrü telefonların imkanlarından yararlanıb onlarla özçəkim edən insanların - cavanın, yaşlının, uşağın, böyüyün, kişinin, qadının sevinc dolu çöhrələrinə nəzər salıram...
Hamımız kimi bu insanların da hərəsi bir eldən, bir evdən gəlib, hamımız kimi onların da hərəsinin bir dərdi, qayğısı, dövlət qurumlarından müəyyən gözləntiləri, umacaqları var...
Amma bu şəkillərə düşən sevgidir, rəğbətdir, birgəlik hissidir, bütün problemlərin belə bir birgəliyin gücü ilə aradan qaldırıla biləcəyinə və zaman-zaman həqiqətən aradan qaldırıldığına güclü inam hissidir...
Mehriban xanım Prezidentimizin gördüyü işlərə davamlı dəstəyi ilə, həyata keçirilən siyasətə töhfələri ilə bu inamı daha da qüvvətləndirir, xalq-dövlət münasibətlərinə pozitiv ruh gətirir.
Onun səmimiyyəti, sadə insanlarla arada bürokratik sədlər qoymaması, stereotiplərdən uzaqlığı hər zaman böyük rəğbət doğurur. Rəhbərin mütləq quru, vəzifə adamının sərt insan olması, idarəçiliyin yalnız bu şəkildə mümkünlüyü barədə əsrlərdən bəri formalaşmış fikirlə o, heç zaman razılaşmır və hesab edir ki, bunlar yanlışdır...
Müsahibələrindən birində bu barədə düşüncələrini bölüşərkən demişdi: "Düşünürəm ki, rəhbərin mütləq quru insan olması ideyası da müəyyən dərəcədə stereotipdir. Məsuliyyətli - bəli, prinsipial - bəli, iradəli - bəli. Quruluq, sərtlik vacib keyfiyyət deyil. Mənim üçün insanlarla işləmək bacarığı, sənin baxışlarını prinsipcə bölüşən, sənin ardınca getməyə hazır olan həmfikirlər komandası yaratmaq bacarığı daha vacibdir. Çünki onlar anlayırlar ki, sənin işlərin xeyirxahlığa yönəlib. Çox vacibdir ki, bəyan və elan edilənlər həqiqətən, baş verənlərlə üst-üstə düşsün. Çünki insanlar hər şeyi görürlər, hər şeyi anlayırlar".
Və bu məqamdan Mehriban xanımın xarakterinin ən ümdə, aparıcı xüsusiyyəti başlanır. Bu, vətənpərvərlikdir, vətənə, torpağa, millətə sonsuz məhəbbətdir.
Bu hiss parlaq bir xətt kimi onun bütün fəaliyyətindən keçir və ulu öndər Heydər Əliyevin "Xalqın, vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir" düşüncəsi, Mehriban xanımın da həyat və fəaliyyətində öz ifadəsini tapır.



*Mehriban xanım Əliyeva bütün cəhətləri ilə xalq adamıdır, vətəndaşlarımızın birmənalı dəstəyini qazanmış dövlət xadimidir, gördüyü işlərlə xalqın istəklərini yerinə yetirən, insanların arzularından gəlmiş uğurlu, parlaq simadır.*
*Mehriban xanım çağdaş dünyamızda, Qərb və Şərq düşüncəsinin dialoqunda təkcə özünü deyil, həm də Azərbaycan dövlətini, Azərbaycan qadınlarını, türk və islam dünyasını, müasir, modern dövlət quruculuğunda yaxından iştirak edən qabaqcıl dünya qadınlarını, diplomatları, siyasətçiləri, ictimai, mədəniyyət, elm xadimlərini, anaları, birinci xanımları təmsil edən ümumiləşmiş obraz kimi hər zaman maraq doğuracaq.*
*Mehriban xanım həmişə insanlar arasındadır, hadisələrin mərkəzindədir...*
*O, qarşıya qoyduğu bütün vəzifələrin öhdəsindən gələ biləcəyinə inanır. Çünki Azərbaycan insanı da ona inanır...*
*Və Mehriban xanımda belə bir əminliyi yaradan o inamın ruhudur...*
*Sadə insanların ona olan sevgisidir...*
*Tanrı bir dövlət adamı üçün mühüm olan ən mühüm keyfiyyətləri bu zərif, nəcib xanımdan əsirgəməyib.*
*O, gördüyü bütün işlərə qəlbinin sevgisini qatır. Başqaları üçün nəsə xeyirli bir iş görməyin yaratdığı məmnuniyyət duyğusundan güc alır. Ona görə Mehriban xanım bu qədər uğurludur, güclüdür, enerjilidir.*
*Onun səmimiyyəti, sadə insanlarla arada bürokratik sədlər qoymaması, stereotiplərdən uzaqlığı hər zaman böyük rəğbət doğurur. Rəhbərin mütləq quru, vəzifə adamının sərt insan olması, idarəçiliyin yalnız bu şəkildə mümkünlüyü barədə əsrlərdən bəri formalaşmış fikirlə o, heç zaman razılaşmır və hesab edir ki, bunlar yanlışdır...*
*Ulu öndər Heydər Əliyevin "Xalqın, vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir" düşüncəsi, Mehriban xanımın da həyat və fəaliyyətində öz ifadəsini tapır.*

*Təqvimə baxıram...*
*Aylar, həftələr, günlər, onları işarələyən rəqəmlər 21 fevral tarixinin ardınca da sıralanıb gedir. Düşünürəm ki, nə vaxtsa bu günlər də həyatımızda bir keçmişə çevriləcək. Dünya üçün də, Azərbaycan üçün bir tarix olacaq...*
*Və bir anlıq mənə elə gəlir ki, gələcəyin bələdçisi olan o rəqəmlərin hər birinə 21 fevral kimi tarixi günlərimizdən mütləq işıq düşəcək...*
*Cənab İlham Əliyev, Mehriban xanım Əliyeva kimi şəxsiyyətlərimiz Azərbaycanın bundan sonrakı hər gününü o rəqəmlərə yeni bir dövlətçilik nailiyyətimizlə yazacaqlar...*

**Hüseynbala MİRƏLƏMOV,**
***Milli Məclisin deputatı, yazıçı-publisist***

# “Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyul tarixli 739 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 986-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

“Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyul tarixli 739 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 7, maddə 449; 2000, № 5, maddə 340) 3-cü hissəsinə “hakimləri” sözündən sonra “və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə Azərbaycan Respublikasından seçilmiş hakim” sözləri əlavə edilsin və həmin hissədən “dəmir yolu, hava və avtomobil nəqliyyatı vasitələrindən (taksi istisna olmaqla), habelə” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2019-cu il*

# Bakı şəhərinin Binəqədi rayonunda İrəvan Dövlət Azərbaycan Dram Teatrı binasının əsaslı təmiri və yenidən qurulması işləri haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Binəqədi rayonunda İrəvan Dövlət Azərbaycan Dram Teatrı binasının əsaslı təmiri və yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.21.1-ci yarımbəndində göstərilmiş 2,0 (iki) milyon manat vəsait Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2019-cu il*

# Azərbaycan ilə Aİ arasında siyasi və təhlükəsizlik məsələləri üzrə danışıqların növbəti raundu keçirilib

Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında strateji tərəfdaşlıq münasibətlərinin hüquqi əsasını təşkil edəcək yeni saziş layihəsinə dair danışıqların siyasi və təhlükəsizlik, eləcə də ticarət istiqamətləri üzrə davam etdirilməsi məqsədilə Avropa İttifaqının nümayəndə heyətləri ölkəmizə səfər edib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Azərbaycan Xarici İşlər Nazirliyində Aİ tərəfindən saziş üzrə əsas nümayəndə, Avropa Xarici Fəaliyyət Xidmətinin Şərqi Avropa və Mərkəzi Asiya üzrə icraçı direktorunun müavini Lyuk Dövinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə siyasi və təhlükəsizlik məsələləri üzrə danışıqların növbəti raundu baş tutub.

Həmçinin Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Aİ nümayəndə heyəti ilə görüşüb.

Aİ-nin Ticarət üzrə Baş Direktorluğunun nümayəndəsi Petros Sourmelisin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan tərəfi ilə saziş layihəsinin ticarət sahəsi üzrə danışıqlarını bu il fevralın 15-20-də Bakıda davam etdirib.

# Milli Məclisdə “Könüllülər Parlamenti - Azərbaycan, 2019”un iştirakçıları ilə daha bir görüş olub

Fevralın 20-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Aydın Mirzəzadə, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Məlahət İbrahimqızı və komitənin üzvü Elşən Musayev Milli Məclisdə “Könüllülər Parlamenti - Azərbaycan, 2019” layihəsinin iştirakçıları ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Aydın Mirzəzadə könüllülər hərəkatının son illərdə gənclərimizi daha çox əhatə etməyə başladığını və özünü doğrultduğunu söyləyib. Bildirib ki, gənclər bu hərəkata qoşulmaqla ictimai həyatda ilk addımlarını atırlar və burada qazanılmış təcrübə onların gələcəkdə cəmiyyətdə öz yerlərini tutmalarına kömək olacaq.

Məlahət İbrahimqızı və Elşən Musayev ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan, aparılan islahatlardan danışıb, belə görüşlərin əhəmiyyətini vurğulayıblar. Deputatlar gənclərə təmsil etdikləri komitələrin gördükləri işlər, qanun yaradıcılığı prosesi və parlamentin iş prinsipi haqqında məlumat veriblər. Gənclər müxtəlif qanun layihələrinin hazırlanması, təkliflərin verilməsi, prosedur qaydalar və digər məsələlər haqqında məlumatlandırılıb.

Sonda layihə iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Nazirlər Kabinetində keçirilən görüşdə Azərbaycan-Türkiyə münasibətlərinin inkişafından danışılıb

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov fevralın 20-də Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyədə olduğunu vurğulayan Baş nazir ölkələrimizin və xalqlarımızın tarixən bir-birinə çox güclü tellərlə bağlı olduğunu bildirib. Azərbaycan və Türkiyə parlamentlərinin ölkələrimiz arasında münasibətlərin inkişafındakı rolundan bəhs edən Novruz Məmmədov Türkiyə nümayəndə heyətinin bu səfərinin, keçirilən görüşlərin əlaqələrimizin daha da genişləndirilməsi baxımından önəmli olduğunu deyib.

Azərbaycanın və Türkiyənin iştirakı ilə həyata keçirilən qlobal əhəmiyyətli layihələrdən bəhs edən Baş nazir qeyd edib ki, Bakı-Tbilisi-Qars dəmiryol xəttinin istifadəyə verilməsi, TANAP, TAP kimi qlobal əhəmiyyətli layihələrin həyata keçirilməsi qardaş ölkələrimiz arasındakı əməkdaşlığı daha da dərinləşdirir.

Şamil Ayrım Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun yeni tərkibdə Azərbaycana ilk dəfə səfər etdiyini bildirib. O, səfər zamanı Azərbaycan-Türkiyə əlaqələrinin hazırkı vəziyyətinə, münasibətlərin daha da dərinləşdirilməsi istiqamətində görülməli olan işlərə dair önəmli müzakirələr aparıldığını diqqətə çatdırıb. Qardaş ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə ən yüksək səviyyədə olduğunu deyən Şamil Ayrım Azərbaycanın və Türkiyənin iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən neft-qaz sektorunda birgə bir sıra mühüm layihələrə imza atdıqlarını söyləyib. O, birgə həyata keçirilən bu layihələrin Azərbaycan və Türkiyə ilə yanaşı, bölgənin də inkişafına mühüm töhfələr verdiyini diqqətə çatdırıb.

Dostluq qrupunun rəhbəri Türkiyənin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində daim Azərbaycanın yanında olduğunu bildirib, bu problemin tezliklə ədalətli həll ediləcəyinə əminliyini ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair müzakirələr aparılıb.

# Azərbaycan daxili işlər nazirinin başçılıq etdiyi nümayəndə heyəti Türkiyədə səfərdədir

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubovun başçılıq etdiyi nümayəndə heyəti Budapeşt Prosesinin VI nazirlər konfransında iştirak etmək üçün fevralın 19-da Türkiyə Respublikasına səfər edib.



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həmin gün Azərbaycan və Türkiyə daxili işlər nazirlərinin görüşü olub.

Budapeşt Prosesinin VI nazirlər konfransında iştirak etmək barədə dəvətini qəbul etdiyinə görə Ramil Usubova minnətdarlığını bildirən və ötən ilin sonlarında Azərbaycana ilk rəsmi səfərini xatırladan Süleyman Soylu dost və qardaş ölkələrimizin qlobal təhdidlərə, o cümlədən mütəşəkkil cinayətkarlığın bütün təzahürlərinə, xüsusən terrorizmə qarşı hər zaman vahid mövqedən çıxış etdiyini vurğulayıb. O, regionda fəaliyyət göstərən terror təşkilatlarının əsas hədəfinin Türkiyə olduğunu deyərək Azərbaycanın belə qruplaşmalara qarşı sərt və qətiyyətli mövqeyindən, atdığı konkret addımlardan məmnunluğunu ifadə edib. Türkiyəli nazir, həmçinin əməkdaşlığın dərinləşdirilməsi, aidiyyəti dövlət qurumları arasında təcrübə və məlumat mübadiləsinin genişləndirilməsi istiqamətində birgə səylərin bundan sonra da davam etdiriləcəyini bildirib.

Mötəbər beynəlxalq konfransa dəvət etdiyinə, göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən nazir R.Usubov ikitərəfli münasibətlərin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini, əməkdaşlığın dərinləşməsinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın əsl qardaşlıq və dostluq əlaqələrinin böyük töhfə verdiyini məmnunluqla qeyd edib.

Əməkdaşlığın geniş potensiala malik olduğunu, kadr hazırlığı və hərbi sahədə bir sıra sənədlərin imzalandığını, ikitərəfli formatda çoxsaylı görüşlərin keçirildiyini razılıqla diqqətə çatdıran nazir Ramil Usubov transmilli mütəşəkkil cinayətkarlıqla mübarizədə iki ölkənin hüquq mühafizə orqanları arasında məlumat və təcrübə mübadiləsinin daha da gücləndirilməsinin zəruriliyini vurğulayıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

Fevralın 20-də İstanbul şəhərində Budapeşt Prosesinin VI nazirlər konfransı öz işinə başlayıb. Əvvəlcə Birləşmiş Millətlər Təşkilatının baş katibi Antoni Quterreşin tədbir iştirakçılarına videomüraciəti səsləndirilib.

Sonra Budapeşt Prosesinin sədri - Türkiyə Respublikasının daxili işlər naziri Süleyman Soylu, Prosesin həmsədri - Macarıstanın xarici işlər naziri Peter Siyarton, miqrasiya, daxili işlər və vətəndaşlıq məsələləri üzrə Avropa komissarı Dimitris Avramopolous, Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin baş direktoru Maykl Şpindeleqqer və digər rəsmi şəxslər çıxış ediblər.

Tədbirdə Azərbaycan Respublikasının daxili işlər naziri Ramil Usubov çıxış edərək qanunsuz miqrasiyanın kriminogen duruma mənfi təsiri, bu sahədə ölkəmizdə həyata keçirilən mühüm tədbirlər, habelə dünyada, xüsusən Yaxın Şərqdə miqrasiya böhranını doğuran səbəblər haqqında danışıb, onların aradan qaldırılması yolları barədə təkliflər səsləndirib.

Konfransın sonunda “Miqrasiya üzrə İpək yolu Tərəfdaşlığına dair İstanbul Öhdəlikləri” və “Fəaliyyətə dair çağırış - beşillik plan” adlı sənədlər qəbul edilib.

# Ankarada Azərbaycan və Türkiyənin Təhsil nazirlikləri arasında əməkdaşlığın mövcud vəziyyəti yüksək dəyərləndirilib



Azərbaycanın təhsil naziri Ceyhun Bayramovun Türkiyəyə üçgünlük rəsmi səfəri başa çatıb.

AZƏRTAC xəbər verir ki, səfərin sonuncu günü Ankaradakı Heydər Əliyev Məktəbi ilə tanışlıq olub. Burada məktəbin fəaliyyəti və tədris metodikası barədə ətraflı məlumat verilib. Məktəbdə şagirdlərin Azərbaycan və Türkiyənin qardaşlığını tərənnüm edən rəsm sərgisi ilə tanışlıq olub.

Ceyhun Bayramov Azərbaycan Təhsil Nazirliyi adından məktəbə ümummilli lider Heydər Əliyevin zəngin mənalı həyat və fəaliyyətini əks etdirən, o cümlədən Heydər Əliyev Fondunun ölkəmizin həqiqətlərinə və mədəniyyətinə aid çap etdirdiyi nadir nəşrləri hədiyyə edib.

Məktəbin qapalı idman və konsert zalında müəllim və şagirdlərin iştirakı ilə toplantı təşkil olunub.

Əvvəlcə Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Sonra Azərbaycanın təhsil naziri Ceyhun Bayramov, Ankara Təhsil İdarəsinin rəisi Turan Akpınar və Heydər Əliyev Məktəbinin müdiri Necati Şəngəzərin çıxışları dinlənilib.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və Türkiyə dövlətinin banisi Mustafa Kamal Atatürkün şəxsiyyətlərinin ucalığından bəhs edən çıxışçılar bildiriblər ki, hər iki tarixi şəxsiyyət ölkələrimizdə elm və təhsilin inkişafına xüsusi diqqət veriblər. Onların təhsil sahəsində qəbul etdikləri qərarlar tarixi missiya daşıyıb. Vurğulanıb ki, Heydər Əliyevin adını daşıyan məktəbdə oxumaq həm şərəfli, həm də məsuliyyətlidir. Ümummilli lider Heydər Əliyevin “Bir millət, iki dövlət!”, Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir!” ifadələrini xatırladan çıxışçılar qeyd ediblər ki, ölkələrimizdə təhsilin inkişafı, o cümlədən bu sahədə əlaqələrimizin böyük bəhrəsi dahi liderlərin arzu və istəklərinin gerçəkləşməsidir.

Çıxışlardan sonra şagirdlər zəngin bədii və idman proqramı təqdim ediblər. Azərbaycanın gözəlliyini və əzəmətini, Türkiyə ilə qardaşlığımızı tərənnüm edən şeirlər söylənilib, maraqlı idman nömrələri göstərilib.

Daha sonra Azərbaycanın təhsil naziri Ceyhun Bayramov ilə Türkiyənin milli təhsil naziri Ziya Səlcuk arasında görüş olub. Görüşdə Azərbaycan və Türkiyənin Təhsil nazirlikləri arasında münasibətlərin daha da inkişaf etdirilməsinə dair səmərəli fikir mübadiləsi aparılıb. Tərəflər iki qardaş ölkənin müvafiq nazirlikləri arasında əlaqələrin dinamik inkişafını yüksək dəyərləndiriblər.

# Bakıda “Mənəvi dəyərlərimiz gələcəyimizdir” adlı konfrans keçirilib





Gənclər üçün Təhsil Mərkəzinin və Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə fevralın 20-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) “Mənəvi dəyərlərimiz gələcəyimizdir” mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsindən sonra “Oxu!” sənədli filmi nümayiş olunub.

Mərkəzin icraçı direktoru Fəxrəddin Həsənzadə çıxış edərək tədbirin əsas məqsədinin gənclər arasında milli-mənəvi dəyərlərimizin təbliğini gücləndirmək, unudulmaqda olan dəyərlərimizin qorunması işinə töhfə vermək olduğunu bildirib. O, regionlarda da bu istiqamətdə silsilə tədbirlərin keçiriləcəyini diqqətə çatdırıb.

ADBTİA-nın prorektoru Təhminə Tağızadə mövzunun əhəmiyyətinə toxunub. O, xalqımızın formalaşmasında mühüm rol oynayan milli-mənəvi dəyərlərin dövlətçiliyimizin möhkəmlənməsində də xüsusi önəm daşıdığını qeyd edib. T.Tağızadə milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında gənclərin üzərinə böyük vəzifə düşdüyünü vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDX) sədri Mübariz Qurbanlı bildirib ki, milli-mənəvi dəyərlər xalqımızın özünəməxsus xüsusiyyətidir. Azərbaycan xalqının söykəndiyi bu dəyərlər ulu öndər Heydər Əliyevin yaratdığı dövlətçilik prinsiplərinin əsasında durur. Milli-mənəvi dəyərləri qorumağın ən ümdə vəzifələrimizdən biri olduğunu diqqətə çatdıran komitə sədri qeyd edib ki, bu dəyərləri təhdid edən müxtəlif amillərlə rastlaşırıq. Zaman keçdikcə milli-mənəvi dəyərlərə münasibətdə də müxtəlif dəyişikliklər, yeni yanaşmalar ortaya çıxır. Lakin elə dəyərlər də var ki, onlar daimidir. Bu dəyərləri, milli xüsusiyyətləri, adət-ənənələri qorumaq zəruridir. Əks təqdirdə, dünyada gedən mədəniyyətlərarası qovuşmada böyük təsir gücü altında mədəniyyətlərin də, milli adət-ənənələrin də assimilyasiyası prosesi gedə bilər. Mübariz Qurbanlı vurğulayıb ki, Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması, təbliği istiqamətində mühüm işlər görülür və bu işlər davam etdiriləcək. Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, din, milli-mənəvi dəyərlərin qorunması sahəsində də ardıcıl siyasət həyata keçirir. O, dövlət başçısının fərmanı ilə dövlət komitəsinin tabeliyində yaradılan Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən milli-mənəvi dəyərlərin düzgün təbliği istiqamətində kompleks tədbirlər həyata keçirildiyini, videoçarxların, sənədli filmlərin hazırlandığını bildirib. DQİDK sədri fondun dəstəyi ilə çəkilən “Oxu!” adlı sənədli filmin xurafatla mübarizəyə həsr olunduğunu, filmdə cəhalətin, elmsizliyin yol açdığı mənəvi boşluqlar və bunun nəticəsində xurafat hallarının artmasının yaratdığı təhlükələrin işıqlandırıldığını deyib.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

# Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı işini plenar sessiya ilə davam etdirib

Fevralın 20-də Bakıda, Heydər Əliyev Mərkəzində keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı işini plenar sessiya ilə davam etdirib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın energetika naziri Pərviz Şahbazov "Cənub qaz dəhlizi" layihəsində iştirak edən ölkələrə və layihəni dəstəkləyənlərə minnətdarlığını bildirdi. Nazir layihənin verdiyi enerji töhfəsi ilə yanaşı, sosial baxımdan da uğurlu olduğunu, onun icrası nəticəsində yeni iş yerlərinin yaradıldığını və ölkələrin daha da inkişafına səbəb olacağını qeyd etdi. Bugünkü toplantıda "Cənub qaz dəhlizi" üzrə görülən işlərin və "Şahdəniz-2" yatağının inkişaf etdirilməsi ilə bağlı məsələlərin müzakirə edildiyini vurğulayan nazir dedi:

- Hazırda biz onun şahidiyik ki, məhz təbii qaza olan tələbat artır. Çünki onun sayəsində havaya az karbon qazı buraxılır. Biz elə bir dövrdə yaşayırıq ki, enerji təhlükəsizliyi məhz hasilatçı, istehlakçı və tranzit ölkələr arasında münasibətlərin inkişafında mühüm rol oynayır. Bu baxımdan, "Cənub qaz dəhlizi" layihəsi monumental bir işdir. Çünki hazırda Avropada bu, ilk meqalayihədir ki, enerji təhlükəsizliyinin bütün komponentlərini özündə ehtiva edir. Bizim nailiyyətlərimiz birgə işin bəhrəsidir. Çünki biz vahid komanda kimi Xəzərdə hasil olunan qazın Avropaya ən təhlükəsiz ixrac marşrutu ilə nəql edilməsinə çalışırıq. Bu gün biz Avropa qaz bazarının yaradılması yönündə işləyirik və burada rəqabətədavamlılıq, mənbələrin və marşrutların şaxələndirilməsi nəzərdə tutulur.

"Cənub qaz dəhlizi" bütün iştirakçı tərəflərin maraqlarına xidmət edir və geniş coğrafiyada enerji təhlükəsizliyinin davamlılığına töhfə verir. Çox əhəmiyyətli haldır ki, biz, demək olar, hər il Məşvərət Şurasının toplantısına qoşulan ölkələrin siyahısında yeni tərəfləri görürük və onlar hamısı bu layihənin əhəmiyyətindən danışır. Bu, layihənin potensial faydasını göstərir. Serbiya, Macarıstan və San-Marino ilk dəfədir ki, bu il bizə qoşulur.

İtaliyanın iqtisadi inkişaf nazirinin müavini **Andrea Cioffi** ölkəsinin layihə ilə bağlı bütün görüşlərdə iştirak etdiyini bildirdi, bu görüşlərin fikir mübadiləsi aparmaq üçün yaxşı fürsət olduğunu vurğuladı. Enerji təhlükəsizliyinin artırılması məqsədilə istehsalçı və istehlakçı ölkələr arasında əməkdaşlığın səmərəliliyini daha da artırmağa ehtiyacın olduğunu deyən Andrea Cioffi qeyd etdi ki, müasir dünyada enerji təhlükəsizliyi enerji siyasətinin tərkib hissəsi olaraq qalır. İtaliya hökumətinin rəsmisi "Cənub qaz dəhlizi" layihəsinin regional əhəmiyyətini vurğulayaraq bildirdi:

- TAP layihəsi bütün Balkan bölgəsinin qaz boru kəməri şəbəkəsinin inkişafına imkan verəcək. Həmçinin Cənub-Şərqi Avropada qaz nəqliyyatı üzrə şəbəkələrin və qaz satışının inkişafına kömək edəcək. TAP layihəsindən yalnız Albaniya deyil, İon-Adriatik qaz kəməri vasitəsilə TAP-a bağlı olan Xorvatiya və Monteneqro da yararlanacaq ki, bu da Yunanıstan-Bolqarıstan interkonnektor layihəsi hesabına Yunanıstandan qoşulmaq marağında olan Bolqarıstan kimi Qərbi Balkanın bütün ölkələri faydalanacaq.

Bu gün biz sessiyada həyata keçirilməsində əhəmiyyətli nəticələr əldə edilmiş "Cənub qaz dəhlizi" haqqında müzakirələr aparacağıq. Azərbaycan və layihəyə cəlb olunan digər ölkələrlə yüksək səviyyəli əlaqələrə əsaslanan "Cənub qaz dəhlizi"nin açılmasında mən İtaliyanın töhfəsini bir daha vurğulamaq istəyirəm. Bu töhfənin dövlətlər arasında mükəmməl ikitərəfli əlaqələrə əsaslandığını bildirərək çıxışımda bir məsələyə də toxunmaq istəyirəm. Şaxələndirmə məsələsində digər ölkələr kimi, İtaliyanın da marağı var. Çünki məhz Avropada qurduğumuz yeni enerji birliyinin əsas ölkələrindən biri olaraq qitənin qaz təchizatının təhlükəsizliyini artırırıq.

ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım **Sandra Oudkirk** bu tədbirə qatılmasından məmnunluğunu ifadə edərək toplantıda iştirakına görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirdi. O, Azərbaycanda hasil edilən böyük həcmdə qazın tarixdə ilk dəfə olaraq "Cənub qaz dəhlizi" ilə yaxın zamanlarda Avropa bazarlarına çatdırılacağını vurğulayaraq dedi:



- Ötən il ərzində biz "Cənub qaz dəhlizi"nin sonuncu hissəsi olan Transadriatik boru kəmərinin tamamlanmasında da mühüm irəliləyişə nail olduq. Əgər işlər planlaşdırılan qaydada gedərsə, 2020-ci ildə ilk qaz TAP vasitəsilə İtaliyaya və Yunanıstana nəql olunacaq. Transadriatik boru kəmərinin və Yunanıstan-Bolqarıstan interkonnektorunun inşasının başa çatdırılması Azərbaycan ilə Avropa arasında siyasi və iqtisadi münasibətlərdə, eləcə də Avropanın enerji təhlükəsizliyində tarixi an olacaqdır. Mən bu cür gözəl nailiyyətləri mümkün etdiyinə görə Prezident Əliyevi və burada təmsil olunan bütün ölkələri və şirkətləri təbrik edirəm.

Birləşmiş Ştatlar bu layihə ilk dəfə on il əvvəl təklif olunandan etibarən "Cənub qaz dəhlizi"ni qətiyyətlə dəstəkləyib. Biz bilirik ki, o, enerji təchizatının şaxələndirilməsində Azərbaycanın və Avropanın göstərdiyi səylərdə mühüm rol oynayaraq Xəzər regionunda daha geniş iqtisadi inteqrasiyanı təmin edə bilər. Prezident Tramp bu layihənin vacibliyini vurğulayır. O, 2018-ci ildə Prezident Əliyevə göndərdiyi məktubunda "Cənub qaz dəhlizi"ni inanılmaz nailiyyət adlandıraraq, onu Avropaya lazım olan enerji təhlükəsizliyini təmin edən layihə kimi qiymətləndirmişdir.

Hamımızın bildiyi kimi, "Cənub qaz dəhlizi" genişlənmək məqsədilə tikilmişdir. Bunu nəzərə alaraq deməliyəm ki, o, Aralıq dənizinin şərqindən, Mərkəzi Asiyadan və Qafqazdan Avropadakı istehlakçılara daha böyük həcmdə qazın çatdırılması, onun dinc şəraitdə hasil edilməsi baxımından region ölkələri üçün fürsətdir. Birləşmiş Ştatların hökuməti bu məqsədə nail olmaqda göstərdiyiniz səyləri qətiyyətlə dəstəkləyəcək. Gələn illərdə biz regionun resurs potensialını reallaşdırmaq və onu dünyanın ən iri enerji bazarına açıq etmək üçün imkanları araşdıraraq sizinlə birlikdə işləyəcəyik.

Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa **Emma Nikolson** Prezident İlham Əliyevi və Azərbaycan hökumətini toplantının təşkili münasibətilə təbrik etdi. O, gözəl Bakıda olmaqdan məmnunluğunu bildirdi, Azərbaycanın əsas qlobal enerji iştirakçısı kimi artan strateji əhəmiyyətindən danışaraq dedi:

- Bu, sadəcə, dünyada ən iri infrastruktur layihələrindən biri deyil. Ümumi təhlükəsizliyimizi, rifahımızı və ətraf mühit məqsədlərimizi təşviq edən "Cənub qaz dəhlizi" bütün iştirakçılar üçün xüsusi əhəmiyyətlidir. Azərbaycan bu gün burada təmsil olunan bütün tərəflərə xidmət edən Xəzərin ehtiyatlarının dünyaya çıxarılmasında əsas rol oynadı. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan boru kəmərinin açılması ilə Azərbaycanın nefti Gürcüstan və Türkiyə vasitəsilə Avropa bazarlarına çatdırıldı. "Cənub qaz dəhlizi" hazırda təbii qaz üçün oxşar etibarlı ixrac marşrutudur. Xəzər qazı qaz təminatımızı şaxələndirməyə kömək edəcək. Yeni interkonnektorlar enerji şirkətlərimiz üçün yeni bazarlara çıxış yaradacaq və istehlakçıların tələbatlarını təmin etmək üçün qazın yeni marşrutla nəql olunmasına imkan verəcək. Bu, nəinki boru kəməri boyunca yerləşən ölkələrə, mənim ölkəmə, o cümlədən eyni qaz bazarlarında fəaliyyət göstərən hər birimizə xidmət edəcək. Birləşmiş Krallıq qlobal enerji təhlükəsizliyi məsələlərinə çox böyük əhəmiyyət verir.

Şaxələndirilmiş neft və qaz mənbələri nəinki etibarlı təchizatı, o cümlədən iqtisadi inkişafı təmin edir. Enerji bütün dünyada iş yerləri və artım üçün çox vacibdir. Biz hamımız etibarlı, təhlükəsizlik və təmin edilmiş enerji təchizatını arzulayırıq. Biz istəyirik ki, enerji iqtisadiyyatımız rəqabətədavamlı, həmçinin əlçatan olsun. Birləşmiş Krallıq neft və qaz sektorunda Azərbaycan ilə sıx əlaqələrini, o cümlədən Britaniya və Azərbaycanın enerji şirkətləri arasında uzun tarixi olan ticari münasibətləri yüksək dəyərləndirir.

Türkmənistan Prezidentinin müşaviri **Yaxşıgəldi Kakayev** bildirdi ki, "Cənub qaz dəhlizi" Avropa İttifaqı üçün prioritet enerji layihəsidir. Ölkəsinin enerji, rabitə və nəqliyyat sahələrində əməkdaşlığın çoxtərəfli formatının tərəfdarı olduğunu deyən Yaxşıgəldi Kakayev Türkmənistanda bu sahədə görülən işlərdən danışaraq bildirdi:

- Türkmənistan "Cənub qaz dəhlizi"nin icrası ilə bağlı əldə edilən əhəmiyyətli irəliləyişi, xüsusən də may ayında "Cənub qaz dəhlizi"nin birinci mərhələsinin işə salınmasını və 2018-ci ilin iyulunda TANAP layihəsinin istismara verilməsini alqışlayır. Türkmənistan da Qərb istiqamətində və Avropa ölkələri bazarını təmin etmək üçün lazım olan miqdarda təbii qazın təchizatını təşkil etmək imkanına malikdir. Şərqi Avropa ölkələrinin enerji təhlükəsizliyinə qiymətli töhfə verə biləcək mühüm infrastruktur layihələrindən biri Transxəzər qaz boru kəməridir. Bu layihənin reallaşdırılmasının texniki-hüquqi aspektlərinə dair ilk müzakirələr üçtərəfli formatda Türkmənistan, Azərbaycan və Avropa İttifaqı arasında 2011-ci ildə başlanıb. Sonradan danışıqlar beştərəfli formatda - Gürcüstan və Türkiyə də daxil olmaqla 2015-ci ildən nazir müavinləri səviyyəsində davam etdirilib. Türkmənistan Avropa istiqamətində türkmən qazının çatdırılma mümkünlüyünün müzakirəsi üzrə danışıqları bərpa və davam etdirməyə hazır olduğunu təsdiq edir. Mən əminəm ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı bu layihənin uğurla reallaşdırılmasında növbəti mühüm addım olacaq.

Türkiyənin enerji və təbii sərvətlər naziri **Fatih Dönməz** bildirdi ki, "Cənub qaz dəhlizi" layihəsi region ölkələrinin birgə işbirliyi həyata keçirməklə bağlı qərarını ortaya qoydu və bölgədə icra olunan digər layihələr də bundan nümunə götürməlidir. Türkiyənin TANAP vasitəsilə ilk qazı ötən ilin iyununda aldığını, artıq Yunanıstan sərhədinə qədər olan hissədə infrastruktur işlərinin tezliklə başa çatdırılmasının diqqətdə saxlandığını bildirən Fatih Dönməz TAP layihəsinin də sürətlə başa çatdırılmasına ümid etdiklərini vurğulayaraq dedi:

- Türkiyə-Azərbaycan qardaşlığı TANAP ilə bölgə coğrafiyasının sərhədlərini aşaraq yeni qitələrə və yeni zirvələrə çatdı. TANAP cənab prezidentlərimiz Ərdoğanın və Əliyevin güclü iradələri və qonşu ölkələrin uzaqgörən liderləri sayəsində ortaya çıxdı. Azərbaycanın və Türkiyənin güclü enerji baxışı sayəsində işləri birlikdə necə həyata keçirdiksə, bundan sonra da reallaşdırmağa davam edəcəyik. Bu güclü əlaqələr, bu sarsılmaz qardaşlıq və dərin məhəbbət bizim insanlığa bəxş edəcəyimiz ən böyük mirasdır.

TANAP uduzanın olmadığı tarixi bir layihədir. TANAP ilə Türkiyənin enerji sahəsində açar ölkə rolu güclənəcək. Azərbaycan tədarükçü ölkə kimi yeni bazarlara çıxa biləcək. Avropa isə mənbə ölkələrin və marşrutların şaxələndirilməsini artıra biləcək. TANAP Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə ilə yanaşı, Türkiyənin enerji siyasəti baxımından da tamamlayıcı və dəstəkləyici amil olacaq. Bu, milli enerji və mədən siyasətimizdə açıqladığımız enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyətə malik layihədir.

"Şahdəniz-2" və Cənubi Qafqaz Boru Kəməri layihəsinin genişləndirilməsi barədə məlumat verən BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti **Qəri Counz** BP-nin "Cənub qaz dəhlizi" kimi tarixi layihədə iştirak etməkdən qürur duyduğunu bildirərək dedi:

- Prezident İlham Əliyevin xüsusi, şəxsi diqqəti və dəstəyi qlobal neft və qaz sənayesində bu vaxtadək həyata keçirilmiş ən böyük və ən mürəkkəb təşəbbüslərdən biri hesab edilən bu layihənin uğurla icrasında aparıcı amil olub. Həqiqətən də bu, çox nəhəng bir layihədir. Ölkədə hərbi sektor xaricində indiyədək həyata keçirilmiş ən böyük layihədir. Belə irimiqyaslı layihələrin özünəməxsus çətinlikləri olur. Bu cür çətinliklər texniki, mühəndis, kommersiya, normativ-hüquqi və əlbəttə, geosiyasi xarakter daşıya bilər. "Cənub qaz dəhlizi" layihəsinin özünəməxsus mürəkkəbliyi bütün bu aspektləri özündə cəmləşdirir. Bu layihəni bir şirkətin, yaxud da bir ölkənin gerçəkləşdirməsi mümkün olmazdı. Bu layihənin icrası yeddi ölkənin və hökumətin, Avropa İttifaqının və digər müvafiq beynəlxalq təşkilatların, tərəfdaşlarımızın dörd ölkədəki alıcıları, tikinti işlərinə cəlb olunmuş 40 min insanı, çox sayda podratçı şirkətin, yüzlərlə icmanın, tənzimləyici orqanların, yerli icra orqanlarının və bir çox coğrafi regionda yerləşən digər maraqlı tərəflərin dəstəyi, birgə fəaliyyəti, əməkdaşlığı, əlaqələndirməni və razılaşdırmanı əhatə etdi.

TANAP-ın baş direktoru **Saltuk Düzyol** və TAP-ın icraçı direktoru **Luka Şipati** çıxış edərək "Cənub qaz dəhlizi" layihəsinin əhəmiyyətindən, Azərbaycanın regionun və Avropanın enerji təhlükəsizliyində rolundan danışdılar.

* * *

Sonra Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi və "Şahdəniz-2" layihəsinə həsr olunan videoçarx nümayiş olundu.

Daha sonra Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin görüşünün iştirakçıları tərəfindən Birgə Bəyannamə qəbul edildi.

# Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısının yekununa dair Birgə Bəyannamə imzalanıb

Fevralın 20-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısının yekununa dair Birgə Bəyannamə imzalanıb.




AZƏRTAC xəbər verir ki, sənədi toplantı iştirakçıları adından Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı Günter Ottinger imzalayıb.

İmzalanma mərasimindən sonra toplantının yekunları ilə bağlı mətbuat konfransı keçirilib.

Energetika naziri deyib ki, bu gün imzalanan Birgə Bəyannamədə strateji tərəfdaşlıq ön plana çəkilib və layihənin təşəbbüskarı olan Azərbaycanın rolu bir daha qeyd edilib. İclas zamanı Prezident İlham Əliyev "Cənub qaz dəhlizi" layihəsinin icrası üzrə əldə olunan nailiyyətləri yüksək qiymətləndirib. Builki iclasın iştirakçılarının sayında da artım olub. İclasa 17 ölkənin nümayəndəsi qatılıb. Serbiya, Macarıstan və San-Marino ilk dəfə iclasda təmsil olunub. Bu, "Cənub qaz dəhlizi"nə marağın artdığının bariz nümunəsidir.

P.Şahbazov bildirib ki, "Cənub qaz dəhlizi"nin tərkib hissəsi olan layihələrdən "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi və TANAP-ın Türkiyə təbii qaz nəql edən hissəsi üzrə işlər yekunlaşıb. Azərbaycan qazını Avropaya çatdıracaq TAP boru kəmərinin inşasının 85 faizi tamamlanıb.

Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı G.Ottinger isə qeyd edib ki, Avropa İttifaqı ilə Azərbaycan arasındakı enerji əməkdaşlığının böyük perspektivləri var. Avropa İttifaqı Azərbaycanda enerji sektorunun daha da inkişafına dəstək verməyə hazırdır: "Biz hələ 2009-cu ildə Xəzərdə hasil olunan təbii qazın Avropaya nəqlinə dair ideyaları eşitməyə başladıq. İlkin olaraq "Nabucco" layihəsi irəli sürüldü. Bu layihə çərçivəsində nəzərdə tutulurdu ki, Xəzər qazı Avropa bazarına çatdırılsın. "Nabucco" opera kimi tanınır, "Cənub qaz dəhlizi" isə reallıqdır".

G.Ottinger bildirib ki, "Şahdəniz-2" yatağından hasil olunan qaz artıq boru kəməri ilə Türkiyəyə çatdırılır. Bu layihənin sonuncu hissəsi - TAP layihəsi üzrə işlər davam edir. Ümidvarıq ki, həmin işlər 2019-2020-ci illərdə tamamlanacaq: "Nazirlər səviyyəsində keçirilən bu toplantı çox mühüm tədbirə çevrilib. İtaliyadan olan nümayəndələr də TAP layihəsinin önəminə toxundular. Azərbaycan qazının İtaliyaya çatdırılması istiqamətində işlər gedir. Avropa üçün enerji təhlükəsizliyi çox mühüm məsələdir. Qarşıdakı 10 ildə isə qitədə təbii qazın önəmi daha da artacaq. Bizim üçün marşrutların və mənbələrin şaxələndirilməsi önəmlidir. Bu xüsusda Xəzər qazı, Azərbaycan qazı bizim üçün yeni mənbə, yeni marşrut deməkdir".

Avrokomissar vurğulayıb ki, Azərbaycan və SOCAR hazırda Avropa İttifaqının strateji enerji tərəfdaşıdır. Bu gün "Cənub qaz dəhlizi" tamamlandıqdan sonra növbəti ünvanlara genişləndirilməsi müzakirə olunur. Ümumi məqsəd isə növbəti 10 ildə Avropa istiqamətinə gedən qazın həcmi ən azı iki dəfə artırılsın, ildə 20 milyard kubmetr, hətta 25 milyard kubmetrə çatdırılsın.

"Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsindəki əməkdaşlığın çox geniş üfüqləri var. Bunlar arasında hasil edilən yanacaq, bərpaolunan enerji mənbələri, həmçinin elektrik şəbəkələrinin müasirləşdirilməsi kimi məqamlar var. Nəqliyyat sahəsində də bizim əməkdaşlığımız genişlənə bilər. Avropa İttifaqı Azərbaycanın öz iqtisadiyyatını daha da şaxələndirməsinə töhfə vermək, enerji və bərpaolunan enerji sahəsində də əməkdaşlığı genişləndirmək əzmindədir", - deyə o əlavə edib.

Xatırladaq ki, Məşvərət Şurası çərçivəsində nazirlərin ilk toplantısı 2015-ci il fevralın 12-də, ikinci toplantı 2016-cı il fevralın 29-da, üçüncü toplantı 2017-ci il fevralın 23-də, dördüncü toplantı isə ötən il fevralın 15-də keçirilib.

# Enerji təhlükəsizliyi və geniş beynəlxalq əməkdaşlıq layihəsi

## Prezident İlham ƏLİYEV: "Cənub qaz dəhlizi"nin dörd elementindən üçü artıq hazırdır və istifadə olunur

Dünən Bakıda, Heydər Əliyev Mərkəzində keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısında layihənin iştirakçısı olan ölkələrin energetika nazirləri və müxtəlif qurumların təmsilçiləri, o cümlədən Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı, Məşvərət Şurasının fəaliyyətdə olan həmsədri Günter Ottinger iştirak etdilər.

Bu, sayca beşinci toplantı idi. 2015-ci ildən keçirilən bu iclasların hamısına Azərbaycan evsahibliyi edib. Bu faktın özü də ölkəmizin sözügedən layihəyə liderlik etdiyini bir daha təsdiqləyir.

Məşvərət Şurasının son beş ildə keçirilən toplantıları layihənin irəliləməsində mühüm rol oynayıb. Belə ki, bu tədbirlərdə görülmüş işlər barədə geniş söhbət açılıb, qarşıda duran vəzifələr müzakirə edilib, layihə ətrafında fikir mübadiləsi aparılıb.

Keçən ilin fevral ayında keçirilən dördüncü toplantıdan sonra "Cənub qaz dəhlizi"nin salnaməsində mühüm səhifələr yazılıb. May ayında Bakı yaxınlığındakı Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılışı olub. İyun ayında TANAP (Transanadolu Qaz Boru Kəməri) istifadəyə verilib. Beləliklə, indi "Cənub qaz dəhlizi"nin üç seqmenti fəaliyyətdədir. Layihənin ehtiyat mənbəyi olan "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində qaz hasil edilir. Mavi yanacağı Azərbaycanın və Gürcüstanın ərazisi ilə nəql edən Cənubi Qafqaz Boru Kəməri (CQBK) genişləndirilib. Türkiyə ərazisində 1900 kilometr məsafə boyu uzanan, "Cənub qaz dəhlizi"nin "onurğa sütunu" adlandırılan TANAP istismara verilib. Kəmər fəaliyyətə başlayandan sonra Türkiyəyə 1 milyard kubmetr qaz ixrac edib.

"Cənub qaz dəhlizi" Azərbaycanın yaratdığı mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq sayəsində gerçəkləşən layihədir. Burada yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Albaniya, Yunanıstan, Bolqarıstan və İtaliya iştirak edir. Məşvərət Şurasının beşinci toplantısında qeyd edilib ki, Azərbaycan Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro ilə Avropada enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə dair anlaşma memorandumu imzalayıb. Bunun nəticəsində ölkəmiz enerji resurslarının nəqlinin şaxələndirilməsi üçün müasir və yeni infrastruktur şəbəkəsi yaradacaq. Budəfəki toplantıda Macarıstan, Rumıniya, Serbiya, San-Marino və Türkmənistandan olan nümayəndələr də iştirak ediblər. Bu, o deməkdir ki, həm iştirakçıların sayı ildən-ilə artır, həm də layihəyə maraq göstərən dövlətlərin.

Sözügedən toplantıda Azərbaycanın təşəbbüskarı olduğu bütün enerji layihələrinin, xüsusilə "Cənub qaz dəhlizi"nin reallaşmasında Amerika Birləşmiş Ştatları hökumətinin göstərdiyi davamlı dəstək də vurğulandı. Eləcə də layihədə fəal iştirak edən şirkətlərin böyük əməyi qeyd edildi. SOCAR-BP tərəfdaşlığı yüksək dəyərləndirildi. Beynəlxalq maliyyə qurumlarının layihəyə yaxından dəstək göstərdiyi bildirildi.

Məşvərət Şurasının beşinci toplantısında çıxış edən Prezident İlham Əliyev "Cənub qaz dəhlizi"nin enerji təhlükəsizliyi və beynəlxalq əməkdaşlıq layihəsi olduğunu vurğulayaraq onun həm də enerjinin şaxələndirilməsində mühüm rol oynadığını qeyd etmişdir: "Enerji resurslarının şaxələndirilməsi istehsalçı, istehlakçı və tranzit ölkələr üçün çox vacibdir. Hesab edirəm ki, biz burada yaxşı balans tapa bilmişik - yəni, istehsalçı olan Azərbaycan və istehlakçı və tranzit dövlətlər arasında. Maraqların balansı bu layihənin uğurunu şərtləndirir. Çünki biz bir-birimizin ehtiyac və narahatlıqlarını anlamağa çalışırıq. Çalışmışıq ki, bir-birimizi dəstəkləyək, zənnimcə, bu işdə uğurlu olmuşuq və belə toplantıların əhəmiyyəti olduqca böyükdür. Çünki biz il ərzində görülən işləri nəzərdən keçirir, eyni zamanda, gələcək addımlarımızı planlaşdırır və işimizin irəlilədilməsi məqsədilə il ərzində isə ikitərəfli və çoxtərəfli görüşlər, məsləhətləşmələr və konfranslar keçiririk".

"Cənub qaz dəhlizi" enerjinin şaxələndirilməsi layihəsi olmaqla yanaşı, nəqliyyat marşrutlarının və mənbələrin diversifikasiyası rolunu da oynayır. Toplantıda qeyd edildiyi kimi, Azərbaycan Avropaya enerji resurslarının nəqli baxımından yeni mənbədir və təbii ki, yeni kəmərlər inşa etməklə enerji marşrutlarını da şaxələndirir. Başqa sözlə, "Cənub qaz dəhlizi" Avropanın enerji xəritəsini dəyişdirən layihədir. Odur ki, onun əhəmiyyəti də getcikcə artır.

"Cənub qaz dəhlizi" artıq mənzil başına yaxınlaşmaqdadır. Layihənin dördüncü - sonuncu seqmenti olan TAP-ın (Transadriatik Qaz Boru Kəməri) çəkilişi uğurla davam edir. Ötən ilin fevral ayında keçirilən dördüncü toplantıda TAP-ın tikintisi 67 faiz səviyyəsində idi. İndi isə son göstəricilərə görə bu rəqəm 87 faizdir.

"Cənub qaz dəhlizi" çərçivəsində görülən işlərə və qarşıda duran vəzifələrə bir daha nəzər salan beşinci toplantı nümayiş etdirdi ki, layihə müvəffəqiyyətlə yekunlaşacaq. Bu, layihədə iştirak edən bütün ölkələrin, şirkətlərin, maliyyə qurumlarının uğuru olacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# 31-ci Beynəlxalq İnformatika Olimpiadasının yerli və beynəlxalq təşkilat komitələrinin birgə iclası keçirilib

Fevralın 20-də ADA Universitetində məktəblilərin 31-ci Beynəlxalq İnformatika Olimpiadasının (IOI 2019) yerli və beynəlxalq təşkilat komitələrinin birgə iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasda bu il avqustun 4-dən 11-dək Bakıda keçiriləcək olimpiadaya hazırlıq prosesi, təşkilat komitələrinin və tərəfdaş qurumların fəaliyyəti müzakirə olunub.

ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev məktəblilər arasında keçiriləcək 31-ci beynəlxalq olimpiadaya Azərbaycanın evsahibliyi edəcəyini yüksək dəyərləndirib. Universitetin tədris proqramı və fəaliyyət istiqamətləri barədə məlumat verən rektor bu ali məktəbdə informasiya texnologiyaları və mühəndislik fakültəsinin olduğunu diqqətə çatdırıb.

Beynəlxalq İnformatika Olimpiadasının ilk dəfə 1989-cu ildə Bolqarıstanda keçirildiyini deyən təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, Azərbaycan bu bilik yarışına 1994-cü ildən qoşulub. Respublikamız bu beynəlxalq tədbirdə 24 dəfə təmsil olunub. Ümumilikdə 55 azərbaycanlı məktəbli bu olimpiadada iştirak edib. Şagirdlərimiz Beynəlxalq İnformatika Olimpiadasından bugünədək biri gümüş, dördü bürünc olmaqla beş medal qazanıblar.

Azərbaycanın ilk dəfə 2019-cu ildə bu nüfuzlu elm yarışına evsahibliyi edəcəyini deyən F.Qurbanov bu əlamətdar hadisəni yüksək dəyərləndirib. Qeyd edilib ki, 31-ci Beynəlxalq İnformatika Olimpiadasının Bakıda keçirilməsi haqqında qərar Yaponiyanın Tsukuba şəhərində məktəblilərin IOI 2018-in bağlanış mərasimində elan edilib və olimpiadanın bayrağı Azərbaycanın nümayəndə heyətinə təqdim olunub.

Diqqətə çatdırılıb ki, beynəlxalq tədbirin yüksək səviyyədə təşkil olunması üçün Təhsil Nazirliyi tərəfindən təşkilat komitəsi yaradılıb. Olimpiadaya bu il 90-a yaxın ölkədən təxminən 500-dən çox şagird və müəllimin qatılacağı gözlənilir.

Nazir müavini builki yarışmada azərbaycanlı məktəblilərin uğurlu nəticələr göstərəcəyinə əminliyini bildirib.

Müasir dünyada texnologiyaların inkişafının gələcək üçün vacibliyini qeyd edən nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə ölkə başçısı tərəfindən İKT-nin inkişafına göstərilən diqqət və qayğıdan söz açıb. Qeyd edib ki, Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri də İKT ilə bağlı yeniliklərin ölkəmizə gətirilməsidir. Bu mühüm tədbirə ölkəmizin evsahibliyi etməsi və hazırlıq prosesinin yüksək səviyyədə təşkili bunun bariz nümunəsidir.

Beynəlxalq İnformatika Olimpiadasının prezidenti Qreq Li fevralın 17-dən 21-dək Bakıda IOI 2019-un qış iclasının keçirildiyini söyləyib. Nəzərə çatdırıb ki, üçgünlük səfər çərçivəsində olimpiadanın beynəlxalq təşkilat komitəsinin üzvləri ötən ilin sentyabrından ölkəmizdə başlanan hazırlıq prosesi ilə tanış olub, yarışın keçiriləcəyi məkanları və texniki imkanları təftiş ediblər. Olimpiadaya hazırlıq prosesinin yüksək səviyyədə təşkil olunduğunu deyən Qreq Li Azərbaycanın bu beynəlxalq tədbirə ciddi hazırlaşdığını deyib.

ADA Universitetinin informasiya texnologiyaları və mühəndislik fakültəsinin dekanı Araz Yusubov Beynəlxalq İnformatika Olimpiadasına hazırlıq prosesi və tərəfdaş qurumların fəaliyyəti barədə məlumat verib. Bildirib ki, olimpiadanın əsas yarışı Milli Gimnastika Arenasında, digər tədbirlər isə Heydər Əliyev Mərkəzi, Bakı Konqres Mərkəzi və "Bulvar Hotel"də keçiriləcək.

Xatırladılıb ki, IOI 2018-in bağlanış mərasimində təşkilatçılar tərəfindən Beynəlxalq İnformatika Olimpiadasının bayrağı ölkəmizin təhsil nazirinin müavini Firudin Qurbanova təqdim olunub.

Sonra beynəlxalq və yerli təşkilat komitəsinin üzvləri iştirakçılara təqdim olunub. Qonaqlar təmsil etdikləri qurum və təşkilat tərəfindən olimpiadaya hazırlıqla bağlı görülən işlər barədə məlumat veriblər.

# Yeni binaların köhnə problemlərinin həllinə yaşıl işıq yandırıldı

## Prezidentin son fərmanı həm sakinlərin, həm də tikinti şirkətlərinin maraqlarına xidmət edir

Bakıda və ölkənin digər iri şəhərlərində abadlıq-quruculuq işlərinin geniş vüsət alması, xüsusən yeni yaşayış binalarının tikintisi həm şəhərlərimizə bir müasirlik gətirmiş, həm də vətəndaşlarımızı məmnun etmişdir. Çünki dövrün tələblərinə cavab verməyən "xruşşovka", "beton" və kommunal evlərdən qurtularaq rahatlığa, genişliyə çıxmaq istəyən şəhər sakinləri çoxdankı arzularına qovuşmaq imkanı qazanmışlar.

Əvvəllər sahibkarlarımızın təcrübəsi olmadığı üçün bu işlə türk inşaatçıları məşğul olurdu. Lakin yerli sahibkarlarımız qısa müddətdə inşaat işinə dərindən yiyələnərək bu gəlirli bazara sahib çıxdılar. Bununla Bakıda əsl tikinti bumu başladı. Amma müəyyən vaxtdan sonra bu işə həvəslə qoşulan sahibkarlar bir sıra bürokratik əngəllərlə qarşılaşdılar. Əvvəl tikintiyə icazə almaq, bina hazır olandan sonra isə onu istismara qəbul etdirmək üçün çoxsaylı nazirlik və idarələrdən "keçmək" lazım gəlirdi. Düzdür, Prezident bu sahədə olan əngəlləri aradan qaldırmaq üçün vaxtaşırı müvafiq dövlət qurumlarına tapşırıqlar verir, sərəncamlar imzalayırdı. Məhz bunun sayəsində tikintiyə icazə almaq, binalara işıq, su, qaz verilməsi prosedurları əvvəlki dövrə nisbətən xeyli sadələşmişdi. Lakin həll olunmayan problemlər də az deyildi. İlk növbədə binaların istismara verilməsi barədə dövlət aktı olmadığı üçün vətəndaşlar uzun müddət mənzillərini özəlləşdirə bilmirdilər. Bu səbəbdən belə binaların sakinləri illərlə özlərinə məxsus mənzillərdə pasport qeydiyyatı olmadan yaşamağa məcbur idilər. Sözsüz ki, bu cür vəziyyət həm vətəndaşların narazılığına səbəb olur, həm də tikinti şirkətlərini qarşılaşdıqları problemləri həll etmək üçün qanunsuz yollardan istifadə etməyə məcbur edirdi.

Prezident İlham Əliyevin 19 fevral 2019-cu il tarixli "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" fərmanı bu sahədəki problemləri birdəfəlik həll etmək üçün yaşıl işıq yandırmışdır. Belə ki, fərmanda mövcud problemlərin həlli ilə bağlı hər bir dövlət qurumu qarşısında mühüm vəzifə və vaxt qoyulmuşdur. Fərmanın 1.1-ci bəndində deyilir: "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi 2 ay müddətində 2019-cu il yanvarın 1-dək bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış və istismar edilən mənzilləri olan çoxmənzilli yaşayış binalarını (çoxmənzilli yaşayış binası komplekslərinin) tikinti obyektinin yükdaşıyan konstruksiyalarının dayanıqlılıq, möhkəmlik baxımından istismara yararlığı, yanğın təhlükəsizliyi tələblərinə cavab verməsi, liftlərin və mühəndis-kommunikasiya təminatı sistemlərinin istismara hazırlığı baxımından müayinə edir, müayinənin nəticələri müsbət olduğu halda çoxmənzilli yaşayış binasının (çoxmənzilli yaşayış binası komplekslərinin) istismara hazır olması barədə rəy tərtib edib binanın əsas texniki göstəricilərinin və tərkib hissələrinin istismar təyinatının faktiki vəziyyətini, habelə döngə nöqtələrinin koordinatlarını əks etdirən layihələrin elektron surəti ilə birlikdə aidiyyəti üzrə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə və ya yerli icra hakimiyyət orqanlarına təqdim edir".

Fərmanın bu əsas bəndindən də göründüyü kimi, Prezident hər bir prosedur üzrə müvafiq quruma tapşırılan vəzifəni icra etmək üçün konkret vaxt qoymuşdur. Məsələn, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə rəy bildirmək üçün 7 gün vaxt verilib. Əmlak Məsələləri Dövlət Komitəsi isə tikintinin aparıldığı torpaq sahəsinin təyinatı üzrə istifadə edilmədiyi barədə məlumat daxil olduğu gündən 10 gün müddətində həmin ərazilərin kateqoriyasının dəyişdirilməsi barədə Nazirlər Kabineti qarşısında vəsadət qaldırmalıdır. "Azərsu", "Azərişıq" ASC-lər, "Azəriqaz" İstehsalat Birliyi də çoxmənzilli yaşayış binalarını istismara icazə verilən gündən 1 ay müddətində su, kanalizasiya sistemi, işıq və qazla təmin etməlidirlər. Fərmanın gələn ilin əvvəlinəcən qüvvədə olacağı isə sözügedən sahədəki mövcud problemlərin ilin sonunacan həll ediləcəyindən xəbər verir.

Prezident İlham Əliyev sosial-iqtisadi inkişafı sürətləndirən, struktur islahatlarının aparılmasını təmin edən çoxsaylı fərman və sərəncamlar imzalayıb. Dövlət başçısının bu fərmanının da həm iqtisadi, həm də sosial baxımından əhəmiyyəti böyükdür. Fərmanın tikinti ilə məşğul olan şirkətləri bürokratik əngəllərdən xilas edəcəyi, əhalinin isə sosial-kommunal problemlərinin operativ həllinə imkan yaradacağı belə qənaətə gəlməyə əsas verir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupunun birinci iclasının kommünikesi qəbul edilib

Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupunun birinci iclasının kommünikesi qəbul edilib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Kommünikedə bildirilir ki, fevralın 19-20-də Bakıda Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupunun birinci iclası keçirilib. Danışıqlarda Azərbaycan Respublikasının (rəhbəri - X.Xələfov), İran İslam Respublikasının (rəhbəri R.Ahari), Qazaxıstan Respublikasının (rəhbəri Z.Amanjolova), Rusiya Federasiyasının (rəhbəri İ.Bratçikov) və Türkmənistanın (rəhbəri M.Atacanov) nümayəndə heyətləri iştirak ediblər.

Tərəflər Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupu üçün prosedur qaydalarını qəbul ediblər. Beşinci Xəzər Sammitinin nəticələrinə dair əldə edilmiş razılaşmaların həyata keçirilməsi üzrə fikir mübadiləsi aparılıb, Xəzər dənizində əməkdaşlığın müxtəlif aspektləri nəzərdən keçirilib, eləcə də imzalanmış sazişlər üzrə dövlətdaxili prosedurların yerinə yetirilməsi, o cümlədən Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın ratifikasiya prosesi barədə məlumat verilib. Xəzər dənizində düz çıxış xətlərinin müəyyən edilməsinin metodikası üzrə saziş layihəsinin müddəaları müzakirə olunub. Layihənin bir sıra müddəaları razılaşdırılıb. Bu sənədin müzakirəsi davam etdiriləcək.

Nümayəndə heyətləri danışıqların nəticələrini müsbət qiymətləndiriblər və ilk görüşün yüksək səviyyədə təşkil edilməsi üçün Azərbaycan Respublikasına dərin minnətdarlıqlarını bildiriblər.

Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupunun növbəti iclası bu ilin aprelində Qazaxıstanda keçiriləcək.

# Hərbi attaşelər Müdafiə Sənayesi Nazirliyinin müəssisələrini ziyarət ediblər



Xarici ölkələrin Azərbaycana akkreditə olunmuş hərbi attaşeləri fevralın 20-də Müdafiə Sənayesi Nazirliyinin (MSN) müəssisələrini ziyarət ediblər.

MSN-dən AZƏRTAC-a bildiriblər ki, nazirliyin "İqlim" elmi istehsalat müəssisəsini və elektron hesablayıcı maşınlar zavodunu ziyarət edən hərbi attaşelər hər iki müəssisə ilə yaxından tanış olub, istehsal prosesini izləyiblər.

Əvvəlcə nazirliyin elektron hesablayıcı maşınlar zavoduna gələn hərbi attaşelərə müəssisənin fəaliyyəti ilə bağlı ətraflı məlumat verilib.

Qonaqlar burada MSN-in müəssisələrində yaradılan və istehsal olunan hərbi təyinatlı məmulatların nümayiş etdirildiyi sərgiyə baxıblar. Nümayiş etdirilən hər bir məmulat böyük marağa səbəb olub. Hərbi attaşelər zavodda hazırda ixrac məhsulu kimi istehsal olunan hərbi təyinatlı məmulatların hazırlanma prosesini də izləyiblər.

Sonra hərbi attaşelər istehsal gücü yüksək olan, daha çox çeşiddə hərbi təyinatlı məhsul istehsal edən "İqlim" elmi istehsalat müəssisəsinə gəliblər. Müəssisə ilə yaxından tanış olan nümayəndələrə istehsalı reallaşmış və artıq seriyalı istehsalı həyata keçirilən atıcı silahlarla bağlı ətraflı məlumat verilib. Bildirilib ki, müəssisədə istehsal olunan atıcı silahlar beynəlxalq sərgilərdə nümayiş etdirilir və ixracı həyata keçirilir.

Tanışlıq məqsədilə təşkil olunan tədbirdə 21 ölkəni təmsil edən 32 nümayəndə iştirak edib.

Sonda hərbi attaşelər müəssisələrdə yaradılmış şəraitə görə məmnunluqlarını ifadə edib, tədbirin təşkilinə görə nazirliyin rəhbərliyinə təşəkkürlərini bildiriblər.

Artıq ənənə xarakteri almış bu ziyarət Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dəstəyi ilə həyata keçirilir. Bu qəbildən olan tədbirlər hərbi-texniki sahədə əməkdaşlığın inkişafında və Azərbaycanın istehsalı olan hərbi təyinatlı məmulatların ixracının artırılmasında xüsusi rol oynayır.

# Hakimiyyətin uğurları Ə.Kərimlini tam siyasi iflasa uğradıb

Dünyanın bütün demokratik dövlətlərində siyasi idarəçiliyin xarakterindən asılı olmayaraq, iqtidar-müxalifət münasibətləri mövcuddur. Çünki müxalifətin mövcudluğu demokratik sistemin təkzibolunmaz elementidir. Azərbaycan da demokratik inkişaf yolu seçdiyindən müxalifət partiyaları ölkənin siyasi həyatında iştirak edir, parlamentdə təmsil olunurlar.

Müxalifətçilik heç bir halda dövlətə və xalqa qarşı yönəlməməlidir. Azərbaycanın siyasi tarixində hələ 1990-cı illərin əvvəllərində Yeni Azərbaycan Partiyasının müxalifət olaraq ortaya qoyduğu böyük təcrübə var. Müxalifət dövlətin milli maraq və mənafelərini hər şeydən üstün tutmalı, öz proqramları ilə hakimiyyətin fəaliyyətinin canlanmasına, alternativ düşüncələri ilə ölkə qarşısında duran vəzifələrin daha sürətlə gerçəkləşməsinə xidmət etməlidir. Təəssüf ki, bu gün Azərbaycan gerçəkliyində bəzi müxalifət partiyalarının timsalında bunun tamamilə əksi müşahidə olunur.

İndiyədək Azərbaycan cəmiyyəti həmin müxalifətdən dağıdıcılığa meyil etməkdən və yalan danışmaqdan başqa bir şey görməyib. Ona görə AXCP və ona bənzər partiyalar xalq arasında qəzəblə "dağıdıcı müxalifət" kimi tanınır. Düzdür, sıralarında adam da qalmayıb ki, dağıdıcılıqla məşğul olsunlar. Odur ki, ara-sıra qanunsuz aksiya keçirmək cəhdləri stəkanda fırtına yaratmaqdan başqa bir şey deyil.

Azərbaycanda uğurla həyata keçirilən islahatların fonunda son vaxtlar antiazərbaycançı şəbəkənin fəallaşması hiss olunur. Əlbəttə, onların fəallığının güclü Azərbaycan dövlətinin qarşısında zərrə qədər də təsir imkanları olmasa da, görünən odur ki, bunlar respublikamızın inkişafı, uğurları, insanların sosial rifahının yüksəlməsi və digər nailiyyətləri qısqanclıqla qarşılayırlar. Həmin antiazərbaycançı mərkəzlərin ruporu, buyruq qulu olan AXCP sədri Əli Kərimlinin xarici internet resurslarında yer alan müsahibəsi də bu qısqanclığın, antimilli münasibətin göstəricilərindən biridir. Bu müsahibə bir daha ondan xəbər verir ki, Ə.Kərimli sağlam müxalifətçilik prinsiplərindən tamamilə uzaq düşərək dövlətin və xalqın milli maraqlarını satmaqla məşğuldur. İqtisadi sferadakı müsbət göstəricilərə, islahatların uğurlu nəticələrinə və pozitiv yeniliklərinə, dövlətin sosial sahədə atdığı mühüm addımlara baxmayaraq, Ə.Kərimli yenə də ağa qara deməyindən qalmır. Əslində, müxalifətçiliyi antimilli platformaya çevrilmiş beləsindən başqa nəsə gözləmək də sadəlövhlük olardı.

Bu günlərdə Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Facebook" səhifəsində yer alan "Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları" sərlövhəli məqaləsində bu məsələlərə ətraflı nəzər salınıb, Ə. Kərimlinin antiazərbaycançı fəaliyyəti, onun Azərbaycanın inkişafı fonunda siyasi iflasa düçar olduğu ətraflı təhlil edilib. *"Çox maraqlı situasiyadır: dövlət başçısı şəhid ailələrinə kompensasiya ödənilməsi ilə bağlı sərəncam imzalayır, minimum əməkhaqlarını 40 faiz artırır, tələbələrin təqaüdlərini yüksəldir, qaçqınlara müasir evlər verir, yeni iş yerləri yaradır, regionları yenidən qurur və abadlaşdırır, sahibkarlara kredit verilir, əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsi üçün ardıcıl təşəbbüslər göstərir, bir sözlə, sosial müdafiəni dövlət siyasətinin ən ümdə prioriteti elan edir və əməldə də bunun belə olduğunu sübut edir, amma nədənsə, Əli Kərimli yenə narazıdır"*, - deyə Əli Həsənov yazıb.

Bəli, Ə.Kərimli narahat və narazıdır. Ona narahatlıq yaradan inkişaf edən və yüksələn Azərbaycandır. Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan hər bir uğur onların onsuz da antimilli müstəvidə qurulmuş fəaliyyətlərini alt-üst edir, insanlara yalan sırımaq cəhdlərinin və siyasi iflasdan çıxış yollarının qarşısını alır. İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan iqtisadiyyatı 3,3, maaşlar 7, pensiyalar 9, valyuta ehtiyatları 24 dəfə artıb, işsizlik və yoxsulluq həddi 5 faizə düşüb. Əli Kərimli bundan narahatdır. Amma Əli Kərimli bunları etiraf etmək üçün özündə cəsarət və güc tapa bilmir.

Digər tərəfdən, İlham Əliyev hakimiyyətinin qazandığı uğurlar Ə.Kərimlini və ətrafını xarici qrantlardan məhrum edir. Məlumdur ki, bu adamlar illər boyu xarici təşkilatlara yalan informasiyalar ötürüblər. Öz əqidələrini satmaqla xalqın milli maraqlarına qarşı çıxdıqları üçün antiazərbaycançı dairələrdən qrantlar alıblar. Əslində, bu qrantlar bir-iki nəfərin, əsasən isə Ə.Kərimlinin cibinə axıb. Həmin pullar sayəsində övladları xaricdə lüks həyat yaşayırlar. İndi AXCP sədri həmin pulların kəsilməsindən qorxur. Ona görə yeni yalanlar uydurmaqla məşğuldur.

Başqa bir məqam isə Ə.Kərimlinin Azərbaycan hakimiyyətinin həyata keçirdiyi islahatları keçirdikləri mitinqin nəticəsi kimi ictimaiyyətə sırımaq cəhdidir. O unudur ki, hakimiyyət bu islahatlara öncədən başlayıb. Hələ ötən ilin prezident seçkilərindən dərhal sonra Prezident İlham Əliyev islahatların davam etdiriləcəyini bəyan etmişdi. Ötən müddətdə sistemli və ardıcıl şəkildə ayrı-ayrı sahələri əhatə edən yeni islahatlar kursu start götürüb. Və bu gün Ə.Kərimlinin bütün bunların mitinqin nəticəsi kimi qələmə vermək cəhdi siyasi riyakarlıqdan və avantüradan başqa bir şey deyil. Bu, populizm və ictimaiyyəti aldatmaq cəhdidir.

Görünən odur ki, bu adam başını tamamilə itirib. Bir tərəfdən ölkədə qazanılan uğurlara kölgə salmağa cəhd edir, digər tərəfdən bu nailiyyətlərdən istifadə edib siyasi xal qazanmaq xülyasına düşür, eyni zamanda qrantların kəsilmək təhlükəsindən qorxur. Ə.Kərimlinin rəhbərlik etdiyi müxalif düşərgənin ölkədə baş verən keyfiyyət dəyişikliklərinə köklənə bilməməsi, konkret tarixi şəraitə uyğunlaşmaması, dövrü və insanları düzgün qiymətləndirməməsi onun tam siyasi iflası ilə nəticələnib. Bu mənada, Azərbaycanın gündən-günə güclənməsi Ə.Kərimlini stress vəziyyətinə salır ki, bu da onun isterik bəyanatlarına, açıqlamalarına səbəb olur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Hava Hücumundan Müdafiə bölmələrinin döyüş atışlı taktiki-xüsusi təlimləri keçirilir



Hərbi Hava Qüvvələrinin (HHQ) Hava Hücumundan Müdafiə (HHM) hissə və bölmələrinin döyüş atışlı taktiki-xüsusi təlimləri keçirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlər zamanı həyəcan siqnalı ilə qaldırılan bölmələr şərti düşmənin hava zərbələrinin dəf edilməsi, verilmiş tapşırığa görə qərar qəbuletmə prosesinə uyğun qərargahların fəaliyyətlərini məşq etdirirlər.

Təlimlərdə HHM bölmələri döyüş atışları icra edəcəklər.

# Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçılarına Azərbaycandakı tolerant mühit barədə məlumat verilib

Fevralın 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" adlı VIII Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçıları ilə görüş olub.

AZƏRTAC xəbər verir ki, görüşdə dövlət komitəsinin sədri Mübariz Qurbanlı layihənin Azərbaycanın tolerantlıq modeli ilə əyani tanışlıq, eləcə də bu dəyərlərin beynəlxalq aləmdə təbliği və təşviqi baxımından önəmini qeyd edib.

Sonra layihə iştirakçıları ölkəmizdəki multikultural və həmrəylik mühiti, dövlətin tolerantlıqla bağlı ölkə daxilində və beynəlxalq miqyasda həyata keçirdiyi siyasət və fəaliyyət, eyni zamanda, Azərbaycan həqiqətləri barədə məlumatlandırılıblar. Mübariz Qurbanlı bildirib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi din siyasətinin prioritet istiqamətlərindən biri məhz tolerantlıqla bağlıdır. Xalqımızın minilliklər ərzində formalaşmış tolerantlıq ənənələrini qoruyub saxlamaq, inkişaf etdirmək, yerli və beynəlxalq səviyyədə təşviq və təbliğ etmək dövlətin din siyasətinin əsas hədəfləri sırasındadır.

Azərbaycanda 32-ci qeyri-İslam olmaqla 909 dini qurumun dövlət qeydiyyatına alındığını deyən sədr bildirib ki, ölkəmizdə bütün dinlərin mənsublarına bərabər şərait yaradılır, onların öz inanc və etiqadlarına uyğun yaşamaları üçün lazımi tədbirlər görülür. Azərbaycanda 14 kilsə, 7 sinaqoqla yanaşı, bir çox xristian, yəhudi dini tədris müəssisələri sərbəst fəaliyyət göstərir və onlara dövlət tərəfindən hərtərəfli dəstək verilir. Dinlərin sülhyaratma, dialoq və əməkdaşlıq imkanlarından maksimum istifadənin önəminə toxunan dövlət komitəsinin sədri bu prosesdə fəal iştirak edən Azərbaycanın hazırda dinlər və mədəniyyətlərarası dialoqun aparıcı qüvvəsinə çevrildiyini bildirib.

Görüşdə Azərbaycan həqiqətlərindən söz açan Mübariz Qurbanlı Ermənistanın təcavüzkarlıq siyasətini davam etdirdiyini, Azərbaycan ərazisinin iyirmi faizini işğal altında saxladığını vurğulayıb.

Daha sonra Qış Məktəbinin müxtəlif ölkələrdən olan tələbələrinin sualları cavablandırılıb və onlara dövlət komitəsinin işğal altındakı torpaqlarımızda erməni vandalizminə məruz qalan tarixi-dini abidələrimiz, o cümlədən ölkəmizdəki dinlərarası harmoniya barədə ingilis dilində nəşr etdirdiyi kitablar təqdim edilib.

## 21 fevral Beynəlxalq Ana Dili Günüdür

# Qədim dilin müasir problemləri

Dil millətin varlığının əsas şərtlərindən, göstəricilərindən biridir. Azərbaycan dili istər tarixi, istərsə də müasir vəziyyəti baxımından dərin məna tutumuna, lüğət tərkibinin zənginliyinə, mükəmməl qrammatik quruluşuna görə dünyanın seçilən və inkişaf etmiş dillərindən biridir. Varlığımızın, özünü təsdiqimizin mühüm göstəricilərindən biri olan ana dilimiz tarix boyu olduğu kimi, müasir dövrdə də ölkəmizin hüdudlarını aşaraq bir sıra bölgələrdə ümumünsiyyət vasitəsi rolunu oynayır və nüfuz dairəsini daha da genişləndirir. Mənəvi varlığını, mövcudluğunu qoruyub saxlayır.





### Dilləri gözləyən ölüm təhlükəsi

1999-cu ildə UNESCO tərəfindən fevralın 21-i Beynəlxalq Ana Dili Günü elan edilib. Beynəlxalq Ana Dili Günü 1952-ci il fevralın 21-də Banqladeşin Benqal şəhərində öz ana dilinin rəsmi dil olması uğrunda mübarizə aparan 4 tələbənin öldürülməsi hadisəsini bir daha insanların xatirəsində canlandırır.

Son 100 il ərzində 3000-dən 6000-ə qədər dili ölüm təhlükəsi gözləyir. Dilin saxlanması üçün həmin dildə ən azı 100 min insan danışmalıdır. Yer üzündə əhalinin 80 faizi mövcud 7000 dildən yalnız 80 dili bilir. Qalan dillərdə əhalinin 20 faizi danışır. 3,5 min dil əhalinin 0,2 faizinə aiddir.

### Dövlət qayğısı

AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu məlumat verir ki, ölkəmizdə ana dilinə dövlət qayğısı ilə bağlı məsələdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin misilsiz xidmətləri vardır: "Ulu öndər hələ hakimiyyətinin birinci dövründə Azərbaycan dilinə böyük qayğı göstərmiş və bunun nəticəsi olaraq Azərbaycan SSR-nin 1978-ci ildə qəbul olunmuş konstitusiyasına dövlət dili ilə bağlı ayrıca maddə daxil edilmişdi. Ulu öndərin Azərbaycana rəhbərliyinin ikinci mərhələsində isə Azərbaycan dili dövlət dili statusunu qazanmışdır. Prezident İlham Əliyev də ana dili ilə bağlı mühüm dövlət sənədlərinə imza ataraq dövlət quruculuğu siyasətində bu məsələyə böyük önəm verir. Təkcə keçən il ölkə Prezidenti dövlət dili ilə bağlı "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncam və "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərman imzalamışdır".

### Dilimizin daxili imkanları hesabına xeyli milli terminlər yaranıb

Dil canlı bir məfhumdur və cəmiyyət, dünya inkişaf etdikcə, o da dayanmadan inkişaf edir. Dilin lüğət tərkibinə zamanla xeyli sayda yeni sözlər daxil olur, işləkliyini itirən müəyyən sözlər isə sıradan çıxır. Bəs elmi, texniki tərəqqi ilə bağlı dilimizə daxil olan alınma sözlər hansısa dəyişikliklərə, dilin saflığının pozulmasına gətirib çıxara bilərmi?

Bununla əlaqədar suallarımızı cavablandıran filologiya elmləri doktoru, professor, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda "Terminologiya" şöbəsinin müdiri və AMEA Rəyasət Heyəti yanında Terminologiya Komissiyasının sədr müavini Sayalı Sadıqova deyir ki, son dövrlər dilimizə xeyli alınma söz daxil olub. Bu sözlərin dilimizdə işlənməsini müəyyən mənada təbii bir proses hesab etmək olar. Çünki hazırda elmi-texniki tərəqqi, qloballaşma, ayrı-ayrı elm sahələrinin, yeni anlayışların yaranmasına səbəb olur və dilə yeni sözlər daxil olur. Bu alınmaların bir hissəsinin, dilimizin daxili imkanları hesabına qarşılığı yaranır, digər hissəsi isə beynəlxalq terminlərdən ibarət olur: "Kompüter texnologiyası son dövrlərin nailiyyətidir və bununla bağlı dilimizə çoxlu alınma sözlər daxil olur. Lakin bu o demək deyil ki, kompüter texnologiyası ilə bağlı bütün anlayışlar yalnız alınma sözlər hesabına yaranmışdır. Dilimizin daxili imkanları hesabına sonsuz miqdarda bu sahə ilə bağlı milli terminlər yaranıb və bu, milli bazanın formalaşmasında əsas götürülüb".

Akademik Möhsün Nağısoylu isə söyləyir ki, elmi-texniki, siyasi-ictimai, iqtisadi və mədəni həyatın hər günü həyatımıza yeni-yeni anlayışlar və onları ifadə edən sözlər, ifadələr gətirir, bunların da bir çoxu informasiya texnologiyaları ilə bağlıdır. Bununla bağlı dilimizin lüğət tərkibində, demək olar ki, hər gün yeni bir söz özünə yer tapır: "Son üç ildə AMEA Nəsimi adına Dilçilik İnstitutunda "Azərbaycan dilinin yeni sözlər və mənalar lüğəti", "Yeni terminlərin izahlı lüğəti" kitabları nəşr olunmuşdur. Müasir dövrdə hər hansı bir dili inkişafsız təsəvvür etmək olmaz. Azərbaycan dili daim inkişaf edən dillər sırasındadır. Dilimiz həm dildaxili, həm də ekstralinqvistik amillər hesabına durmadan inkişaf edir və daim zənginləşir. Ümumi qanunauyğunluqlar cərgəsində daha çox nəzəri cəlb edən məsələ leksik-terminoloji yeniləşmədir. Alınma sözlərlə bağlı onu da qeyd edim ki, şəxsən mən bu məsələdə dilimizin öz imkanları hesabına söz yaradıcılığının tərəfdarıyam".

Akademik onu da qeyd edir ki, Azərbaycan dilinin lüğət tərkibinin müasir mərhələdəki inkişaf yolları, yeni sözlərin normalaşma prosesi və s. kimi nəzəri məsələlərin öyrənilməsi dilçiliyimizin aktual problemləri sırasındadır: "Əlbəttə, dilə daxil olan yeni sözlərin struktur-semantik xüsusiyyətlərinin hansı meyarlarla müəyyənləşdirilməsi dilə yeni daxil olan leksik-terminoloji vahidlərin sistemli öyrənilməsi ilə sıx bağlıdır. Müstəqillik şəraitində dilimizə yeni sözlərin daxil olması prosesi, təbii ki, müəyyən zərurətdən irəli gəlir. AMEA Nəsimi adına Dilçilik İnstitutunda Azərbaycan dilinə son illər daxil olan söz və terminlər toplanılmış, tematik baxımdan sistemə salınmış və onlar izahlı lüğətlər şəklində hazırlanaraq nəşr edilmişdir. Yeni söz və terminləri müəyyənləşdirərkən dil mənsubiyyəti meyarı əsas götürülmüşdür. Yeni söz və terminlər müəyyən hallarda dilimizin inkişaf səviyyəsinin mühüm göstəricisi kimi çıxış edir. Sosial həyatda, elmin və texnikanın inkişafında baş verən mühüm dəyişikliklər, ilk növbədə, yeni söz və terminlərdə öz əksini tapır. Qeyd edim ki, dildə baş verən yeni söz yaradıcılığı prosesi, əsasən dilin öz daxili imkanları hesabına yeni düzəltmə və mürəkkəb sözlərin yaradılması istiqamətində gedir. Bununla belə, müxtəlif elm sahələri və informasiya texnologiyaları ilə bağlı bir sıra beynəlmiləl sözlərin dilimizin fonetik qanunlarına uyğun şəkildə qəbul edilməsi və işlədilməsi qaçılmaz bir prosesdir".

### 113 min sözdən yalnız 3-5 mini istifadə olunur

O da həqiqətdir ki, bəzən dilimizin zənginliyindən lazımi qaydada istifadə olunmur. Televiziya və radio kanalları, internet resursları, qəzetlərdə və müxtəlif reklamlarda ədəbi dil normalarının pozulması müşahidə edilir. Xüsusilə, ana dilimizdə qarşılığı olduğu halda, yerli-yersiz əcnəbi sözlərin işlədilməsinə rast gəlinir.

Möhsün Nağısoylu qeyd edir ki, müstəqillik şəraitində, eləcə də müasir elmi-texniki yeniliklərlə bağlı Azərbaycan dilində alınma terminlərin milliləşməsi, yəni, dilin daxili imkanları hesabına onların uyğun qarşılıqlarının tapılması prosesi gedir. Münasib qarşılığın tapılmasının və onun müəyyənləşdirilməsinin də özünəməxsus xüsusiyyətləri var. Bu, öncə Azərbaycan dilinin müəyyən qanunauyğunluqları və mövcud imkanları çərçivəsində baş verməlidir. Azərbaycan dilinin müasir inkişafının perspektivləri göstərir ki, ana dilimiz münasib qarşılıqların tapılması və müəyyənləşdirilməsi baxımından geniş imkanlara malikdir: "Bu məsələdə özbaşınalığa yol vermək olmaz. Çünki bu gün bəzi mətbuat orqanlarında dilimizdə artıq vətəndaşlıq hüququ qazanmış alınma sözlərin əvəzində onların türk dilində işlənən qarşılıqlarına rast gəlmək olur. Məsələn, "diskussiya" əvəzinə "tartışma", "kompromis" əvəzinə "anlaşıt", "koalasiya" əvəzinə "bağlaş", "ənənə" əvəzinə "gələnək", "marketinq" əvəzinə "pazarlama" və s. Bu da cəmiyyətdə haqlı narazılığa səbəb olur. Məhz buna görə də bu qəbildən olan sözlərin geniş müzakirə edilməsinə, onların tənzimlənməsinə və ortaq bir nəticə əldə edilməsinə böyük ehtiyac duyulur. Bu məsələnin həlli üçün dilçi alimlərlə yanaşı, mətbuat işçilərinin də iştirakı ilə geniş diskussiyaların keçirilməsi, "dəyirmi masa"ların təşkili olduqca vacibdir".

Professor Sayalı Sadıqova isə deyir ki, mətbuatda müşahidə apardıqda görürlər ki, orfoqrafiya lüğətində 113 min söz varsa, ancaq onun 3-5 minindən istifadə olunur. Fikrin dəqiq çatdırılması, dilin söz ehtiyatlarından geniş istifadə edilməsi onun daha da zənginləşdirilməsi baxımından mətbuatın üzərinə mühüm vəzifə düşür: "Məsələn, son dövrlər mətbuatda başlıqların cümlələr şəklində verilməsi onun oxunaqlığının qarşısını alır. Həmçinin ancaq publisistik məqalələr verilməklə ədəbi dil janrlarını məhdudlaşdırırlar. Məqsədəuyğundur ki, müxtəlif janrlardan istifadə edilsin, məqalələrlə bərabər, bədii nümunələrə, hekayələrə geniş yer verilsin. O cümlədən, ilk növbədə dilimizin daxili imkanları hesabına yaranan, mənası dəqiq, anlaşıqlı olan sözlərdən istifadə olunsun. Bəzən isə dialekt sözlərdən geniş istifadə olunur. Elə sözlər də var ki, o mətbuatda işlənməməlidir, amma işlədilir, bax bunun qarşısını almaq lazımdır".

### Dilimizə 5 minə qədər alınma termin daxil olub

Bir müddət əvvəl Nazirlər Kabineti yanında Terminologiya Komissiyasında bəzi alınma sözlərin Azərbaycan dilindəki qarşılığı müəyyənləşdirilib. Məsələn, "zaryadka" - "yükləmə", "adapter" - "yükləyici", "proqnoz" - "öncəgörmə", "maus" - "bələdçi" kimi işlənməsi təklif olunan sözlərin qarşılığı xeyli mübahisələrə səbəb olmuşdu.

Bununla əlaqədar Sayalı Sadıqova deyir ki, Terminologiya Komissiyası müəyyən sözləri həm mütəxəssislərin, həm də xalqın müzakirəsinə verir: "Burada əlbəttə ki, daha çox o sahənin mütəxəssislərinin sözləri əsas götürülür. Məsələn, kompüter texnologiyaları ilə bağlı sözdürsə, həmin sahənin mütəxəssisinin fikri əsas götürülür. Elə bu əsasla da, yuxarıda sadalanan terminlərin, bəziləri olduğu kimi saxlanıldı. Məsələn "maus", "proqnoz" kimi sözlər. Onu da deyim ki, əgər dilimizə yeni 5 söz daxil olursa və onlar uğurlu olursa, bu, birbaşa dilin lüğət tərkibinin zənginləşməsi deməkdir".

Müstəqillik dövründə dilimizə 5 minə qədər alınma termin daxil olub. Alınma terminlərin dilimizin lüğət tərkibinin zənginləşməsinə hansı formada təsir etməsi ilə bağlı məsələyə aydınlıq gətirən Sayalı Sadıqova deyir ki, həmin terminlərin əksəriyyəti toplanıb və izahları ayrı-ayrı lüğətlərdə öz əksini tapıb. Bu həm dilimizə daxil olan terminlərin sistemləşdirilməsi, həm də onların Azərbaycan dilində yazılış formasının verilməsi, eyni zamanda, dilimizin lüğət tərkibinin zənginləşməsinə təsiri məsələlərini aydınlaşdırmaq baxımından çox mühüm əhəmiyyət kəsb edir".

Dilçilik İnstitutunun direktoru akademik Möhsün Nağısoylu da qeyd edir ki, son dövrdə müasir Azərbaycan ədəbi dilinin geniş imkanlarından lazımınca və düzgün istifadə edilməməsi halları haqlı olaraq narahatlıq doğurur: "Ədəbi dilimizin özünəməxsus inkişaf qanunauyğunluqlarına xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və bunun qarşısının alınması istiqamətində müvafiq qurumlar heç də həmişə çeviklik nümayiş etdirə bilmirlər. Nəticə etibarilə dövlət dilinin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə göstərir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanına əsasən monitorinq mərkəzi yaradılacaq və bu qurum göstərilən halların qarşısını almaq üçün təsirli tədbirlər görəcəkdir".

### Dilimizi qoruyaq

"Dilin qoruyucusu və daşıyıcısı xalqdır, buna görə də dilin keşiyində durmaq, onun hərtərəfli inkişafına nail olmaq hər kəsin vətəndaşlıq borcu olmalıdır. Hesab edirəm ki, bir əsrdən sonra da dilimizin inkişaf səviyyəsi durmadan artacaq və dünya dilləri sırasında özünün layiqli yerini tutacaqdır"- söyləyən Möhsün Nağısoylu, buna nail olmaq üçün yaxın gələcək üçün nəzərdə tutulan mühüm məsələləri aşağıdakı kimi qeyd edir:

- dilimizi ifadə imkanlarının zənginliyinə görə dünyanın tanınmış dilləri səviyyəsinə qaldırmaq istiqamətində müəyyən işləri həyata keçirmək;
- müasir dilçilik elminin son nailiyyətlərini Azərbaycan dilçiliyinə tətbiq etməklə həm də dilimizin yüksək inkişafına nail olmaq;
- dövlət dili və şifahi nitqlə bağlı mövcud nöqsanları aradan qaldırmaq;
- Azərbaycan dilinin tarixi inkişafını və müasir vəziyyətini özündə əks etdirən müxtəlif tipli lüğətlər (izahlı, terminoloji, etimoloji, tarixi, ikidilli) hazırlamaq və nəşr etdirmək;
- gündəlik ünsiyyətdə dilimizin özünəməxsus ümumişlək söz və ifadələrinə üstünlük vermək;
- ibtidai və orta təhsilin dövlət dilində geniş şəkildə tətbiqinə nail olmaq;
- Azərbaycan dilinə sonsuz sevgi və böyük ehtiram duyğularının təməlinin orta və ali təhsil müəssisələrində qoyulmasına nail olmaq.

### 50 milyon azərbaycanlı öz ana dilində danışır

Dünyaya göz açanda doğma dildə eşitdiyimiz o şirin layla, qürur anlarımızda səslənən himnimizlə fəxr edirik. Fəxr edirik ki, bu gün dünyanın müxtəlif ölkələrində 50 milyondan çox azərbaycanlı yaşayır və öz ana dilində danışır.

Və bu əsrlər, minilliklər boyu da belə davam edəcək...

Yaşayacaq, var olacaq, hər bir zaman ana dilim...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Ana dili



*Dil açanda ilk dəfə "ana" söyləyirik biz,*
*"Ana dili" adlanır bizim ilk dərsliyimiz.*
*İlk mahnımız laylanı anamız öz südüylə*
*İçirir ruhumuza bu dildə gilə-gilə.*

*Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır,*
*Bu dil bir-birimizlə əhdi-peymanımızdır.*
*Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,*
*Bu dil əcdadımızın bizə miras verdiyi*
*Qiymətli xəzinədir...onu gözlərimiz tək*
*Qoruyub, nəsillərə biz də hədiyyə verək.*

*Bizim uca dağların sonsuz əzəmətindən,*
*Yatağına sığmayan çayların hiddətindən,*
*Bu torpaqdan, bu yerdən,*
*Elin bağrından qopan yanıqlı nəğmələrdən*
*Güllərin rənglərindən, çiçəklərin iyindən,*
*Mil düzünün, Muğanın sonsuz genişliyindən,*
*Ağsaçlı babaların əqlindən, kamalından,*
*Düşmən üstünə cuman o Qıratın nalından*
*Qopan səsdən yarandın.*
*Sən xalqımın aldığı ilk nəfəsdən yarandın.*

*Ana dilim, səndədir xalqın əqli, hikməti,*
*Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış.*
*Ürəklərə yol açan Füzulinin sənəti,*
*Ey dilim, qüdrətinlə dünyalara yol açmış.*
*Səndə mənim xalqımın qəhrəmanlıqla dolu tarixi varaqlanır,*
*Səndə neçə min illik mənim mədəniyyətim,*
*Şan-şöhrətim saxlanır.*
*Mənim adım-sanımsan,*
*Namusum, vicdanımsan!*

*Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,*
*Bu dil əcdadımızın bizə qoyub getdiyi*
*Ən qiymətli mirasdır, onu gözlərimiz tək*
*Qoruyub, nəsillərə biz də hədiyyə verək!*
*Ey öz doğma dilində danışmağı ar bilən fasonlu ədabazlar,*
*Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.*
*Bunlar qoy mənim olsun,*
*Ancaq Vətən çörəyi,*
*Sizlərə qənim olsun!*

*Bəxtiyar Vahabzadə*

# Milli varlığımızın nişanəsi

Ulu öndər Heydər Əliyev milli varlığımızın kökləri üzərində pərvəriş tapan latın qrafikalı Azərbaycan əlifbasını 19 il bundan öncə yenidən həyata qaytarmaqla həm tarixi ədalətsizliyi aradan qaldırmış, həm də dilimizin inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Belə ki, ümummilli liderin 18 iyun 2001-ci il "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanından sonra bütün Azərbaycan ərazisində latın əlifbasına keçilmişdir.

Hər bir xalqın milli mədəniyyətinin tərkib hissələrindən birini həmin xalqın əlifbası, yazı sistemi təşkil edir. Əlifba xalqın mədəniyyət silahı, milli-mənəvi sərvətidir. Mükəmməl əlifba əsasında aparılan yazı sistemi xalqın maddi-mədəni nailiyyətlərinin yaranmasında, yaşamasında və inkişaf etməsində başlıca rol oynayır, dilin, elmi əlaqələrin və digər zəruri fəaliyyət sahələrinin tərəqqisinə xidmət edir. Təəssüf ki, xalqımızı bu tərəqqidən məhrum etmək istəyən qüvvələr əlifbamızı tarixin müxtəlif dövrlərində müəyyən səbəblər üzündən bir neçə dəfə dəyişdirməyə nail olmuşlar.

Ötən əsrin 20-ci illərinin sonuna kimi Azərbaycan dilinin yazısı ərəb qrafikasına əsaslanmış, yalnız 1929-cu ildə latın qrafikalı əlifbaya keçilmişdir. Ərəb əlifbasının islah olunması sahəsində ilk təşəbbüs XIX əsrin 60-cı illərində M.F.Axundzadə tərəfindən irəli sürülmüş və sonradan bu ideya bir çox Azərbaycan ziyalıları tərəfindən dəstəklənmişdir. Lakin əlifba islahatı sahəsində ilk praktiki addımlar 1918-ci ilin mayında Azərbaycanın dövlət müstəqilliyi elan olunduqdan sonra atılmışdır. 1919-cu ilin martında milli hökumət yeni Azərbaycan əlifbasının layihəsini hazırlamaq məqsədilə xüsusi komissiya yaratmışdı. Komissiyaya üç müxtəlif layihə (Məhəmməd ağa Şahtaxtlının, Abdulla bəy Əfəndizadənin və Abdulla Tağızadə ilə Mirəziz Seyidovun birgə layihələri) təqdim olunsa da, Abdulla bəy Əfəndizadənin latın qrafikasına keçməklə bağlı layihəsi bəyənilmişdi. Bu layihə 1919-cu il avqustun 20-dən sentyabrın 1-nə kimi Bakıda keçirilmiş Azərbaycan müəllimlərinin qurultayında təsdiq olunduqdan sonra parlamentin müzakirəsinə verilmişdir. Lakin 1920-ci il aprel işğalı milli hökumətə bu layihəni reallaşdırmağa imkan vermədi.

Bolşeviklər hakimiyyəti ələ alandan sonra latın qrafikasına keçidi qəbul etməyi reallaşdırmaq üçün 1922-ci ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi yanında Yeni Türk Əlifbası Komitəsi (AYTƏK) təşkil edildi. Komitənin ilk tərkibi beş nəfərdən - Səməd Ağamalıoğlu, Fərhad Ağazadə, Xudadat Məlik Aslanov, Abdulla Tağızadə və Əhməd Pepinovdan ibarət idi.

1922-ci ildə AYTƏK-in Şuşada, Qazaxda, Tovuzda, Gəncədə, Şəkidə, Ağdamda, Şəmkirdə, Zaqatalada, Göyçayda, Ağdaşda, Sabirabadda, Salyanda, Şamaxıda, Türküstanda, İrəvanda, Tiflisdə, 1923-cü ildə Qubada, Cəbrayılda yerli təşkilatları yaradılır. Bakıda yeni əlifba ilə "Yeni yol", Tiflisdə isə "İşıqlı yol" qəzetləri çap edilir. Beləliklə, ölkədə hakimiyyəti zor gücünə ələ keçirmiş bolşeviklər tədricən latın əlifbasının qəbulunun zəruriliyinə zəmin yaratdılar. Azərbaycan əlifbasının islahatı respublikada dil quruculuğuna böyük təkan verdi. Respublikada yaşayan azsaylı xalqların - ləzgilərin, avarların, saxurların, tatların, talışların, kürdlərin, udinlərin latın qrafikalı əlifbaları yaradıldı. Yeni əlifbanın qəbulundan sonra bu əlifba ilə yeni kitabların çapı məqsədilə Cəlil Məmmədquluzadə, Abdulla Tağızadə və Hacı Kərim Sanılıdan ibarət bir komissiya yaradılır. Mirzə Cəlil sədr təyin edilir. Yeni Türk Əlifbası Komitəsi və başqa nəşriyyatlar tərəfindən 1928-ci ilin noyabr ayının 1-nə qədər 473 adda, 2.377.350 tirajla kitablar dərc edilir.

Yeni əlifba müzakirələri bu dövrdə də davam etdirilir. Komissiyalar yaradılır, Türküstana, Krıma, Dağıstana səfərlər edilir. Türkoloji qurultayda geniş müzakirələr aparılır. Nəhayət, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin (MİK) 4-cü sessiyasının 1928-ci il 11 oktyabr tarixli qərarı ilə respublika latın əlifbasına keçirildi. On il idi ki, camaat bu əlifba ilə yazıb-oxumağı mənimsəmişdi. Bəs, səbəb nə oldu ki, bəh-bəhlə qəbul edilən bu əlifba vurhavurla ləğv edildi?

Türkiyənin latın qrafikasına keçməsi, 1939-cu ildə İkinci Dünya müharibəsinin başlaması çəkilən bu qədər əməyi bir qərarla heçə endirmişdir. Azərbaycanla Türkiyə arasındakı yazı əlaqəsinin müharibədə təhlükəli olacağını düşünən və artıq repressiya maşını ilə bütün ziyalıları qıran rejim kiril qrafikasına keçidin "zəruriliyini" gündəmə gətirir. 1939-cu il iyulun 11-də Azərbaycan SSR Ali Soveti 1940-cı il yanvarın 1-dən latın qrafikasından kiril qrafikasına keçmək haqqında qərar qəbul edir. Beləliklə, latın əlifbası kiril yazısı əsasında tərtib edilmiş yeni qrafikalı əlifba ilə əvəz olunur.

Dilşünasların da qeyd etdikləri kimi, kiril qrafikası əsasında hazırlanmış yeni türk əlifbaları arasında çox ciddi fərqlər var idi. SSRİ rəhbərliyi tərəfindən bilərəkdən Azərbaycanda dil quruculuğunun təbii inkişaf axarı pozulur. Mərkəzi hakimiyyətin qərarı əsasında azsaylı xalqların yeni yaradılmış əlifbaları ləğv olunur və s. Bütün bunlar türk dilləri arasında fərqləri süni surətdə dərinləşdirmək məqsədilə edilirdi. Təsadüfi deyil ki, XX əsrin sonlarında SSRİ-nin dağılması prosesi başlayanda Azərbaycan ictimaiyyətinin irəli sürdüyü ilk tələblərdən biri latın qrafikasına qayıdışla bağlı oldu. Milli şüurun oyanışının təzahürü olan bu tələb yalnız məhdud linqvistik əhəmiyyət kəsb etməyib geniş etnosiyasi xarakter daşıyırdı ki, 1990-cı ilin əvvəllərində latın qrafikasını bərpa etmək məqsədilə latın qrafikalı əlifbaya keçməyin zəruriliyini elmi faktlarla əsaslandıran ilk alim məhz akademik Afad Qurbanov olmuşdur. Əlifba islahatçısı kimi onun təşəbbüsü ilə 1 avqust 1990-cı ildə Azərbaycan Əlifba Komissiyası yaradılmış və bu sahədəki yaradıcılıq işi nəzərə alınaraq akademik Afad Qurbanov komissiyanın sədri təyin edilmişdir. Komissiyanın hazırladığı layihə 1991-ci il dekabrın 25-də Azərbaycan parlamenti tərəfindən təsdiq olunmuşdu, ancaq reallığa çevrilməmişdi.

Xalqının və ölkəsinin dəyərli təəssübkeşi, dünya şöhrətli siyasətçi Heydər Əliyev ikinci dəfə Azərbaycana siyasi hakimiyyətə qayıtdıqdan sonra bu məsələ həllini tapmışdı. Ulu öndərin 18 iyun 2001-ci il "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman ilə milli varlığımızın kökləri üzərində pərvəriş tapan latın qrafikalı əlifbaya keçilmiş və 1 avqust Əlifba Günü kimi təntənə ilə qeyd olunmağa başlanmışdır.

***Rəhman SALMANLI, "Azərbaycan"***




## XX əsrin faciəsi - Xocalı soyqırımı



# Danışır xocalılılar

## 27 il öncə bir yurd yeri xarabalığa çevrildi

Yurdu tar-mar xocalılılardan qaçqın-köçkün sığınacağına çevrilən Gəncənin Hacıkənd qəsəbəsinə də pənah gətirənlər az deyildi. İllərlə yurd həsrətli, torpaq itkisinin ağrı-acısını yaşayan digər qarabağlı, göyçəli, laçınlı, kəlbəcərlilərlə orada qaynayıb-qarışmışdılar. Bir neçə ildir ki, Göygöl rayonunun Hacıməlik kəndi yaxınlığında, 600 ailəlik yeni salınmış məcburi köçkün qəsəbəsinə köçürülüblər. Sən demə, dərd, ağrı insanları bir-birinə daha tez yaxınlaşdırırmış. Buradakı dərdli-naləlilərin çəkdiyi qəm yükü daş-torpaq ağırlığında, dodaqları bayatı-ağılı, sinələri isə övlad dağlıdır.

### Əlif Hacıyevin son kəlmələri

Xocalının istər mühasirə illərində, istərsə də son günlərində düşmənlə üz-üzə dayanan ağsaqqallarından biri, vaxtilə Kosalar kənd sovetliyinin mühasibi işləmiş, Xocalısından uzaq düşmüş, 27 ildir ki, acılı-şirinli xatirələrini yaddaşına yumaq kimi sarıyan **Kamran Məmmədov**dur. Azərbaycanın Milli Qəhrəmanı



Əlif Hacıyevin o müdhiş gecə son kəlmələrini eşidən və hönkürtüsü heç yana yetməyən müdrik el ağsaqqalı Qarabağın bir parçası olan Xocalının sanki canlı ensiklopediyasıdır: "...Kosalar 700 illik tarixə malik qədim türk kəndidir. Kəndin ilk sakinlərindən birinin - Hacı Avazın adını (ona kosa Avaz da deyirmişlər) daşıyır. Kosaların adlı-şanlı kişiləri bolşevizmə və erməni daşnaklarının çirkin niyyətlərinə qarşı olublar. İgidliklərindən nağıl-dastanlar danışılan Qaçaq Mahmudun, Kosalar, Ballıca, Xan bağı, Xanəzək və digər kəndlərdə böyük mülkləri olmuş Məhəmməd ağanın doğulduğu kənd kimi tanınıb. Ötən əsrin otuzuncu illərinin repressiyası bu kənddən də yan keçməyib. 25 nəfər repressiyanın qurbanı olub - güllələnənlərdən savayı neçələri də Sibirə ömürlük sürgün ediliblər. 1941-1945-ci illər müharibəsi də bu kəndin oğullarını əlindən alıb. Müharibəyə aparılmış 122 nəfərdən 71-i cəbhədən qayıtmayıb. Qayıdanlar isə şikəst, əlil və yaralılar olub".

"Kosalar Dağlıq Qarabağın ən sonuncu işğal edilən yaşayış məntəqəsi olub. Kənd 18 şəhid verib". Kamran əmi fikrini cəmləşdirib deyir: "...Xocalının yer üzündən silinməsindən sonra o ərazilərdə azərbaycanlıların yaşadığı kənd-kəsək daim atəş altında idi. Ona görə də kəndlərdə özünümüdafiə dəstələri yaratmışdıq. Özüm də silah götürmüşdüm. Postları boş qoya bilməzdik. Kosalar camaatı Şuşanın işğalından bir gün sonra - 9 may 1992-ci il tarixində kəndi məcburi tərk etməli oldu. Şuşa artıq erməni qoşunlarının əlində idi".

Məhəmməd Şükürovun "Xocalı: daş yaddaşım, qan yaddaşım" kitabını vərəqləyib əlavə edir ki, nə yaxşı əli qələm tutan vətənpərvərlər faciəli günlərin gələcək nəsillərə çatdırılmasına çalışırlar. Dövlət başçısı İlham Əliyev xalqımızın yaşadığı faciələrin tarixini yazıb gələcək nəsillərə çatdırılmasının vacibliyini bildirib. Ermənilərin vandallığı, insanlığa yaraşmayan hərəkətləri dünya xalqlarına da çatdırılmalıdır: "Kosaların da tarixi, o müdhiş illərdə və son günlərində yaşayıb, düşmənlə necə döyüşdüklərindən az yazılmayıb. Düşmənə qarşı mətinliklə, qəhrəmanlıqla döyüşüb şəhid olandan sonra "Azərbaycan Respublikasının Milli Qəhrəmanı" fəxri adına layiq görülən Tabil Qasım oğlu Həsənovun, Natiq Elyas oğlu Əhmədovun, Möhsün Şahin oğlu Məmmədovun, eləcə də "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilən Xəzani Kərəm oğlu Əsgərovun, ümumiyyətlə, torpaq, yurd, Vətən uğrunda canlarından keçən şəhidlərimizin şərəfli ömür yollarının örnəyə çevrilməsi üçün onların haqqında da yazılmalıdır. Bu, həm də bizim müsibətlərimizin qanlı salnaməsidir. Kəndimizin beş oğlu (Sərvər Məmmədov, Mahir Abdullayev, Eldar Rüstəmov, Rasim Ağayev və Ramiz Həsənov) isə şəhid olduqdan sonra "İgidliyə görə" medalı ilə təltif edilib.

Xocalının mühasirə illərində Kosalar kənd məktəbində qərargah yaradılmışdı. Xocalı odlara qalanan gecə qərargahda mən idim. Hava telefonunda Qarabağın igid, cəsur oğlu, Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin səsini eşitdim. Haray çəkirdi, Xocalıya kömək istəyirdi. Gecə saat 12-ni keçmişdi. O, Xocalının od tutub yandığını bildirir, hücumun qarşısını kəsmək və ləngitmək üçün Həsənabad və Xankəndinin hədəfə alınmasını istəyirdi. Canhəsən postunda bir top və qrad qurğusu var idi. O gecə Əlif Hacıyevin hava telefonu ilə "sizdən də bizə kömək olmadı..." - harayı Ağsu aşırımındakı milis postunda da eşidildi. Qəhrəman, igid komandirin sonuncu kəlmələri də Xocalıya kömək göstərilməməsini təsdiqləyirdi. Xocalı təklənmiş, yerdən-göydən əli üzülmüş xocalılılar kimi, o gecə sonuncu harayını eşitdirdi Əlif Hacıyevin səsində, təəssüf ki, o səs də susduruldu..."

### Azğın düşmənin qəzəbi və əzabı

9 nəfərlik ailədən o gecə "salamat" çıxan Xalidə və qardaşı Rauf Qəmbərovlar ikinci məskunlaşma məntəqəsinə sığınanlardandır. **Xalidə Qəmbərova** ilə Xocalının tarixini özündə əks etdirən Yaloba kənd



tarix-diyarşünaslıq muzeyində görüşdük.

Dərd insanı tez dilləndirər, amma, bir nəslin yadigarı olan Xalidə Qəmbərova sanki susmağı ilə anlatmağa çalışdı gördüyü, yaşadığı, çəkdiyi müsibətləri. Bir ayın gəlini olan Xalidə xanım-xatınlıq günlərini əlindən alan o müdhiş gecədən salamat çıxmasına nəinki sevinir, əksinə, yurdu dağılan, ocağı sönən xocalılılardan danışmağın əzabını yaşayır. Bəzi məqamları ona xatırladan muzeyin direktoru Tofiq Məmmədov divardakı şəkilləri bir-bir göstərərək məlumat verir: "Bu, yeddi nəfərini bir gecədə itirmiş ailənin başçısı Qəmbərov Qarsalan Gəray oğludur. 1941-ci ildə Xocalının Kosalar kəndində anadan olmuşdu. Onun vətənpərvərliyini yalnız Xocalı sakinləri deyil, Xankəndidə erməni yaraqlıları da yaxşı bilirdilər. Məktəbyaşlı nəvələri ilə birlikdə qətlə yetirilən Qəmbərova Validə Boran qızı onun ömür-gün yoldaşı idi. 50 yaşında erməni gülləsinə tuş gəldi. Qəmbərov Nadir Qarsalan oğlu da 1972-ci ildə Xankəndidə doğulmuşdu. Oradakı N.Gəncəvi adına orta məktəbin IX sinifində oxuyanda - 1988-ci ildə Xankəndidə ermənilərin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbi ilə nümayişlər keçirəndə dəfələrlə daşnakların təhqirlərinə məruz qalmışdı. Həmin ilin sentyabrında azərbaycanlıların Xankəndidə vəziyyətlərinin ağırlaşdığı günlərdə onların da ailəsi Xocalıya pənah gətirənlərdən olmuşdu. Ona görə də düşmənə nifrəti gündən-günə artmışdı. Nadirin böyük qardaşı Səfər də 1963-cü ildə Xankəndidə anadan olmuşdu. Taleyinə Xocalının 25 fevral 1992-ci il müsibəti yazılanlardandır. O gecə Səfər, həyat yoldaşı və iki balası (1983-cü il təvəllüdlü Esmira və 7 yaşlı Emin) ilə erməni vandalizminin qurbanına çevriliblər".

### "Bir ürəkdə yeddi yara"

...Bu ailənin daha bir üzvü - Qəmbərova Mətanət Hacı qızı isə Xocalıya Naxçıvandan gəlin köçmüşdü. Qarabağ adət-ənənəsi ilə toyları çalınanda ağlına da gətirməzdi ki, onun ailə-uşaqcanlı olduğundan, qohum-qonşularla tezliklə qaynayıb-qarışmasından, başına and içilməsindən daha çox müsibətindən, amansızcasına qətlə yetirilməsindən danışılacaq. İki balasını və həyat yoldaşını qəfil itirəcəyinə inanmasa da, illərlə xofda yaşayırdılar...

Qarsalan Qəmbərovun yeganə oğul yadigarı Raufdur. "Xocalının səsi" qəzetinin mərhum redaktoru Qasım Qırxqızlı "Bir ürəkdə yeddi yara" adlandırıb bu müsibəti yaşamış ailənin faciəsini: "..Xocalının başı üzərini qara bulud alanda Səfər qardaşı Raufla döyüşən batalyonun sıralarında idi. Ermənilərin Meşəlidən çıxarılmasında və digər əməliyyatlarda fədakarlıq göstərmişdi. Qaniçən daşnaklar Səfərin iki balasını və həyat yoldaşı Mətanəti ürəyindən vurmuşdular. Bir nəslin yeddi üzvü beləcə getdi..."

O faciəli günləri Rauf da xatırlaya bilmir, dəhşətli günlərdə itirdiyi əzizləri və doğmalarının müsibətlərini dilə gətirməyi bacarmasa da, deyir ki, bir gecənin içində hamımız pərən-pərən düşdük. Bilmirdik ki, kim harada qalıb. Anam və gəlinimiz ağır yaralı idi. Onlara heç cür kömək göstərə bilmədiyim məni hələ də yandırır.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# IADC-nin prezidenti Bakı Ali Neft Məktəbinin tələbələri ilə görüşüb

Bakı Ali Neft Məktəbində (BANM) Qazma Podratçıları Beynəlxalq Assosiasiyasının (International Association of Drilling Contractors - IADC) rəhbərliyinin tələbələrlə görüşü keçirilib.




Görüşdə BANM-ın rektoru Elmar Qasımov, IADC prezidenti Jason McFarland, assosiasiyanın Beynəlxalq inkişaf üzrə vitse-prezidenti Mayk Dubouz, Əməliyyat təhlükəsizliyi üzrə İdarəedici vitse-prezidenti Mark Denkovski, Yaxın Şərq və Afrika regionu üzrə Regional təmsilçisi Hişam Zebian, IADC-nin rəsmi jurnalı olan "Drilling Contractor"un redaktoru Linda Hsieh və BANM-ın Neft-qaz mühəndisliyi ixtisasının tələbələri iştirak ediblər.

Görüşdə çıxış edən BANM-ın rektoru Elmar Qasımov IADC-nin Azərbaycanda olan fəaliyyətini, o cümlədən BANM-ın tələbələrlə birgə işini yüksək qiymətləndirib. Rektor bildirib ki, IADC-nin mühəndislər üçün müxtəlif sosial layihələri həyata keçirməsi, onlarda xüsusi vərdiş və bacarıqları inkişaf etdirməsi və gələcək karyeralarına öz töhfəsini verməsi əvəzolunmaz xidmətlərdir.

IADC-nin prezidenti cənab McFarland söyləyib ki, rəhbərlik etdiyi təşkilatın əsas məqsədi qazma əməliyyatlarının həyata keçirildiyi ölkələrdə sənaye üzrə yenilikləri və informasiyanı təmin etmək, bütün dünya üzrə neft-qaz sənayesində fəaliyyət göstərən şirkətləri və bu sahənin gənc və təcrübəli mütəxəssislərini bir araya gətirərək əlaqələr yaratmaqdır.

IADC-nin Beynəlxalq inkişaf üzrə vitse-prezidenti Mayk Dubouz bildirib ki, qeyri-kommersiya təşkilatı olan IADC tələbələrin bilik və bacarıqlarını kəşf etmək, onları bu sahədə fəaliyyət göstərən şirkətlərlə tanış etmək və əlaqələr yaratmaq məqsədilə müxtəlif beynəlxalq və lokal konfranslar, təlimlər, seminarlar təşkil edir.

Görüşdə çıxış edən IADC-nin Əməliyyat təhlükəsizliyi üzrə İdarəedici vitse-prezidenti Mark Denkovski və Yaxın Şərq və Afrika regionu üzrə Regional təmsilçisi Hişam Zebian tələbələrə neft-qaz sənayesi üzrə gələcək karyeraları haqqında istiqamət verib, şəxsi təcrübələrini paylaşıblar.

Görüşün sonunda neft-qaz mühəndisliyi ixtisası üzrə təhsil alan tələbələr qonaqlara çoxsaylı suallar ünvanlayıblar.

IADC-nin prezidenti Jason McFarlandın rəhbərlik etdiyi nümayəndə heyəti BANM-ın kampusuna tur edərək ali məktəbin infrastrukturu ilə yaxından tanış olublar.

Qeyd edək ki, 1940-cı ildən bəri fəaliyyət göstərən və baş ofisi Amerikanın Hyuston şəhərində yerləşən IADC neft və qaz kəşfiyyatı, quyu tikintisi, istismar, neftmədən avadanlığının istehsalı və bu kimi müvafiq xidmətlər ilə məşğul olan 1600 üzv müəssisəni öz ətrafında birləşdirir.

***"Azərbaycan"***

# Dövlət sərhədi etibarlı mühafizə olunur






Son günlərdə dövlət sərhədinin etibarlı mühafizəsi, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində Dövlət Sərhəd Xidməti tərəfindən bir sıra uğurlu əməliyyatlar keçirilmiş, narkotik vasitələrin dövlət sərhədindən qeyri-qanuni gətirilməsi cəhdinin qarşısı alınmışdır. Belə ki:

7 fevral tarixində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Yardımlı rayonunun ərazisində dövlət sərhədindən narkotik vasitələrin qeyri-qanuni gətirilməsi cəhdinin qarşısı alınarkən Masallı rayon sakini 1994-cü il təvəllüdlü Nəzirli Cavad Fikrət oğlu saxlanılmışdır. Saxlanılan şəxsin üzərinə baxış keçirilərkən 1 kq 720 qr heroin, 2763 manat və 3 ədəd mobil telefon aşkar olunaraq götürülmüşdür. Həmin cinayətin digər iştirakçısı təqibdən yayınaraq meşə massivində gizlənməyə müvəffəq olmuşdur. Qeyd olunan şəxsin müəyyənləşdirilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

18 fevral tarixində Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Lənkəran rayonunun Vel kəndinin ərazisində xidmət aparan sahil nəzarət bölməsinin əməkdaşları tərəfindən sahildə kolluqların arasında gizlədilmiş halda 1 kq 85 qr heroin aşkarlanaraq götürülmüşdür.

Qeyd olunan faktlar üzrə müvafiq əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***"Azərbaycan"***

# Tibbi müayinələr əhalinin sağlamlığına xidmət edir





Prezident İlham Əliyevin tapşırığına əsasən respublikamızın bütün bölgələrində olduğu kimi, əhalinin tibbi müayinələrdən keçirilməsinə Şəmkir rayonunda da mütəşəkkilliklə başlanılmışdır.

Rayon əhalisinin növbəti tibbi müayinəsinin səmərəli keçməsi üçün mərkəzi rayon xəstəxanasında ciddi hazırlıq işləri görülmüşdür. Hər bir rayon sakininin bu aksiyadan kənarda qalmaması üçün xüsusi qrafik tərtib edilmiş, tibbin müxtəlif sahələri üzrə briqadalar yaradılmışdır. Rayonun ən təcrübəli həkimləri həmin briqadalara təhkim olunmuş, bu vacib məsələyə ciddi yanaşılması üçün xüsusi tapşırıqlar verilmişdir.

Rayonda tibbi müayinənin mütəşəkkil keçirilməsi üçün bir poliklinika şöbəsində, 32 həkim məntəqəsində, 4 kənd və 3 qəsəbə xəstəxanasında geniş hazırlıq işləri görülmüş, səhiyyə ocaqları lazımi tibbi ləvazimat, dərman və sarğı materialları ilə təmin edilmişdir. Səhiyyə ocağı olmayan kəndlərdə əhalinin müayinə edilməsi üçün əlavə 3 həkim briqadası yaradılmışdır. Həmin briqadalara terapevt, cərrah, endokrinoloq, stomatoloq, kardioloq və səhiyyənin digər sahələri üzrə həkimlər təyin edilmişdir.

Sağlamlıq imkanları məhdud olan şəxslərin tibbi müayinədən keçirilməsi diqqət mərkəzindədir. Onların evlərdə və yaşadıqları ünvanlarda tibbi müayinəsi üçün mərkəzi rayon xəstəxanasında da ayrıca səyyar həkim briqadaları yaradılmışdır.

Şəmkir rayon mərkəzi xəstəxanasından bildirmişlər ki, hər hansı xəstəlik aşkar edilmiş şəxslərin zərurət olduqda mərkəzi rayon xəstəxanasından başqa, Gəncə və Bakı şəhərlərindəki ixtisaslaşdırılmış tibb müəssisələrinə göndərilməsi də nəzərdə tutulmuşdur.

Rayonda tibbi müayinələrin mütəşəkkilliyini təmin etmək üçün könüllülər də bu işə cəlb edilmişdir. Bu işdə "Böyük yol" Gənclər İctimai Birliyinin üzvləri yaxından iştirak edirlər.

Müayinədən keçmiş bir neçə rayon sakini ilə söhbət etdik. İlk növbədə onlar əhalinin sağlamlığına diqqət və qayğı göstərən Prezident İlham Əliyevə minnətdarlıq etdilər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***


*Təkrar*

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edir

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: "Aztelekom" MMC tərəfindən istehsalat zəruriyyəti ilə əlaqədar tələb olunan 20 dəst kommutasiya L3 Switch Huawei- S6720S-26Q-EI-24C-DC və 600 ədəd SFP avadanlığının satın alınması

İştirak haqqı: 500 (beş yüz) manat

Tenderdə yerli və xarici hüquqi şəxslər iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 (Əlaqələndirici şəxs: Faiq Mustafayev, tel: 012 344 00 00 (372); e-mail: faiq.mustafayev@aztelekom.az) ünvanından əldə edə bilərlər.

Müəssisənin adı:
"Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti
Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166
Müəssisənin VÖEN-i: 9900038501
Ünvan: AZ1122, Bakı şəh, Tbilisi prospekti -187
Bankın adı: Azərpoçt MMC PF 1
Kodu: 691011
Bankın VÖEN-i: 9900037711
Müxbir hesab: AZ76NABZ 01350100000000094944
S.W.I.F.T BİK: AZPOAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır).
- vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;
- iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;
- iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;
- iddiaçının müştəri bazası haqqında məlumatlar;
- təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;
- tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

İddiaçılar tender təkliflərini 2 (iki) nüsxədə (əsli və surəti) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin əsli və surəti arasında fərqlər olduqda üstünlük "Əsli" sözü yazılmış nüsxəyə veriləcəkdir.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 12 mart 2019-cu il tarixə qədər (saat 17:00-dək), tender təklifini və tender təklifinin bank təminatını isə 29 mart 2019-cu il tarixə qədər (saat 17:00-dək) Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 ünvanına ("Aztelekom" MMC-nin Tender komissiyasına ) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 01 aprel 2019-cu il tarixdə (saat 11:00-da) Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 ünvanında - "Aztelekom" MMC-nin inzibati binasında açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

# Düşmənə göz dağı - Cocuq Mərcanlı









Cəmi iki il əvvəl burada bir dəstə inşaatçıdan başqa heç kəs gözə dəymirdi. İlk olaraq kənd məktəbinin binasının təməlini qoyurdular.

Ətrafda yalnız sökülmüş, dağıdılmış evlər görünürdü. Belə mənzərələri ən dəhşətli müharibələri əks etdirən filmlərdə görmək olar. Bu isə həqiqət idi. Erməni vəhşiliyinin, vandalizminin sözsüz, şərhsiz sübutu idi bu.

Kənddə görünən bir də Oqtay kişinin evi, bağ-bağatı, qoyun-quzusu idi. O, neçə illərdir Cocuq Mərcanlını tərk etməmiş, necə deyərlər, elin çırağını sönməyə qoymamışdı. Özünün böyük ailəsi ilə - ağbirçək anası, həyat yoldaşı, iki övladı və doğma qardaşının dörd nəfərlik külfəti ilə birlikdə düşmənin və ölümün acığına burada cəsarətlə yaşamış, qorxuya, təhlükəyə meydan oxumuşdu.

İndi Cocuq Mərcanlının sakinləri çoxdur. Kəndin övladları yurda qayıdıblar. Prezident İlham Əliyevin sərəncamlarına əsasən Cocuq Mərcanlı qısa müddətdə təzədən tikilib-qurulub. Burada hər cür şəraiti, o cümlədən işığı, suyu, qazı olan rahat evlər inşa edilib. Kəndin uşaq və yeniyetmələri müasir məktəb binasında təhsil alırlar. Kənddə Şuşa məscidinin bənzəri də istifadəyə verilib. Geniş infrastruktur yaradılıb.

Cocuq mərcanlılılar doğma kəndə qayıdışdan və onlar üçün yaradılan bu şəraitdən çox məmnundurlar.

İstər Cəbrayıldakı, istərsə də işğal altında olan digər bölgələrdəki kəndlərimizdə də insanların təzədən məskən salıb çıraq yandıracaqlarına çox qalmayıb. Düşmən bunu bilməlidir!

*Foto Fərman BAĞIROVUNDUR, "Azərbaycan"*

<u>Təkrar</u>

## "Azərpoçt" MMC tabeli poçt müəssisələrinin təminatı üçün *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**LOT 1.** Kompüter avadanlıqlarının alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanında yerləşən "Azərpoçt" MMC-dən (əlaqələndirici şəxs: Tender komissiyası, telefon: 493-56-00) ala bilərlər.

**I LOT üzrə - 400 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:
**"Azərpoçt" MMC**
**Kod: 690001**
**M/H: AZ76NABZ01350100000000094944**
**VÖEN: 9900037711**
**SWIFT: AZPOAZ 22**

**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Hesablaşma hesabı: AZ82AZPO99995381000420000125**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.
- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərfin açıldığı gündən sonra 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə peşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **13 mart 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **29 mart 2019-cu il saat 18:00-a** qədər Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri **01 aprel 2019-cu il saat 11:00-da** Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Lənkəran Dövlət Universiteti *kotirovka sorğusu elan edir*

Lənkəran Dövlət Universiteti sair xərclər (konfransların təşkil olunması) üzrə kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan təşkilatlar (025) 255-14-80 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 28.02.2019-cu il saat 16:00-dək qəbul olunur.

Ünvan: Lənkəran şəhəri, Həzi Aslanov, 50.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 27 noyabr 2018-ci il tarixdə elan edilmiş "Bakı Telefon Rabitəsi" MMC tərəfindən istehsalat zəruriyyəti ilə əlaqədar tələb olunan 130 000 abunəçi şəbəkəsinin qurulması və 80 000 mənzilin GPON (Gigabit imkanlı Passiv Optik Şəbəkə) texnologiyasının tətbiqi ilə telefonlaşdırılması və mövcud şəbəkənin genişləndirilməsi işlərinin satın alınması üzrə açıq tender proseduru üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tenderin qalibi "DG Telecom" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC ilə "DG Telecom" MMC arasında "Bakı Telefon Rabitəsi" MMC tərəfindən istehsalat zəruriyyəti ilə əlaqədar tələb olunan 130 000 abunəçi şəbəkəsinin qurulması və 80 000 mənzilin GPON (Gigabit imkanlı Passiv Optik Şəbəkə) texnologiyasının tətbiqi ilə telefonlaşdırılması və mövcud şəbəkənin genişləndirilməsi işlərinin satın alınması üzrə 11 fevral 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## ABŞ-da kosmik qoşunlar yaradılır



ABŞ Prezidenti Donald Tramp kosmik qoşunların (Space Force) yaradılması haqqında fərman imzalamışdır. Prezident Ağ evdə jurnalistlər qarşısında çıxış edərkən demişdir ki, "biz hazırlıqlı olmalıyıq". Onun dediyinə görə, kosmik qoşunların yaradılması milli təhlükəsizlik məsələsidir.

Güman edilir ki, yeni kosmik qoşunlar gələcəkdə quru qoşunları, hərbi dəniz donanması, dəniz piyadaları, aviasiya və sahil mühafizəsi ilə yanaşı, ABŞ müdafiə sistemində müstəqil qoşun növü - "altıncı əl" olacaq.

Xatırladaq ki, Tramp kosmik qoşunların yaradılması barədə ilk dəfə ötən ilin martında ABŞ Dəniz Piyadaları Korpusunun nümayəndələri ilə görüşdə məlumat vermişdir. O, müdafiə xərclərini xeyli artıracağını da vəd etmişdir.

2018-ci ilin iyununda Prezident ABŞ Müdafiə Nazirliyinə hərbi hava qüvvələri ilə eyni əhəmiyyətli qurum olacaq hərbi kosmik qüvvələrinin formalaşdırılmasını başlamağı tapşırmışdır. O vaxt Tramp bildirmişdi ki, Amerikanın müdafiəsi üçün kosmosda üstünlüyə nail olmaq lazımdır.

## Avropa İttifaqı Brexiti təxirə sala bilər

Avropa Komissiyasının (AK) sədri Jan Klod Yunker Böyük Britaniyanın Baş naziri Tereza Meylə növbəti danışıqlar ərəfəsində Avropa İttifaqının (Aİ) Brexitlə bağlı mövqeyini səsləndirmişdir. Onun dediyinə görə, Londona lazım olsa, Brüssel Brexitin təxirə salınmasına qarşı çıxmayacaq, amma bu, hüquqi problemlər yarada bilər.

Yunker vurğulamışdır ki, Brexit təyin olunmuş müddətdə baş tutmasa, Britaniya Avropa Parlamentinə seçkilərdə səsvermədə iştirak etməli olacaq. AK-nın sədri danışıqlar prosesinin uzanmasından danışarkən tərəflərin vaxt itirməsindən təəssüfləndiyini bildirmişdir.

Bundan əvvəl AK bəyan etmişdi ki, Brexit barədə Aİ ilə sazişə yenidən baxmaq niyyətində deyil, lakin tərəflər mövqeləri yaxınlaşdırmaq üçün həftənin sonunadək yenidən görüşəcəklər.

## Yaponiyanın hərbi təyyarəsi dənizə düşdü



Yaponiya hərbi hava qüvvələrinin F-2 qırıcı-bombardmançı təyyarəsi Fukuoka prefekturası sahillərinin yaxınlığında dənizə düşmüşdür. O, təlim uçuşu üçün havaya qalxdığı Suyki aviabazasından təxminən 130 kilometr şimal-şərqdə qəzaya uğramışdır. Bu barədə "The Japan News" qəzeti xəbər verir.

İki təyyarəçi sağ qalmışdır. Hadisə ilə bağlı təhqiqat aparılır.

F-2 dünən səhər saat 08:00 radələrində radarlardan itmişdir. Hərbçilər dərhal axtarış əməliyyatına başlamışlar. Katapultdan istifadə etmiş təyyarəçilər təxminən bir saatdan sonra aşkar edilmişlər.

## ABŞ administrasiyası nüvə texnologiyaları alverində şübhəli bilinir



ABŞ Nümayəndələr Palatasının nəzarət komitəsi Ağ evin Səudiyyə Ərəbistanına nüvə texnologiyaları satmaq planlarını yoxlamaq üçün Donald Tramp administrasiyasına qarşı təhqiqata başlamışdır. Komitənin 24 səhifəlik hesabatında deyilir ki, bu, ABŞ-ın milli təhlükəsizlik maraqlarına təhdid edə və potensial olaraq səudiyyəlilərə atom bombası yaratmaq imkanı verə bilər.

Sənədə əsasən, administrasiyanın bəzi yüksək vəzifəli üzvləri sövdələşməyə lobbiçilik etmişlər. Həmin sövdələşmə çərçivəsində Səudiyyə Ərəbistanında onlarca atom elektrik stansiyası tikilməlidir, özü də Amerikanın nüvə texnologiyaları onlardan təhlükəsiz istifadəsi üçün lazımi təminatlar olmadan satıla bilərdi. Bu sövdələşmənin təşəbbüskarları isə, güman ki, Trampın yaxın ətrafından olan adamlardır.

## Meksikada 12 saatda 11 nəfər öldürüldü




Meksikanın şimalında yerləşən Monterrey şəhərinin yaxınlığında banditlər 12 saat ərzində 11 nəfəri öldürmüşlər. Bu barədə "Excelsior" portalı xəbər verir.

Zorakılıq dalğası şəhərin müxtəlif rayonlarından və onun ətrafından keçmişdir. Migel Aleman adına küçədə eyni vaxtda dörd nəfər güllələnmişdir. Digər hallarda polis üç, iki, yaxud bir meyit aşkar etmişdir.

Monterreyin yerləşdiyi Nuevo-Leon ştatı ABŞ-a narkotik maddələr təchizatına nəzarət uğrunda rəqabət aparan narkomafiyanın, o cümlədən "Los-Setas" və "Zaliva" kartellərinin fəaliyyəti üzündən təhlükəli region hesab olunur.

Son illər Meksikanı zorakılıq dalğası bürümüşdür. Ötən il ölkədə rekord sayda qətl hadisəsi qeydə alınmışdır. Təhlükəsizlik Nazirliyi 33,34 mindən çox qətl hadisəsi barədə məlumat vermişdir. Bu göstərici 2017-ci il rekordunu (31,2 min qətl) keçmişdir.

# Ermənistan ordusu atəşkəs rejimini 29 dəfə pozub



Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Şavarşavan kəndində, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli, Bala Cəfərli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Sarıcalı, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## ALLAH RƏHMƏT ELƏSİN!

Süleyman İsmayılov "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə bacısı

**PAKİZƏ PAŞAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sahir Məmmədxanov Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova qardaşı

**ZAKİR MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə bacısı

**PAKİZƏ PAŞAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinin kollektivi Famil Sabitova anası

**AYNA SABİTOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıtdan Zakir Fərəcov Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şabran rayonundan Novruz Novruzov Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayevə bacısı

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8962
Sifariş 593
Qiyməti 40 qəpik